www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 sentyabr 2015-ci il Çərşənbə axşamı № 214 (6242) Qiymәti 40 qәpik

**Xəbər**

## DSK sədri narkotik şübhəsi ilə polisə aparıldı

yazısı səh.4-də

**Gündəm**

### "Avropa Birliyi Bakıya təzyiq eləməklə Rusiya diplomatiyasının işini yüngülləşdirir"



**"Deutsche Welle"dəki qalmaqallı məqalənin müəllifi:** "Avropa Birliyi və ya NATO sizin tərəfinizi tutmayacaq..."; "Əksər postsovet dövlətləri "Krım ssenarisi"nə tuş gələ bilər"

yazısı səh.8-də

### BMT-nin İlham Əliyevə verdiyi ödülün anlamı və tarixi...

yazısı səh.8-də

### Hakimiyyətin Rusiyaya meyllənməsinə müxalifət nə deyir...

yazısı səh.3-də

### Deputatlığa namizədin nümayəndəsi imza vərəqələrini yandırdı

yazısı səh.2-də

### Daşkəsəndəki film kimi qətlin təfərrüatları

yazısı səh.4-də

### Partiyalardan "seçki pozuntuları tüğyan edir" bəyanatları

yazısı səh.5-də

### Müxalifət AXCP-nin qurultayında iştirak etmədi

yazısı səh.7-də

### Riçard Kozlariçin fikirləri etiraz doğurdu

yazısı səh.11-də

### Ziya Məmmədov göründü, oğlu isə...

yazısı səh.6-da

### Paytaxtda növbəti ekoloji fəlakət

yazısı səh.15-də

### Vaqif Hacıbəyli AXCP rəhbərliyini siyasi ləyaqətsizlikdə suçladı

yazısı səh.10-da

### "Royal Bank" məsələsi qalmaqala çevrilə bilər - İran pullarını istəyir...

yazısı səh.12-də

### Bakıda həbsxanada kütləvi dava düşdü

yazısı səh.14-də

**Azərbaycanlı oliqarxın şirkətinə qarşı sensasion ittihamın pərdəarxası**

# RUSİYA MÜBARİZ MƏNSİMOVU İŞİD-LƏ "VURDU"! - SƏBƏBİ NƏDİR?

Beynəlxalq anti-İŞİD koalisiyasının yarandığı bir vaxtda azərbaycanlı iş adamına qarşı suçlamalar diqqətləri onun "Palmali" şirkətinə də yönəldəcək; nüfuzlu "Novaya qazeta"nın yazısı Qərblə münasibəti gərgin olan Azərbaycana qarşı növbəti təzyiq dalğası da başlada bilər ki, bu da Moskvanın əlinə oynayar...




yazısı səh.9-da

## Qarabağda ağır döyüşlər - düşmən 7 əsgər itirdi, Azərbaycan 3 şəhid verdi...

Siyasi analitiklər və hərbi ekspertlər böyük savaşın başlanmasını indi daha real sayır; Sərkisyanın özünüifşa bəyanatından sonra ordumuzun raket zərbələri Qarabağ ermənilərini qaçmağa vadar edib...

yazısı səh.13-də



### Deputat Elmira Axundovaya və oğluna yeni şok ittihamlar

yazısı səh.4-də



*Ann Brassör:*

### "Ərazi bütövlüyü Avropa Şurası üçün çox önəmli və həyati əhəmiyyətlidir"

yazısı səh.2-də



*Razi Nurullayev:*

### "Sahib Kərimlinin başlatdığı proses Əli Kərimliyə xidmət etdi"

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015

# Ann Brassör: "Ərazi bütövlüyü Avropa Şurası üçün çox önəmli və həyati əhəmiyyətlidir"

**"Ərazi bütövlüyü Avropa Şurası üçün çox önəmli və həyati əhəmiyyətlidir". «Trend»in məlumatına görə, bu fikirləri Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) sentyabrın 28-də öz işinə başlayan payız plenar sessiyası çərçivəsində jurnalistlər üçün keçirdiyi mətbuat konfransında Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti Ann Brassör erməni jurnalistin Dağlıq Qarabağ münaqişəsi və azərbaycanlıların son zamanlar özlərini təcavüzkar kimi aparmalarına dair sualına cavabında deyib.**


Ann Brassör

AŞ PA sədri qeyd edib ki, dəfələrlə demişəm ki, ərazi bütövlüyü məsələsi Avropa Şurası üçün çox önəmli və həyati əhəmiyyətli bir elementdir: "Zorakılıq cavab deyil və heç vaxt da ola bilməz. Danışıqlar prosesi davam edir. Bizə deyirlər ki, danışıqlar Avropa Şurasının səlahiyyətinə aid deyildir. Siz burada heç bir şey edə bilməzsiniz. Hərçənd ki, hər iki ölkə təşkilatımızın üzvüdür. Biz dialoq yolu ilə həll yolları tapmağa cəhd etməliyik. Assambleya daxilində də münaqişə tərəflərinin nümayəndə heyətləri arasında gərginlik hiss olunur. Bu qarşıdurmanı aşmağa cəhd etmək lazımdır. Ən azından insanlar Assambleya daxilində həll yollarını axtarmağa cəhd etsinlər".

**AŞ PA prezidenti həmçinin qeyd edib ki, münaqişədən ən çox əziyyət çəkən regionun sakinləridir:** "Daha çox bu regionun sakinləri münaqişədən əziyyət çəkirlər. Onlar Avropa Şurasının üzvləridir. Onlar qorunmalıdır. Onların insan haqları qorunmalıdır".




## Azay Quliyevin deputatlığa namizədliyi qeydə alındı

**Sentyabrın 28-də 8 saylı Binəqədi birinci Dairə Seçki Komissiyası Quliyev Azay Əjdər oğlunun deputatlığa namizədliyi məsələsini müzakirə edib və onun namizəd kimi qeydə alınması haqqında qərar qəbul edib.**

Qeyd edək ki, 8 saylı Binəqədi birinci seçki dairəsindən 01 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçki də Azay Quliyevin namizədliyi "Gələcəyə İnamla" Seçicilərin Təşəbbüs Qrupu tərəfindən irəli sürülmüşdü.

## Arzu Səmədbəylinin namizədliyi qeydə alınmadı



**Müsavat Partiyasından Milli Məclisə noyabrın 1-nə təyin edilmiş seçkilərə namizəd olan Arzu Səmədbəylinin namizədliyinin qeydə alınması üçün təqdim etdiyi imzaların 117-si etibarsız hesab edilib.**

Modern.az-ın məlumatına görə, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) dünən keçirilən iclasında bildirilib.

Qeyd edilib ki, 8 saylı Binəqədi birinci seçki dairəsindən namizədliyini irəli sürmüş A.Səmədbəyli namizədliyinin qeydə alınması üçün 547 imza təqdim edib. Lakin onun təqdim etdiyi imzalardan 117-si etibarsız hesab edilib. Yerdə qalan imzalar isə namizədliyin qeydə alınması üçün kifayət deyil.

Bu səbəbdən MSK dairə seçki komissiyasının A.Səmədbəylinin namizədliyini qeydə almaqdan imtina ilə bağlı qərarını qüvvədə saxlayıb.

Daha sonra Müsavat Partiyasının Divan üzvü Vəfa Abbasovanın (Cümşüdlü) deputatlığa namizədliyinin qeydə alınmaması ilə bağlı müraciətinə baxılıb.

MSK üzvü Tofiq Həsənov bildirib ki, araşdırma nəticəsində V.Abbasovanın təqdim etdiyi 550 imzadan 133-ü etibarsız hesab edilib, 44 saylı Sumqayıt seçki dairəsinin V.Abbasovanın namizədliyini qeydə almaqdan imtina ilə bağlı qərarı qüvvədə saxlanılıb.

## Daha bir jurnalist prokurorluqda dindirildi

**AzadlıqRadiosunun əməkdaşı, jurnalist İslam Şıxəli bu gün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirilib.**

Bu barədə virtualaz.org saytına jurnalistin özü məlumat verib.

İ.Şıxəli Meydan TV-nin işi ilə bağlı aparılan araşdırmaya görə dindirildiyi deyib: "Mənə Meydan TV ilə bağlı suallar verildi. Soruşdular ki, Meydan TV ilə kimin əməkdaşlıq edib-etmədiyini bilirəmmi. Daha sonra AzadlıqRadiosu, mənim bu radiodan məvacib alıb-almamağım, yaşadığım ünvanla bağlı suallar verdilər. Nəyə görə ailəmin yanında deyil, kirayədə yaşadığımı soruşdular".

Qeyd edək ki, sentyabrın 26-da hüquq-mühafizə orqanlarının əməkdaşları İslam Şıxəlinin yaşadığı mənzildə axtarış aparıblar.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

## Orxan Zeynalov Azərbaycana verilir

**2013-cü ildə Moskva ətrafında yerləşən Biryulyovo rayonunda Yeqor Şerbakovla aralarında yaranan mübahisə nəticəsində onu qətlə yetirməkdə ittiham olunaraq 17 il həbs cəzası alan Orxan Zeynalov Azərbaycana qaytarılır.**

Bu haqda modern.az saytına Orxan Zeynalovun atası Zahid Zeynalov məlumat verib.

O deyib ki, hazırda oğlunun Azərbaycana ekstradisiyası üçün sənədlər hazırlanır:

"Mübariz Qurbanlı sağ olsun, məni yaxşı qarşıladı. Ərizə verdik, hazırda sənədlər hazırlanır. Mübariz müəllim əvvəldən Orxanın Azərbaycana qaytarılması üçün kömək edəcəklərini demişdi. İndi vədinə əməl edir. Sağ olsunlar".

Zahid Zeynalov həbsdə olan oğluna baş çəkdiyini də bildirib: "Ona baş çəkdim, səhhəti də, saxlanma şəraiti də normaldır".

## Bankın vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib

**"Yunayted Kredit Bank" Açıq Səhmdar Cəmiyyətinin Gəncə filialının vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Gəncə şəhər sakininin müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Musavat.com-a verilən məlumata görə, araşdırmalarla filialın sabiq müdiri Nərminə Dərgahzadənin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, bankın elektron sənəd hesabatlarına yanlış məlumatlar daxil edərək, vəzifə saxtakarlığı etməklə Gəncə şəhər sakininin adına rəsmiləşdirilmiş 40 min ABŞ dolları məbləğində pulu mənimsəməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanılıb.**

Hazırda cinayət işi üzrə istintaq davam etdirilir.

## Deputatlığa namizədin nümayəndəsi imza vərəqələrini yandırdı

**Deputatlığa namizəd olan şəxsin başına gələn "dramatik" hadisə Bakı şəhərinin Binəqədi rayonunda baş verib. Sentyabrın 25-də Binəqədi rayon 5-ci polis bölməsinə 1988-ci il təvəllüdlü İbrahimov Ağasif Şakir oğlu müraciət edib.**

O, Binəqədi rayon 8-ci seçki dairəsindən Milli Məclisin deputatlığına namizədliyini irəli sürməyi planlaşdırır. Bu barədə vesti.az-a adıçəkilən polis bölməsindən bildiriblər.

İbrahimov bildirib ki, sentyabrın 25-də saat 21.00-da Ş.Məmmədova 11 ünvanında yerləşən Tennis Akademiyasının zalı qarşısında onunla öz rəsmi nümayəndəsi, 1993-cü il təvəllüdlü Salmanov Nəsib Əlibala oğlu və Fuad adlı şəxs arasında mübahisə olub.

Məlum olub ki, Salmanov Fuadla müqavilə bağlayıb. Müqaviləyə əsasən sonuncu 25 manat müqabilində İbrahimovun deputatlığa namizədliyinə görə imza toplamağı boynuna götürüb.

Fuad öz öhdəliyini yerinə yetirib. Amma Salmanov 25 manatı ona ödəməyib. O zaman Fuad imzalanmış və doldurulmuş 300 vərəqi və imzalanmış 200 boş vərəqi yandırıb.

Binəqədi Rayon Polis idarəsində bildiriblər ki, İbrahimov Fuaddan şikayət etsə də sonuncuya cəza düşmür. Çünki heç kim heç kim üçün havayı işləməyə məcbur deyil. Fuad öz əməyinin bəhrəsini məhv edib. Beləliklə, İbrahimov özü üçün yenidən imza toplamalı olacaq. Əlbəttə, əgər vaxtı çatarsa.

Axı namizədlərin imzaların təhvil verilməsi müddəti çərşənbə günü saat 18.00-da başa çatır.



## Məhkəmə Cəmil Həsənlinin qızının vəsatətini qismən təmin edib

**Sentyabrın 28-də Bakı Apelyasiya Məhkəməsi (BAM) Əflatun Qasımovun sədrliyi ilə Demokratik Qüvvələrin Milli Şurasının (DQMŞ) rəhbəri Cəmil Həsənlinin qızı Günel Həsənlinin şikayətinə baxılmasını davam etdirib.**

Şikayət birinci instansiya məhkəməsinin qərarından verilib. Xatırladaq ki, fevralın 22-də Yasamal Rayon Məhkəməsi Güneli 2014-cü ilin sentyabrında 87 yaşlı Adilə Səlimovanı maşınla vurmaqda təqsirli bilib və onu cəzasını məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməklə, bir il yarım müddətinə azadlıqdan məhrum edib.

Apreldə Bakı Apelyasiya Məhkəməsi şikayətə istintaqla baxmaqdan imtina edib. Müdafiə tərəfi Ali Məhkəməyə kasasiya şikayəti verib, bu şikayət də təmin edilməyib.

Sentyabrın 11-də Bakı Apelyasiya Məhkəməsi apelyasiya şikayətinə mahiyyəti üzrə baxmağa başlayıb.

Dünən məhkəmə müdafiə tərəfin təkrar məhkəmə-tibbi ekspertizanın keçirilməsi və geniş tərkibdə mütəxəssislərin iştirakı ilə zərərçəkmişin müayinə edilməsi haqqında vəsatətinə baxıb. Məhkəmə vəsatəti qismən təmin edib və ekspertiza keçirilməsini qərara alıb, lakin ekspertizanın formatını dəqiqləşdirməyib.

Bununla əlaqədar olaraq məhkəmə təhqiqatı qeyri-müəyyən müddətə təxirə salınıb.



## Kəmaləddin Heydərov Yardımlıda vətəndaşları qəbul edəcək

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov sentyabrın 30-da Yardımlı şəhərindəki Heydər Əliyev Mərkəzində saat 11.00-dan vətəndaşları qəbul edəcək.**

Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən APA-ya verilən məlumata görə, qəbulda yalnız Yardımlı, Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad rayonlarının sakinləri və həmin rayonlarda məskunlaşmış məcburi köçkünlər iştirak edə bilərlər.

Qəbulda yalnız FHN-in fəaliyyəti ilə bağlı müraciətlərə baxılacaq.

Qəbula gələn vətəndaşların qeydiyyatı Heydər Əliyev Mərkəzində (ünvan: Yardımlı şəhəri, Heydər Əliyev prospekti 255) 29 sentyabr 2015-ci il tarixində saat 09.00-da başlayacaq.

Qəbula gələn vətəndaşlar şəxsiyyəti təsdiq edən sənəd təqdim etməlidirlər.

## Qeydə alınan namizədlərin sayı 317-yə çatdı

Dünən Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. İclasda MSK sədri Məzahir Pənahov çıxışında bildirib ki, deputatlığa namizədlik üçün müraciət edənlərin sayı 1560 nəfərdir. MSK sədri məlumat verib ki, 660 nəfərin namizədliyi siyasi partiyalar, 60 nəfərin namizədliyi siyasi partiyalar bloku, 3 nəfərin namizədliyi təşəbbüs qrupu tərəfindən irəli sürülüb, 937 nəfər isə şəxsi təşəbbüslə müraciət edib.

M.Pənahovun sözlərinə görə, 28 sentyabr tarixinədək 1461 nəfərin namizədliyinin irəli sürülməsi təsdiq edilib, onlardan 1352 nəfər imza vərəqi alıb və 521 nəfər imza vərəqələrini qaytarıb. Namizədliyi rəsmi qeydə alınanların sayı isə 317 nəfərdir.

M. Pənahov onu da deyib ki, seçkiləri izləmək üçün 108 nəfər müşahidəçi MSK-dan akkreditasiyadan keçib, onların 97-si fərdi qaydada, 10 nəfər QHT tərəfindən, bir nəfər isə xüsusi icazə almış müşahidəçidir.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Son dövrlər Azərbaycanın Qərbə münasibətlərinin xüsusilə kəskinləşməsi fonunda Rusiyaya daha da yaxınlıq hiss olunmaqdadır. Ekspertlər bundan narahatlıqlarını bildirir və prosesin ölkənin mənafeyinin ziddinə getdiyini vurğulayırlar. Ölkənin Qərbdən üz çevirib, Rusiyaya meyllənməsi ekspertlər tərəfindən birmənalı qarşılanmır. Əsas tezis kimi ölkənin yenidən Rusiya boyunduruğuna sürükləndiyi açıq-aşkar vurğulanır. Bəs qərbyönümlü ölkə müxalifəti ölkənin Qərbdən Rusiyaya tərəf yön almasını necə qiymətləndirir? Buna etirazlar varmı?**

# Hakimiyyətin Rusiyaya meyllənməsinə müxalifət nə deyir...

## Partiyalar narahatedici açıqlamalar verir; bəzi siyasətçilər isə durumun dramatik olmadığını bildirir

MÜSAVAT

ÜMİD PARTİYASI
UMİD PARTY




**ADP sədrinin müavini Həsrət Rüstəmov** bildirib ki, bu dəfə olmasa da, dəfələrlə partiya olaraq narazılıqlarını bildiriblər: "Narazılığımızı bildirmişik, Azərbaycanın Qərb dəyərlərindən uzaqlaşıb, paralel olaraq Rusiya ilə yaxınlaşmasını ölkəmiz üçün ciddi təhlükə hesab edirik. Bundan narahat olduğumuzu dəfələrlə ifadə etmişik. Hesab edirəm ki, bu narahatçılıq bu gün də davam edir. Azərbaycan hakimiyyəti özünə qərbpərəst bir kurs götürdüyünü, daha doğrusu, demokratiyaya doğru bir kurs götürdüyünü iddia edir. Avropa İttifaqına, Avropa birliklərinə inteqrasiyanı əsas məqsəd kimi elan etsə də, əslində siyasi kursu, strategiyası regionda daha çox Azərbaycana basqı edən Rusiyanın tələblərini yerinə yetirmək olub. Bu, təbii ki, səhvdir. Azərbaycanın müstəqilliyini, suverenliyini qorumaq şərti ilə regionda Rusiyanın da, İranın da qarşısında taktiki gedişlər edə bilər. Amma strategiyası Qərbin demokratik dəyərlərinə inteqrasiya siyasəti olmalıdır. Prosesdən heç bir halda çəkilməməlidir. Əks halda, müstəqillik kifayət qədər böyük təhlükə ilə üz-üzə gələ bilər. ADP hətta Azərbaycanın NATO-ya çox ciddi inteqrasiyasının tərəfdarı kimi çıxış edirdi. Bu gün də biz həmin fikrimizdə qalırıq ki, Azərbaycan Qərbdən də regionda təhlükəsizlik üçün ciddi dəstək almağa nail olmalıdır. Özünü həqiqətən də Qərb dəyərlərini bölüşən bir dövlət kimi aparmalıdır. Amma biz bunun əksinin şahidi oluruq. Biz narahatıq və dəfələrlə bəyanat verdik. Elə hesab edirik ki, Azərbaycanın Avrasiya İttifaqına sürüklənməsi durdurulmasa, Azərbaycan xalqının çox ciddi etirazları olacaq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə qeyd edib ki, Rusiyaya yönənmə hələ ki ciddi şəkildə deyil:** "Hələ ki Azərbaycan Qərblə bağlı kursunu davam etdirir. Hər halda, Azərbaycanın dövlət müstəqilliyi uğrunda xalq on minlərlə şəhid verib. Böyük bir Azərbaycan xalq hərəkatı olub. Hər halda, dövlətimiz 70 il Rusiya imperiyasından sonra öz dövlətini bərpa edib və onu qorumaq əzmi var, gücü var. Hazırkı siyasət hələ tam demək deyil ki, Azərbaycan siyasi kursu Rusiyaya müəyyənləşdirmək istiqamətinə yönəldib. Amma bunun işartıları var. Hesab edirəm ki, bu, arzu edənlərin gözündə qalacaq. Çünki xalqın mübarizəsini, təzyiqini görə bilərlər. Bu məsələlər o qədər də asan deyil. Hər halda, Azərbaycanın gələcəyini Rusiyanın ilə bağlamaq istəyən adamlar nəhayət başa düşəcəklər ki, bu gün Rusiyanın özünü xilas etmək lazımdır, nəinki bu məsələlərdə ona dəstək vermək, Gömrük İttifaqında təmsil olunmaq".

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə isə qeyd edib ki, rusiyayönümlü xətt son dövrlər deyil, iki ildir ki, hiss olunur:** "Biz buna dəfələrlə etirazımızı bildirmişik. Ümid Partiyası olaraq bəyanatlar da vermişik. Hətta "Qarabağ" blokunda bu məsələlər geniş müzakirə olunub. Hər dəfə də hökumətə təkliflərimizi vermişik. Qərb institutları ilə münasibətlərin yaxşılaşdırılması, hər dəfə Avropa Şurasında, ATƏT-də və digər beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə qəbul olunan qətnamələri, sadəcə olaraq, bir kağız parçası kimi qiymətləndirməyin əleyhinə olmuşuq. Bu tənqidlərdən nəticə çıxarmağı və Azərbaycan üçün ölkənin inkişafı, demokratikləşməsi üçün ən yaxşı müttəfiqin Avropa ölkələri, Qərb olduğunu bildirmişik. Bu gün də biz bu qənaətdəyik. Hesab edirik ki, Rusiya heç vaxt Azərbaycanın inkişafında maraqlı deyil və Dağlıq Qarabağ probleminin yaranmasında, kənar torpaqların da işğal olunmasında Rusiyanın Ermənistana birbaşa dəstəyi var. Bu dəstək həmişə davam edir. Rusiya Qafqazda öz maraqlarını qorumaq üçün Azərbaycandan istifadə edir. Ona görə Rusiyadan dost olmaz. Üzümüz Qərbə doğru olmalıdır. Hökumət ölkəsinin rifahı üçün Qərb institutları və dövlətləri ilə qarşılıqlı istiqamətində siyasəti gücləndirməlidir".

**Müsavat başqanının müavini Elman Fəttah isə deyib ki, Müsavat Avroointeqrasiya məsələsində xüsusilə həssasdır:** "Dəfələrlə bu məsələlərə partiya səviyyəsində münasibət olub. Partiya başqanının müsahibələrində, açıqlamalarında bu məsələ xüsusilə vurğulanıb. Hətta Riqa sammiti vaxtında geniş bəyanatla çıxış edərək, sammitdə Azərbaycanın çox əhəmiyyətsiz şəxs şəklində təmsil olunmasını pisləmişdik. Ölkənin bu sammitdə birinci şəxs qismində təmsil olunmamasını Azərbaycanın Rusiyanın boyunduruğuna sürüklənməsi kimi dəyərləndirmişdik. Mən özüm də bir yazı ilə mətbuatda çıxış edərək prosesə münasibət bildirmişəm".

**Onun sözlərinə görə, bütövlükdə Avropa ilə münasibətlərin kəsilməsi Konstitusiya aktı ilə ziddiyyət təşkil edir:** "1918-ci ildə elan olunmuş Azərbaycan Cümhuriyyətinin İstiqlal bəyannaməsində, 1991-ci ildə bərpa olunmuş müsbəqilliyin Konstitusiya Aktında Azərbaycanın inkişaf modelinin qərbyönümlü olduğu bildirilib. Biz bir müddət əvvəl bir dəyirmi masa da keçirib bu məsələni müzakirə etmişik. Yekun bundan ibarətdir ki, Azərbaycan Cümhuriyyətinin 1918-ci ildəki istiqlal bəyannaməsində dövlətin quruluş fəlsəfəsi, 91-ci ildə də Konstituisya Aktı Qərbə inteqrasiyanı Azərbaycan strateji seçimi kimi əsas götürüb".

❑ **Röya RƏFİYEVA**

# Katalanların şotlandlardan fərqlənməsi



**Samir SARI**

**Katalanların referendum keçirərək İspaniyadan ayrılmaq qərarı çıxarmaları özlüyündə yekə hadisədir. Özü də katalanlar bunu bütün Avropanın vahid valyuta işlətdiyi, vahid viza rejimi tətbiq etdiyi bir dönəmdə edirlər. Görünür, ayrılıb müstəqil dövlət qurmaq ideyası onların qədimi arzusudur və tarixi fürsət indi gəlib əllərinə düşüb.**

Keçən ilin sentyabrında belə bir referendum Şotlandiyada da keçirilmişdi və şotland xalqının 55 faizi müstəqilliyin əleyhinə səs vermişdi. Hərçənd hamı gözləyirdi ki, şotland xalqının böyük oğlu müstəqillik uğrunda mücadilədə canını vermiş Uilyam Volosun (biz onu "Cəsur ürək" filmindən tanıyırıq) züryətləri tarixi fürsətdən yararlanacaqlar. Əslində onlar belə bir qərar versəydilər, tarixdə dəfələrlə olduğundan fərqli olaraq ingilislər hücum çəkib onları qırmayacaqdılar, böyük ehtimalla deyəcəkdilər ki, ol rayt, necə istəyirsiniz, elə olsun.

Amma şotlandlar ölçüb-biçib, analiz edib gördülər ki, 21-ci əsrin ingilisləri orta əsrin ingilislərindən yaxşıdır, daha cumub təzə toy edənlərə demirlər ki, arvadı ver, aparaq böyüklərə, sonra qaytarıb gətirərik (O vaxt belə bir sarsaq qayda varmış, gəlib camaatın toyundan təzə gəlini aparırmışlar). Ona görə də onlar əsrlərlə qaynayıb-qarışdıqları ingilislərdən ayrılmadılar.

Katalanlar isə şotlandlardan fərqləndilər, dedilər, yox, ispanlarla bura qədər bəsdir, ayrılaq, öz əlimiz, öz başımız olsun.

Biz katalanları hələ o qədər də tanımırıq. "Barselona" futbol klubu olmasa heç tanımazdıq. Vikipediyada yazılır ki, katalanların ayrıca dilləri var və ispan dilindən fərqlənir. Əhalisi də az deyil, 7 milyon 500 min nəfərdir. Kataloniyanın ərazisi isə təxminən bizim dövlətin ərazisinin 35-40 faizi qədərdir.

Hiss olunur ki, ispanlar katalanların bu özbaşınalığından, separatizmə yuvarlanmalarından narazıdırlar və ayrılıq tərəfdarı olan məşhur adamları - Laportanı, Qvardiolanı, Enrikyeni tənqid edirlər, deyirlər, iki dost qardaş millətin arasında ayrılıq söhbəti olmamalıdır.

Amma burası Avropadır. Yəqin ki, katalanlar və ispanlar fərqli hərəkət edəcəklər, ruslar və ukraynalılar kimi xəndək qazıb, istehkam düzəldib, içinə girib atışmayacaqlar. Sadəcə, arada qanqaraçılıq olacaq. O da zamanla ötüb keçəcək.

Politoloqlar bu hadisəyə fərqli prizmadan yanaşırlar, deyirlər, Kataloniyanın İspaniyadan ayrılması insanların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsidir, amma eyni zamanda İspaniya kimi dövlətin parçalanması deməkdir.

Hazırda bilmirəm ispanlar mediada "bu, İspaniyanı çökdürmək, zəifləmək istəyən xarici qüvvələrin məkrli planının tərkib hissəsidir" deyə həşir qoparıblar, ya yox, amma güman ki, belə çıxışlar da olacaq.

Başqa cür düşünən politoloqlar isə bildirirlər ki, bu hadisə bütün dünyada, eləcə də Avropadakı separatizm ocaqlarını tətikləyəcək, hamı ayrılıb müstəqil olmaq istəyəcək. Düzdür, Rusiyanın yarısı boyda olmayan Avropada artıq 50 dövlət var, amma güman ki, beş-altı milli knyazlıqlar da düzəltmək olar. Məsələn, İspaniyada basklar da hərəkətə gələ bilərlər, deyərlər, katalanlardan əskik kişinin oğluyuqmu, biz də müstəqil olmaq istəyirik.

Hələ orada bir aranlılar da var, eynən bizim aran camaatı kimi düzəngah yerdə yaşayırlar, öz dilləri var, cəmi yeddi min nəfərdirlər. Onlar da bir gün müstəqillik eşqinə düşsələr və İspaniya kralı IV Filippə "sabahın xeyir, kral" desələr, daha bir qanqaraçılıq olacaq.

Bizim Qarabağ problemimiz var deyə, katalanların bu hərəkətini dəstəkləyə bilmərik. Necə ki, Kosova və Şimali Kipr məsələsində bitərəf qalmışıq, bu dövlətləri rəsmən tanıya bilmirik. Qorxuruq ki, başqaları da "DQR"-i tanıyar.

Qardaş Türkiyə də bizim günümüzdədir. Kataloniya müstəqil dövlət olsa, separatçı kürdlər deyəcək *(onsuz da deyirlər)*, biz də öz dövlətimizi qururuq.

Bütün bu vurhavurda futbol azarkeşlərinin mövqeyi başqadır. Onlar Kataloniyanın müstəqil dövlət olmasını istəmirlər. Çünki belə olsa La liqada "El klassiko" olmayacaq, "Real" və "Barselona" ildə dörd-beş dəfə oynayası olmayacaqlar, çempionata maraq azalacaq.

Kataloniya ilə İspaniyanı bir arada saxlasa-saxlasa, yalnız futbol saxlayacaq. Saxlamasa da ki, ta hes zad...

# Deputata və oğluna yeni şok ittihamlar

## Şikayətçilər: "Elmira Axundova "Audi-Q7" markalı avtomaşını, Qəbələdə və Şüvəlanda villanı necə alıb, "Favorit" marketlər şəbəkəsini necə saxlayır?"

**Deputat Elmira Axundova və oğlu Həbib Axundovun adının 8 milyonluq dələduzluq qalmaqalına qarışması haqda yazmışdıq. Deputat və oğlu onlara yönəlik ittihamların doğru olmadığını söyləsələr də, qarşı tərəf iddialarında israr edir. "Yeni Müsavat"a məktub yollayan Ziya Vəliyev, Elvin Vəliyev, Sabir Ağayev, Fərman Məmmədov və Şahin Məhərrəmov Axundovların əməlləri haqda müraciətlərini millət vəkillərinə çatdırmağımızı xahiş edirlər.**


"Evim də, maşınım da kreditdədir" – Deputat

Milli Məclisin deputatı Elmira Axundova bankların təqdim etdikləri kredit faizlərinin yüksəkliyindən narazıdır.
O. AzVision.az-a açıqlamasında bildirib ki, hazırda həm maşını, həm də evi kreditdədir: "Ödənişlərlə bağlı heç bir problemim yoxdur. Çünki vaxtında ödənişlərimi edirəm. Hesab edirəm ki, kredit faizləri həddindən artıqdır. Maşın 30 minədir, amma 50 min manat ödəməlisən. Faktiki olaraq iki maşının pulunu ödəyirsən. Mən yüksək faizlərdən narazıyam. Xüsusi ilə camaat maşın alan zaman çox çətinlik çəkir. Mənim



**Müraciət müəllifləri məktublarında yazırlar:**

**"Hörmətli millət vəkilləri!**

"Onlarla insanı aldadıb həyatlarını zəhərə döndərən yeganə oğlu Həbib Axundovu cəmiyyət üçün xeyirli övlad kimi yetişdirə bilməyən Elmira Axundovanın müxtəlif televiziya kanallarında gənclərə öyüd-nəsihət verməsi, problemə düçar olmuş şəxslərə yol göstərməsi və bəzən də şou üçün göz yaşları axıtması insanda ikrah hissi yaradır. Aldadılmış insanlar çarəsiz durumda və ümidsiz olaraq çıxış yolları axtardıqları halda, Həbib Axundov Londonda, Dubayda, Antalyada və dünyanın müxtəlif şəhərlərində kef məclisləri qurur, dövlət nömrə nişanları 111-lə bitən 5-6 ədəd bahalı ("Porshe", "Jip-Wrangler") avtomaşınlar sürür, Port-Baku adlanan bahalı yaşayış kompleksində anasına və özünə məxsus 370 kv.metrlik mənzildə qiyməti milyonlarla manat olan təmir apartdırır, A.Alı küçəsi 45 ünvanında 5 mərtəbəli dəbdəbəli qeyri-yaşayış sahəsinin inşasını tamamlatdırır. Dövlət Gömrük Komitəsində aylıq əmək haqqı 485 manat 46 qəpik təşkil edən bu şəxs hansı vəsait hesabına dəyəri milyonlarla ölçülən bu işləri görə bilir?

Elmira Axundovanın xeyir-duası ilə "fəaliyyət" göstərmiş oğlu Həbib Axundov cəzasızlıq mühitində yaşayacağını zənn edir. Toruna saldığı Elnur İbrahimovu çirkin məqsədləri üçün tam istifadə etdikdən sonra şou düzəldərək onu Gürcüstan Respublikası vasitəsilə Rusiya Federasiyasına yola salan Həbib Axundov bütün cinayətləri ona yönəltməklə sudan quru çıxdığını düşünür. Elmira Axundovanın tutduğu qulluq mövqeyindən sui-istifadə etməklə Müdafiə Nazirliyinin ərzaq, geyim və əşya tenderlərində müxtəlif fiziki və hüquqi şəxsləri müəyyən haqq (şəriklik) müqabilində qalib elan etdirməsi dövləti cinayətdən başqa bir şey deyildir. Elmira Axundova bu cür "işbazlığı" nəticəsində dövlətimizin, Ali Baş Komandanımızın daim qayğı və nəzarətdə saxladığı, həddindən artıq həyati sahə olan Müdafiə Nazirliyində, eləcə də əlillərin və müvəqqəti işsizlərin ümid yeri olan, əhalinin aztəminatlı hissəsinin sosial problemlərinin həlli ilə məşğul olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində də davam etdirməsi nəticəsində dövlət büdcəsinin 100 minlərlə manat vəsaiti talan edilmiş və şəxsi ciblərə getmişdir. İxtisasca jurnalist olan Elmira Axundovanın aylıq qazancı şəxsi "Audi-Q7" markalı avtomaşını almağa, sürücü saxlamağa, gəlininə 28 iyul 2015-ci tarixdə "Toyota-Prado" *(2015-ci ilin buraxılışı)* markalı avtomaşın almağa, ona da sürücü saxlamağa, Qəbələdə iki mərtəbəli, mansarlı dəbdəbəli villa tikdirməyə, Şüvəlanda möhtəşəm villa almağa, Nəsimi rayonu, Nəsibbəy Yusifbəyli küçəsi 72 ünvanında 6 mərtəbəli qeyri-yaşayış sahəsi inşa etdirməyə, oğlunun dəyəri yüz minlərlə manat ölçülən bahalı maşınlarının "kreditlərini" ödəməyə, "Favorit" marketlər şəbəkəsini saxlamağa necə kifayət edir? Bu suallara cavabın Axundovların əsil üzünü cəmiyyətə açacağına tam əminik. Xahiş edirik müraciətimizə münasibət bildirəsiniz".






Qeyd edək ki, müraciət müəllifləri Həbib Axundovun dostu Elnur İbrahimovla yaratmış olduqları maliyyə fırıldağı piramidasının qurbanları olduğunu bildirirlər. Onlar redaksiyamıza təqdim etdikləri bundan öncəki müraciətlərində qeyd ediblər ki, Həbib Axundov və Elnur İbrahimovun əməlləri nəticəsində Ziya Vəliyevin 205 min, Elvin Vəliyevin 202 min, Sabir Ağayevin 115 min, Şahin Məhərrəmovun 70 min, Fərman Məmmədovun isə 575 min məbləğində pulları əllərindən çıxıb. Müraciət müəllifləri yazır ki, onlar əvvəlcədən planlaşdırılan dələduzluq cinayəti ilə üz- üzə qalıblar. Məhz Həbib Axundovun vasitəsi və zəmanəti ilə birbaşa onun özünə və hazırda CM-in 178.3.2-ci (dələduzluq) maddəsi ilə axtarışda olan Elnur İbrahimova pul verdiklərini iddia edirlər.

❑ E.HÜSEYNOV




# DSK sədri narkotik şübhəsi ilə polisə aparıldı

**64 saylı Dairə Seçki Komissiyasının sədri Şükür İmanov və daha 3 şəxs Sabirabad Rayon Polis Şöbəsinə aparılıb. Redaksiyamıza daxil olan məlumatda bildirilir ki, DSK sədri və Sabirabadın Qaratəpə kənd sakinləri olan digər şəxsləri polis şöbəsinə narkotik mənşəli bitkilərin əkilib becərilməsi şübhəsi ilə aparıblar. Bir neçə saat orada saxlanıldıqdan sonra Ş.İmanov və onunla birgə polisə aparılan şəxslər sərbəst buraxılıb. Belə məlumat da var ki, Ş.İmanov və tanışlarını hazırkı deputat Rüstəm Xəlilovun xahişindən sonra polisdən buraxıblar.**

"Yeni Müsavat"ın əməkdaşı məlumatı dəqiqləşdirmək üçün DSK sədri ilə əlaqə saxlayıb. Polisə aparılması ilə bağlı sualımızı dinləyən Ş.İmanov "tünlükdə" olduğunu deyərək sonra zəng etməyimizi xahiş edib. Sonra isə zənglərimizi cavabsız buraxıb. Bununla belə, onun da mövqeyini dinləməyə, dərc etməyə hazırıq.

❑ E.HÜSEYNOV

# Daşkəsəndəki film kimi qətlin təfərrüatları

## Oğul Əsgərov döyüldükdən bir gün sonra atası niyə bıçaqlanaraq öldürülüb?

**Daşkəsəndə bir gün fərqlə Ramayıl Əsgərovun döyülərək qanına qəltan edilməsinin, ardınca isə atası Rəfayel Əsgərov qətlə yetirilməsinin təfərrüatları haqda məlumat almışıq. Adının çəkilməsini istəməyən rayon sakinlərindən biri deyib ki, Əsgərovlar Daşkəsən rayonu, İsmət Qayıbov küçəsi 45, mənzil 37 ünvanında yaşayırlar.**

Hadisə baş verən gün Ramayıl Əsgərov rayondakı avtovağzalda yerləşən dostunun çayxanasına gedib. Çayxanadan onu Tariyel adlı şəxs çölə çağırıb. Çöldə isə daha 2 şəxsin olduğunu görən R.Əsgərov geri qayıtmağa cəhd edib. Amma onun qolundan yapışan Tariyel və tanışları zorla sarımtıl rəngli "VAZ-21015" markalı avtomobilə oturdublar. Maşın sürətlə çayxanadan Rudnik qəsəbəsinə tərəf hərəkət etməyə başlayıb. Həmin vaxt maşında R.Əsgərova yumruq zərbələri endirməklə döyüblər. Qəsəbənin ərazisində maşın hərəkətdə olarkən R.Əsgərov qapını açaraq özünü yerə atıb. Onu aparanlar öldüyünü düşünüb orada qoyub qaçıblar. Bir qədər sonra özünə gələn R.Əsgərov bacısının həyat yoldaşı Firudinə zəng edərək başına gələnləri danışıb. R.Əsgərovun kürəkəni onun atası Rəfayel Əsgərovla birgə həmin yerə gediblər. Qan içində olan R.Əsgərovu Daşkəsən rayon xəstəxanasına aparıblar. Orada Rəmayıl Əsgərov yaxınlarına bildirib ki, onu çayxanadan aparanlardan biri 2 il əvvəl mübahisəsi olmuş Tariyel, digəri isə cinayət aləmində "keçəl Bəxtiyar" kimi tanınan Bəxtiyar Məmmədov olub. R.Əsgərov üçüncü şəxsi üzdən tanıdığını və adını bilmədiyini deyib. Sonradan həmin şəxsin 27 yaşlı Elmir Məmmədov olduğu məlum olub.

Daşkəsən rayon xəstəxanasında R.Əsgərovu müayinə edən həkimlər deyiblər ki, döyülmə nəticəsində aldığı xəsarətlər ağır olduğundan təcili Gəncə xəstəxanasına aparılmalıdır. Gəncə xəstəxanasına aparılan R.Əsgərov orada komaya düşüb.

Qaynağımız deyib ki, R.Əsgərovu vəhşicəsinə döyülməsində iştirak edən şəxslərin kimliyi bilinsə də, Daşkəsənin hüquq-mühafizə orqanları hərəkətsizlik edib, ona qarşı qanlı cinayətdə iştirak edənləri saxlamağa elə də həvəs göstərməyiblər. Bu isə daha ağır cinayətə - Rəmayıl Əsgərovun atası Rəfayel Əsgərovun qətlinə yol açıb. Belə ki, olaydan bir gün sonra R.Əsgərovun atası Rəfayel Əsgərov Daşkəsən bazarında işlədiyi dükanı bağlayıb evə gedərkən çayxananın yaxınlığında oğlunu döyənlərdən biri olan Tariyelin atası Həmid Məmmədovla qarşılaşıb. Tərəflər arasında sözlə başlayan mübahisə əlbəyaxa davaya çevrilib. Ətrafdakıların müdaxiləsindən sonra tərəfləri aralayıblar. Lakin Həmid Məmmədov sakitləşməyərək Rəfayel Əsgərovun oğlunu döyən şəxslərdən olan Bəxtiyara zəng edib. Bəxtiyar 2-3 dəqiqə sonra əraziyə gəlib. Onun yanında Elmir Məmmədov da olub. Əllərində bıçaq olan hər 2 şəxs Rəfayel Əsgərova çoxsaylı bıçaq xəsarətləri yetirərək hadisə yerindən uzaqlaşıblar.

Qaynağımız deyib ki, ərazidə çoxsaylı taksi sürücüləri və hüquq-mühafizə orqanlarının 2 əməkdaşı olsa da, R.Əsgərovun bıçaqlanmasının qarşısını alan olmayıb. Bıçaqlanan R.Əsgərov hadisə yerindən uzağa gedə bilməyib. O, bir qədər irəlilədikdən sonra üzü üstə yerə yıxılıb. Məsələdən xəbər tutan R.Əsgərovun qohumları əraziyə gələrək qan içində olan yaxınlarını xəstəxanaya aparıblar.




Qaynağımız deyir ki, həmin vaxt xəstəxanaya dostunun "VAZ-2107"markalı maşınında "keçəl Bəxtiyar" gəlib və R.Əsgərovun yaxınlarını, qadınları nalayiq sözlərlə təhqir edərək təpik və yumruqla vurub. Xəstəxanada olan 3 polis əməkdaşı isə ona mane olmayıb. Az sonra əraziyə bir neçə maşınla gələn polis əməkdaşları onu rayon polis şöbəsinə apara biliblər. Xəstəxanaya aparılana qədər sağ olan R.Əsgərov orada kəskin qan itirmədən ölüb.

Qaynağımız bildirir ki, Əsgərovlara qarşı baş verən cinayətlərə qədər də rayon polis şöbəsinin rəisi Elsəvər Aslanov və rayon prokuroru Elman Süleymanov "keçəl Bəxtiyar"ın qanunsuzluqlarına göz yumublar. B.Məmmədovun bundan öncəki qanunsuz hərəkətlərinin rayon hüquq-mühafizə orqanları rəhbərlərinin "görməməsi" sonda ata ilə oğlunun bir gün fərqlə qanlarına qəltan edilməsi ilə sonuclanıb.

Hazırda faktla bağlı Daşkəsən Rayon Prokurorluğunda CM-in bir neçə maddəsi ilə cinayət işi başlanılıb. 32 yaşlı Bəxtiyar Məmmədov və 27 yaşlı Elmir Məmmədov istintaqa cəlb olunub. T.Məmmədovun barəsində hansı addımların atıldığı bilinmir.

**Mövzuya qayıdacağıq.**

❑ E.HÜSEYNOV

# Partiyalardan "seçki pozuntuları tüğyan edir" bəyanatları

## Müxalifətdən olan namizədlərin çoxu qeydə alınmır; AŞ PA müşahidə missiyası göndərmək qərarı verdi

**Seçki günü yaxınlaşdıqca yerlərdə deputatlığa namizədlərin hüquqlarının pozulduğu barədə informasiyalar çoxalmaqdadır. Dünən Müsavat Partiyası seçki kampaniyasında baş verən qanunsuzluq və özbaşınalıqlara dair bəyanat yayıb. Bəyanatın mətnində bildirilir ki, seçki kampaniyasında deputatlığa namizədlərin irəli sürülməsi məqsədilə imzaların toplanması və sənədlərin dairə seçki komissiyalarına təqdim olunması dövründə ölkənin demək olar ki, bütün ərazilərində qanun pozuntularına və zorakılıqlara yol verilir.**



**Bəyanatda qeyd olunur:** "50 saylı Abşeron-Qobustan seçki dairəsinin ərazisində imza toplayan Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Qədim Soltanovun oğurlanması, 55 saylı Xaçmaz şəhər seçki dairəsindən namizədliyi Müsavat Partiyası tərəfindən sürülən Söhrab Əmrahovun dairə seçki komissiyasına imza vərəqələrini təqdim etməyə gedərkən maşınının qəzaya uğradılması və özünün dairə seçki komissiyasının həyətində zorakılığa məruz qalması faktları hüquq-mühafizə orqanları tərəfindən bu günə qədər lazımi hüquqi qiymətini almayıb.

55 saylı Xaçmaz şəhər, 82 saylı Ağcabədi, 91 saylı Ucar, 97 saylı Goranboy-Ağdam-Tərtər, 108 saylı Ağstafa seçki dairələrinin ərazilərində imza toplayan şəxslərə mənəvi təzyiqlər davam edir. Xüsusilə 82 saylı Ağcabədi və 55 saylı Xaçmaz şəhər seçki dairələrinin ərazisində Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülən şəxslərin müdafiəsi üçün imza toplayan şəxslərə icra hakimiyyəti və bələdiyyə nümayəndələri tərəfindən edilən təzyiqlər mənəvi terror həddinə çatıb.

Ağcabədi rayonunun Muğanlı kəndində imza verən seçicilərə qarşı təzyiqlər, hədə-qorxular insanları təngə gətirib.

Bir sıra seçki dairələrində hakimiyyətin təzyiqinə məruz qalan şəxslərin imza vərəqələrini "itirmək" planı həyata keçirilir *(29 saylı Səbayel, 75 saylı Lənkəran-Masallı, 85 saylı Şamaxı, 108 saylı Ağstafa və s.)*

Dairə seçki komissiyalarında imzaların yoxlanılması prosesində Müsavat Partiyası tərəfindən irəli sürülən namizədlərin və ya onların səlahiyyətli nümayəndələrinin iştirakına imkan verilmir. Bununla da Seçki Məcəlləsinin 59.13-cü maddəsinin tələbləri kobudcasına pozulur.

Tələb etmələrinə baxmayaraq, Müsavat Partiyası tərəfindən irəli sürülən namizədlərə və ya onların səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyasının "İşçi qrupunun rəhbərinin təsdiq etdiyi Protokol"un surəti, "Seçici imzalarının etibarsız sayılmasının əsasları göstərilməklə müvafiq imza vərəqəsindəki sətrin nömrəsi qeyd olunan yoxlamanın nəticəsi barədə cədvəl"in surətləri verilmir. Bu isə Seçki Məcəlləsinin 59.13-cü maddəsinin və Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi Təlimatın tələblərinin kobud surətdə pozulması deməkdir".

Müsavat Partiyası seçki kampaniyasının bu mərhələsində baş verən qanun pozuntularının bir mərkəzdən idarə olunduğunu hakimiyyətin azad və ədalətli seçki keçirmək niyyətindən uzaq olduğunun daha bir sübutu kimi qiymətləndirib. Azərbaycan hakimiyyətindən qanun pozuntularına, öz vətəndaşlıq borcunu yerinə yetirən vətəndaşlara qarşı təzyiq və təqiblərə son qoyulmasını tələb edib.

**Mərkəzi Seçki Komissiyasının dünən keçirilən iclasında isə Müsavat Partiyası Məclisinin sabiq sədri, keçmiş deputat Arzu Səmədbəylinin deputatlığa namizədliyi qeydə alınmayıb. MSK Katibliyinin mətbuat və informasiya şöbəsindən verilən xəbərə görə, MSK-nın iclasında quruma daxil olmuş şikayətlərə baxılıb. 8 saylı Binəqədi 1-ci seçki dairəsi tərəfindən Arzu Səmədbəylinin namizədliyinin qeydə alınmaması ilə bağlı şikayət araşdırılıb:** "Araşdırma zamanı məlum olub ki, doğrudan da imza vərəqələrində adları qeyd olunmuş şəxslərin bəziləri dünyasını dəyişib, bəzi şəxslərin vəsiqələrinin seriyası başqa adamlara aiddir. 547 imzanın 117-si etibarsız hesab edilib və Arzu Səmədbəylinin namizədliyi qeydə alınmayıb. Səsvermə nəticəsində Dairə Seçki Komissiyasının qərarı qüvvədə saxlanılıb".

MSK-nın iclasında Ümid Partiyasının sədri İqbal Ağazadənin partiyanın namizədi Anar İsayevin hüquqlarının pozulması barədə müraciətinə də baxılıb. Müraciət araşdırılıb və DSK-nın qərarı ləğv edilərək A. İsayevin namizədliyinin qeydə alınması barədə qərar qəbul olunub.

MSK Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülən Divan üzvü Vəfa Abbasovanın (Cümşüdlü) namizədliyinin DSK tərəfindən qeydə alınması ilə bağlı şikayətə də baxıb. MSK V. Cümşüdlünün 550 seçici imzasından 133-nün DSK tərəfindən etibarsız sayılmasının haqlı olduğu barədə qərar qəbul edib. 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən namizədliyi irəli sürülən Müsavat Partiyasının Divan üzvü V. Cümşüdlünün namizədliyi qeydə alınmayıb.

Müsavat Partiyasının başqanı Arif Hacılı isə parlament seçkiləri və Müsavat Partiyasının son bir il ərzində fəaliyyəti barədə mətbuat konfransı keçirəcək. Mətbuat konfransı 6 oktyabr 2015-ci tarixdə saat 14.00-da partiyanın mərkəzi qərargahında keçiriləcək.

AMİP də dünən seçki prosesində qanunsuzluqlarla qarşılaşdıqları barədə açıqlama yayıb. Açıqlamada deyilir ki, AMİP sədri Yusif Bağırzadəyə qarşı 37 saylı Nizami birini (Gəncə) Dairə Seçki Komissiyası tərəfindən qanunsuzluq edilib. Xəbərdə deyilir ki, sentyabr ayının 19-da Azərbaycan Milli İstiqlal Partiyasının sədri Yusif Bağırzadənin namizədliyinin qeydə alınması məqsədi ilə sənədləri AMİP səlahiyyətli nümayəndəsi tərəfindən qanunvericiliyə müvafiq qaydada tərtib edilməklə 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsinə təqdim olunub. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 53.6-cı maddəsinin tələbinə əsasən müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxaraq namizədliyin irəli sürülməsini təsdiq edən qərar verməlidir. Lakin 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsinin sədri Faiq Hacıyev sənədlərin təqdim edildiyi gündən 9 gün keçməsinə baxmayaraq heç bir əsaslı səbəb göstərmədən AMİP sədrinə imza vərəqələri verməkdən imtina edir. AMİP bəyan edib ki, DSK sədri bununla seçki qanunvericiliyini, namizədin hüquqlarını kobud şəkildə pozur və bununla da ölkə qanunlarına deyil, hansısa qaranlıq dairələrin maraqlarına xidmət etdiyini əcaib formada nümayiş etdirir.

Azərbaycan Milli İstiqlal Partiyası yaranmış vəziyyətdən ciddi narahatlığını ifadə etməklə səlahiyyətli şəxsləri namizədə yaradılan süni problemin aradan qaldırılması üçün təcili addımlar atmağa çağırır, əks təqdirdə hüquqi və siyasi addımlar atmaq səlahiyyətini özündə saxladığını bəyan edir.

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycanda parlament seçkilərini izləmək üçün müşahidə missiyası göndərməsi isə dünən dəqiqləşib. AŞ PA-nın Bürosunun dünən toplantısı keçirilib. Büro iclasında AŞ PA-nın Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidə missiyası göndərib-göndərməyəcəyinə dair məsələ müzakirə edilib. Uzun müzakirələrdən sonra lehinə 17, əleyhinə 10 nəfər olmaqla, Azərbaycana ispaniyalı parlamentar Yordi Çuklanın rəhbərlik edəcəyi 32 nəfərdən ibarət müşahidə missiyasının göndərilməsi haqqında qərar qəbul olunub.

Qeyd edək ki, AŞ PA daxilində bəzi deputatlar qurumun Azərbaycana müşahidə missiyası göndərməsinin əleyhinə çıxırdılar.

AŞ PA sədri Ann Brassör keçirdiyi brifinqdə deyib ki, demokratiyanın olması üçün insan hüquqlarına da hörmətlə yanaşılmalıdır: **"Umid edirəm ki, bu missiyamız Azərbaycana öz mesajımızı ötürməmiz üçün bir şans olacaq".**

❑ **E.SEYİDAĞA**

# Sərkisyanın təxribatçı yanlışı, yoxsa..



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

## Və ya biz müharibəyə hazırıqmı?

**Qarabağ cəbhəsində vəziyyət yenidən ağırlaşıb, canlı itkilər var. Hələlik bizim üçün təsəlliverici məqam budur ki, düşmənin itkiləri qat-qat böyükdür. Elə ən önəmlisi də belə konfrontasiyalı vəziyyətlərdə daim düşmənin daha çox itki verməsinə nail olmaqdır. Niyə?**

Çünki hər necə olmasa, hələ ki isti müharibə yox, əsəb savaşı gedir və itkilərin sayı istər-istəməz tərəflərdəki hərbi və ictimai ovqata birbaşa təsir edir - ya ruhdansalıcı şəkildə, ya da stimulverici formada. Biz isə üstəlik, revanş hissi ilə alışıb-yanan uduzan tərəfik.

Hərbi ekspertlər təsdiqləyər, müharibələrin taleyini bir qayda olaraq əsgərin və onun mənsub olduğu cəmiyyətin mənəvi-psixoloji durumu həll edir, nəinki silah-sursat arsenalının, ordunun say tərkibinin genişliyi, yaxud müasir silahlara nə dərəcədə malik olub-olmaması.

Ordudakı və cəmiyyətdəki qələbə ovqatını, müharibəyə psixoloji hazırlığı isə ilk növbədə hakimiyyətin doğru-düzgün daxili siyasəti formalaşdırır. Azərbaycanda da belədirmi? Əfsuslar olsun ki, suala birmənalı "hə" demək olmur. Ona görə ki, uğurlu hərbi əməliyyatların əsas şərti sayılan hakimiyyət-xalq vəhdətindən danışmaq indilikdə mümkünsüzdür. Səbəbkar təbii ki, dövlətin sükanı arxasında duran siyasi qüvvədir.

Mən bilmirəm, 3-cü ildir məhbus həyatı yaşayan Qarabağ veteranı Tofiq Yaqublunun cəbhə xəttindəki durumdan xəbəri varmı? Və niyə o, vəziyyəti zindandan izləməlidir? Bunun özü Qarabağa münasibəti göstərmirmi? Qarabağ veteranına, Qarabağ qazisinə münasibət elə Qarabağ məsələsinə münasibət deyilmi?

Sualların cavabını az qala, uşaq da bilir. O zaman erməni üzərində qalibiyyətli müharibənin şərtlərini necə təmin olunmuş saymaq olar ki. Əlbəttə, heç kim iddia eləmir ki, Tofiq bəy azadlığa çıxan kimi təzədən cəbhəyə, döyüşə yollanacaq. O, artıq belə bir formada deyil, yaş da öz işini görüb. Amma...

Əmması odur ki, yuxarıda vurğulandığı kimi, ordumuzun, gənc hərbçilərimizin döyüş ovqatına, mənəvi-psixoloji durumuna təsir edən məsələlər var ki, onlardan biri də keçmiş Qarabağ döyüşçülərinin, Qarabağ qazilərinin varlığıdır, onlara dövlət səviyyəsində göstərilən qayğıdır.

Hər halda, Tofiq Yaqublunun illərdir heç nə üstə zindanda saxlanması bir siqnaldır ki, Azərbaycanda vətənpərvərlik məsələsi arzu olunan səviyyədə, yerində deyil, ələlxüsus da hakimiyyət tərəfdən baxanda. Elə olmasaydı, bu yandan da Qarabağ qaziləri Bakıda etiraz aksiyasına hazırlaşmazdılar - bu da başqa bir neqativ siqnal...

*****

Şəksiz, düşmən də yatmayıb və bizim ağlımıza gələnlər onların da beynindən keçir. Düzdür, ötən həftə İrəvanda bir erməni Qarabağ veteranı vəhşicəsinə döyülüb və hakimiyyət faktı araşdırmağa qərar verib. Başqa yandan, erməni hələ ki, qalib tərəfdir və müəyyən məğlubiyyət kompleksi yaşayan bizlərdən fərqli olaraq bu, onlara yeni müharibə ərəfəsində istər-istəməz müəyyən təbii avantaj yaradır.

Son günlər bu xüsusda gündəmdə olan məsələlərdən biri də düşmən ölkənin başçısı Serj Sərkisyanın cəbhədəki ağır itkilərdən sonra verdiyi "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir" bəyanatıdır. Zənnimizcə, bu bəyanat 3 hədəf güdür: 1. Dağlıq Qarabağı Ermənistan torpağı elan eləməklə Rusiyanı müttəfiqlik müqaviləsi, KTMT çərçivəsində münaqişəyə cəlb edib ondan zəruri kömək almaq. Çünki məntiqlə Dağlıq Qarabağ Ermənistandırsa, onda Ermənistana hücum KTMT-yə hücumdur. 2. Daxili auditoriyanı, qəzəbli əsgər analarını sakitləşdirmək və daxili siyasi təzyiqlərdən yayınmaq. 3. Dağlıq Qarabağın da "ana vətən" olduğunu erməni toplumuna xartladıb onu müharibəyə həvəsləndirmək - yəni yenə mənəvi-psixoloji ovqatı yaxşılaşdırmaq məsələsi...

Düşmən ölkə başçısının öz hədəflərinə nə dərəcədə çatacağı bilinmir. Amma bir şeyi hamı bilir ki, Qarabağı işğal altında olan Azərbaycanda Qarabağ veteranı hələ də həbsdədir. Özü də əsassız yerə həbsdədir.



# Seçkinin səhərisi gün nə baş verəcək?

Azər RƏŞİDOĞLU

**Növbəti parlamentin tərkibində ciddi dəyişiklik olmayacaq. Bunu indidən ehtimal etmək mümkündür. Yaxın zamanlarda diplomatiyada da əsaslı dəyişikliklər baş verməyəcəyi ehtimalı az deyil. Rusiya ilə yaxınlaşan Bakı Qərblə münasibətlərini tam korlamaqda maraqlı deyil. Bir sözlə, balans siyasəti davam edəcək.**

Lakin ölkədə narazılıq artır. O cümlədən beynəlxalq təzyiqlər də artan xətt üzrə inkişaf edir. Siyasi hakimiyyət ən azı kadr rotasiyalarına getmək zorundadır. Digər tərəfdən, siyasi idarəetmədə iqtidarın yeritdiyi xətt o dərəcədə sərtdir ki, artıq cəmiyyət tamamilə çökdürülüb. Müxalifət, mətbuat, qeyri-hökumət təşkilatları demək olar ki, sıradan çıxardılıb. Sağdan-soldan bütün rəqiblərindən "xilas" olan hakimiyyət düşmən axtarışına o qədər aludə olub ki, artıq iqtidar dəhlizlərində "əcinnə ovu" başlayıb.

Müxalifətin, vətəndaş cəmiyyətinin, mətbuatın sıradan çıxardılması iqtidar dəhlizlərində mərkəzdənqaçma tendensiyalarına səbəb olub. Artıq iqtidarın monolit komandasından danışmaq mümkün deyil. Hakim komanda ən azı iki barışmaz düşərgəyə bölünüb.

Azərbaycanda hazırda baş verənlər yalnız analitik təfəkkür cılızlığına dəlalət etmir, eyni zamanda ətalət qanununa uyğun həyata keçirilir.

Artıq indidən postseçki dövrünə hazırlaşmaq lazım gəlir. Siyasi qüvvələrin ilk növbədə məqsədi cəmiyyəti ətalətdən çıxartmaq olmalıdır. Azərbaycan cəmiyyətinə son zamanlar Qərb tərəfindən kifayət qədər "qıcıq siqnalları" ötürüldü. Lakin Qərb siyasi dairələrinin zərbələri durğunluğu aradan qaldıra və cəmiyyəti skeptik düşüncələrdən azad edə bilmədi.

Cəmiyyətin ifrat zəifliyi, maliyyə resurslarının məhdudiyyəti qeyri-bərabər mübarizə meydançası yaradır. Deməli, standart metodlarla siyasi prosesləri dəyişmək olduqca qəliz olacaq.

Siyasi araşdırmaçıları belə bir sual düşündürür: Parlament seçkilərindən sonra müxalifət insanları meydana toplaya bilərsə, zorakılıqla etirazların yatırılmasının qarşısını almaqdan ötrü beynəlxalq dəstəyə malikdirmi?

İqtidar hakimiyyətdən gedəcəyi təqdirdə radikal qüvvələrin meydana çıxacağı ilə hədələyir. Bu baxımdan, müxalifət daxilində daha radikal qanadın mövcudluğuna ehtiyac yaranır. Radikalların atacağı addımlar istər-istəməz mötədil qruplarla danışıqlar masasında oturmağı istər hakimiyyət, istərsə də Qərb üçün qaçılmaz edəcək.

Digər tərəfdən, iqtidarın bölgədə özünə dəstək axtaran Rusiya ilə yaxınlaşması Qərbi düşünməyə vadar edir. Vurğulayaq ki, Qərbi və elə hakimiyyətin özünü də ehtiyatlı olmağa vadar edən başlıca amillərdən biri sabitliyin pozula biləcəyi, fors-majorun yaranma ehtimalıdır. Deməli, bu müstəvidə manevr etməyə dəyər. Sivil mübarizə metodlarından məhrum edilmiş cəmiyyətlərdə radikallaşmaq qaçılmaz olur.

Lakin bu halda da iqtidar 2003-cü ilin taktikasından istifadə edərək, zorakılığa əl ata bilər. Belə bir təhlükə daima mövcuddur. Bunun qarşısını almağın tək yolu beynəlxalq təzyiqlərdir. Lakin pərakəndə şəkildə olan, qarşılıqlı savaşlarda zəifləyən müxalifətə belə bir dəstəyin gələ biləcəyi inandırıcı deyil.

Deyilənlərdən çıxan nəticə budur ki, mövcud şəraitin dəyişməsinə nail olmadan atılan heç bir addım məğlubiyyətdən sığortalanmayıb.

Deməli, əsas məqsəd mənasız mübahisələr deyil, vəziyyətin dəyişdirilməsinə nail olmaq və beynəlxalq dəstəyi qazana bilməkdir. Bu istiqamətdə isə bir durğunluq hökm sürməkdədir.

İndi hamını bir sual düşündürür - seçkinin səhəri gün nə baş verəcək? Əgər cəmiyyətdəki ətalət davam edərsə, nəyinsə dəyişəcəyini gözləmək imkansızdır. Odur ki, seçki bitdikdən dərhal sonra yeni mərhələnin başlandığını elan etmək və mübarizənin strategiyasını elan etmək lazım gələcək. Bunu isə artıq indidən düşünmək lazım gəlir...

# Ziya Məmmədov göründü, oğlu isə...

## Anar Məmmədovla bağlı yeni xəbərlər yayılıb; nazirin qardaşının qudası yenidən deputat olmaq istəyir

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov Azərbaycanı tərk edib. İstiqlal.az-a daxil olan məlumatda deyilir ki, Anar Məmmədovun ölkədən gedişi atası ilə əlaqədar problemlərlə bağlıdır. "Ziya Məmmədov artıq hakimiyyət komandasında nüfuzunu itirib. Prezident İlham Əliyevin ona etimad göstərmədiyi bildirilir.**



Anar Məmmədov

Ziya Məmmədovun səlahiyyətlərinin bir qisminin əlindən alınması və onun prezident səviyyəsində tənqid edilməsi bu məlumatların əsassız olmadığını göstərir. "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılıb. Bundan başqa, Ziya Məmmədovun nəzarətində olan "Transqeyt" şirkətinin marşrut avtobuslarının xəttə buraxılmasına qadağa qoyulub. Taksilərə lisenziya verilməsi də ASAN xidmətə tapşırılıb. Ziya Məmmədovun nəzarətində olan Bakı Beynəlxalq Avtovağzalı da nazirin əlindən çıxıb. Bütün bunlar Ziya Məmmədovun "vurulması" planının tərkib hissəsidir" deyə, yazıda bildirilib. Sayt iddia edir ki, nazir özünə qarşı planlarda oğluna da təhlükə görür. Bu baxımdan da onu ölkədən çıxarıb.

Qeyd edək ki, prezident İlham Əliyev sentyabrın 23-də 2017-ci ildə Bakıda keçiriləcək IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsinin birinci iclasını keçirib. İclasda çıxış etməsə də, təşkilat komitəsinin üzvü olan nəqliyyat naziri də iştirak edib. Uzun müddətdir ekranlarda görünməyən və rəsmi məlumata görə, oktyabrın 23-dək məzuniyyət götürən Z.Məmmədov bir az narazı, bir az məyus nəzərə çarpıb.

Nəqliyyat nazirinin oğlunun Bakını tərk etməsi barədə informasiyalar bir müddət əvvəl də yayılmışdı. Xəbərlərdə deyilirdi ki, Anar Məmmədov ABŞ-a gedib və səfərin məqsədi bilinmir. A.Məmmədov biznesində yaranmış maliyyə problemləri səbəbindən ABŞ-dakı lobbiçilik fəaliyyətini dayandırması barədə xəbərləri də şərh etmir. Nəzərə çatdıraq ki, Avropa Oyunları ərəfəsində açılışı gözlənilən Məmmədovların "Baku Towers" adlanan mehmanxanası bu günədək qapılarını açmayıb. Məmmədovların amerikalı milyarder şəriki və hazırda Ağ Evə sahiblik uğrunda mübarizəyə qoşulan Donald Trumpun şərəfinə adlandırılan "Trump Towers"in açılışının niyə ləngidiyi sualı da açıq qalır. Xatırladaq ki, bir neçə ay əvvəl milyarderin qızı, "The Trump Organization"in vitse-prezidenti İvanka Trump da Bakıda olmuş və tikinti meydançasına şəxsən baş çəkmişdi.

Nəqliyyat nazirinin qardaşı, deputat Elton Məmmədovun bu il keçiriləcək parlament seçkilərində iştirak edib-etməməsi barədə bu həftə qərar verəcəyini desə də, bu haqda yeni bir məlumat yoxdur.

Elton Məmmədov 91 saylı Ucar seçki dairəsindən seçilib. Hazırda isə həmin dairədən Yeni Azərbaycan Partiyasının dəstəklədiyi Vüsal Hüseynovun namizədliyi irəli sürülüb. Yeri gəlmişkən, sentyabrın 28-də məlum olub ki, nazirin qardaşının qudası 59 saylı Salyan seçki dairəsindən hazırkı deputatı Əliağa Hüseynov parlament seçkilərində yenidən millət vəkilliyi uğrunda mübarizə aparacaq.

Modern.az saytı xəbər verir ki, 59 saylı Salyan Dairə Seçki Komissiyası Əliağa Hüseynovu deputatlığa namizəd kimi qeydə alıb. Bitərəf namizəd olan Ə.Hüseynov bu dairədə YAP-ın siyahısı ilə seçkiyə qatılan İlqar Ağabəyovla mübarizə aparacaq.

❑ **Xəbər xidməti**

# Azərbaycanda icra başçıları nə üçün həbs olunmur...

## "Mövcud sistemi nəzərə alsaq, həbs olunası adamlar çoxdur"

**Rusiya Federasiyasının Komi Respublikasının paytaxtı Sıktıkvar şəhərinin meri İvan Pozdeyev saxlanılıb.**

Onun həbsi Vladimir Putinin hakimiyyətdaxili korrupsiya ilə mübarizəsi kimi dəyərləndirilir.

Diqqət etsək, Azərbaycanda da vətəndaşlarda ən çox narazılıq yaradan dövlət qurumlarından biri məhz elə yerli icra hakimiyyətləridir. İctimaiyyətdə belə bir fikir dolaşır ki, noyabr ayında keçiriləcək parlament seçkilərindən sonra ölkədə icra başçıları ilə bağlı müəyyən cəza tədbirləri görüləcək. Ekspertlər hesab edirlər ki, neftin qiymətinin ucuzlaşması və bunun nəticəsində dövlət büdcəsində yaranan kəsirlər hakimiyyətin korrupsiyaya qarşı daha sərt mövqe nümayiş etdirəcəyini istisna etmir. Bu aspektdən də yanaşdıqda yenə icra başçılarının "sınaq" qarşısında qalacaqları ehtimal olunur.



Sərdar Cəlaloğlu



Sülhəddin Əkbər

Azərbaycan hökuməti Putinin təcrübəsini təkrarlayacaqmı?

**Məsələ ilə bağlı musavat.com-a ADP sədri Sərdar Cəlaloğlu danışıb. O bildirib ki, Azərbaycan bu baxımdan Rusiyadan irəlidədir:** "Əgər keçmişə nəzər salsaq görərik ki, Azərbaycanda nəinki merlər, hətta nazirlər də həbs olunub. Sabiq səhiyyə naziri Əli İnsanov hələ də həbsdədir. Müxtəlif zamanlarda icra başçıları ilə bağlı müəyyən cinayət işləri qaldırılıb. Bu baxımdan biz Rusiyadan çox irəlidəyik. Ancaq hesab edirəm ki, Rusiyada bir merin həbs edilməsi o demək deyil ki, onlar korrupsiyaya qarşı mübarizə aparırlar. Əslinə baxsaq, orada da ayrı-ayrı qruplar arasında konfliktlərin nəticəsində bu kimi hallar ortaya çıxır. Bütünlüklə Rusiya hakimiyyəti korrupsiyaya uğramış bir cəmiyyətdir. Bu gün Putinin 200 milyarddan artıq vəsaiti var. Haradan alıb bunları? Bu kimi hallar korrupsiyanın hökm sürdüyü ölkələrdə mümkündür".

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər isə hesab edir ki, korrupsiya ilə mübarizə başlayarsa, merlərlə birlikdə çox məmurlar həbs olunmalıdır:** "Azərbaycandakı mövcud sistemi nəzərə alsaq, həbs olunası adamlar çoxdur. Azərbaycanda, ümumiyyətlə, mer sistemi yoxdur. Ölkədə bütövlükdə sistem dəyişikliyi olmasa, siyasi, iqtisadi, hüquqi, hərbi, demokratik islahatlar aparılmasa kimlərinsə ayrılıqda həbsi vəziyyəti düzəltməyəcək. Tək-tək kimlərsə həbs olunarsa, sistem onu əvəzləyən yenilərilə davam edəcək".

Nəzərə çatdıraq ki, Rusiyada İ. Pozdeyevə qarşı qeyri-qanuni torpaq alqı-satqısı ilə bağlı cinayət işi açılıb. Ekspertlər hesab edirlər ki, Rusiyada merin həbs edilməsi ölkə başçısı Vladimir Putinin hakimiyyətdaxili korrupsiyanın qarşısını almaq üçün başladığı sistemli planın başlanğıcıdır.

❑ **Əli RAİS**

**AXCP-nin 27 sentyabrda keçirdiyi sədr seçkilərindən dərhal sonra qurumdan narazı üzvlərin yaratdığı Etimad Qurultayı üzrə Təşkilat Komitəsi (EQTK) oktyabrın 18-nə qurultay təyin edib. Xatırladaq ki, AXCP-nin Əli Kərimli qanadının qurultayından sonra R.Nurullayev və tərəfdarları nəticələri qeyri-legitim elan etdilər. Buna səbəb kimi, Ə.Kərimlinin son bir ildə qanunsuz şəkildə sədr olmasını əsas gətirdilər. Bildirdilər ki, Ə.Kərimlinin sədrlik müddəti bir il öncə bitməsinə baxmayaraq, o, saxta yolla son bir ildə rəhbərlik postunu tutub. AXCP-nin Ə.Kərimli qanadının qurultayla bağlı keçirdikləri konfransların da saxtakarlıqla baş tutduğu fikirləri səsləndi.**

# "Sahib Kərimlinin başlatdığı proses Əli Kərimliyə xidmət etdi"

## Razi Nurullayev AXCP sədrinin qurultayda hakimiyyətin dəstəyini aldığını iddia edir



R.Nurullayev tərəfdarlarının əsas tənqid hədəflərindən biri də sədrliyə iddiaçı Sahib Kərimli oldu. Onun qurultaydakı çıxışından sonra namizədliyini geri götürməsi şübhəli məqamların meydana çıxmasına səbəb oldu. Nurullayev tərəfdarları S.Kərimlinin Əli Kərimlinin məhz planı əsasında namizədliyini irəli sürdüyü və bu plan əsasında iddiasından geri çəkilməsi kimi ittihamlar səsləndirdilər.

**Hazırda qurultaylarına hazırlaşan R.Nurullayevdən AXCP-dəki seçkilərlə bağlı durum dəyərləndirməsi aldıq. O, açıq şəkildə hakimiyyətin Ə.Kərimliyə dəstək verdiyini açıqladı:** "Kərimlinin başçılıq etdiyi AXCP qanadı bizi hər zaman hakimiyyətə yaxın olmaqda günahlandırırdı. Diqqət yetirsək görərik ki, Əli Kərimli qurultay üçün yer istədi, anındaca yer verildi. Heç bir narazılıq, süründürməçilik olmadı. İşləri yağ kimi getdi. Əli Kərimli deyir ki, hakimiyyət tərəfindən ən çox problem bizə yaradılır, təzyiqlər olur. O zaman sual meydana çıxır: nə üçün heç bir problem yaradılmadan qurultayını keçirdin, sənə siyasi şou üçün şərait yaradıldı? Bundan özünün təbliğatın üçün istifadə edirsən. Bundan sonra nə qədər təbliğat aparsan da, Azərbaycan siyasətində Əli Kərimli dirilə bilməz".

**R.Nurullayev keçirəcəkləri qurultaya manеələrin olmayacağı qənaətindədir:** "Bununla bağlı heç nə deyə bilmərəm. Bakı meriyasına müraciətimiz təqdim olunub. Hesab edirəm ki, bizə qarşı manеələr olarsa, hər şey çılpaqlığı ilə aydın olar. Açığı, belə bir prosesin olacağını proqnozlaşdırmıram. Biz bu gün Təşkilat Komitəsi olaraq fəaliyyət göstəririk, legitimlik qazanmaq istəyirik. Bu, qanunlara uyğundur. Düşünürəm ki, hakimiyyətin də marağında olmalıdır, bizə süni əngəllərin törədilməməsi. Əgər manеələr olarsa, ictimaiyyəti məlumatlandıracağıq. Bu, artıq Əli Kərimlinin hakimiyyət daxilində dəstəklənməsinin göstəricisi olacaq".

**EQTK sədri qurultayın nəticələrinin tanınıb-tanınmaması ilə bağlı sualımıza belə cavab verdi:** "Bu gün AXCP-də bu cür proseslər baş verir. Kifayət qədər rayon təşkilatları yanımızda yer alırlar. Hüquq çərçivəsində mübarizəmiz varsa, o zaman Ədliyyə Nazirliyinin bizi tanımamaq haqqının sıfır olduğunu düşünürəm. Artıq qurultay günü təyin etmişik. İctimai rəydə iki AXCP-nin olması barədə fikir formalaşıb. Mən və Əli Kərimlinin rəhbərlik etdiyi AXCP. Bu gün Azərbaycan cəmiyyətinin seçkidən də çox müzakirə etdiyi, siyasi səhnənin əsas müzakirə mövzusu olan belə bir məsələyə arxa çevirib, Əli Kərimlini təsdiq etmək siyasətimizə, cəbhəçilərə, o cümlədən qanunlara tüpürmək olacaq. Bu, birmənalı qarşılanmayacaq. Ədliyyə Nazirliyinin bu cür qərarı olsa, tərəfimizdən lazımi qiymətini alacaq. Kifayət qədər cəmiyyətdə fikir formalaşıb. Bu rəyə qarşı çıxmaq hakimiyyət və Ədliyyə Nazirliyinin marağında olmamalıdır".

**R.Nurullayev təsdiq olunmasalar belə, adında AXCP olmayan heç bir təşkilat yaratmayacaqlarını bəyan etdi:** "Bu barədə düşünmək belə istəmirəm. Bundan öncə də təşkilat elan etmişdim. Amma sonradan qərara aldıq ki, AXCP olsun. Çünki cəbhəçilər gəlib bizə qoşulublar, biz onların qarşısında vicdanı öhdəlik götürmüşük. Onlar bizə inanaraq yanımıza gəliblər. Onların siyasi qərarlarına zidd gedərək, AXCP adına başqa bir ad əlavə edə bilmərik. Biz AXCP adına iddialıyıq, bu adda da fəaliyyət göstərəcəyik. Ədliyyə Nazirliyinin, hakimiyyətin, hətta prezidentin belə necə qərar verməsindən asılı olmayaraq, biz AXCP-yik, AXCP olaraq da qalacağıq".

**R.Nurullayev Sahib Kərimlinin qurultayda atdığı addımları sərt tənqid etdi:** "Mən ictimai rəyə qarşı çıxa bilmərəm. Bu fikirlər özünü bir daha möhkəmləndirmiş oldu. Əgər doğrudan da Sahib Kərimli Əli Kərimliyə qarşı səmimi mübarizə aparırdısa, səmimi şəkildə sədrliyə iddiasını ortaya qoymuşdusa, geri çəkilməməli idi. Açığı, gizli və açıq səsvermənin bu qərara təsir edəcəyini düşünmürəm. Onun namizədliyini geri götürməsi ciddi suallar yaratdı. İnsanlara kifayət qədər ciddi mesajlar vermişdi, tərəfdarları var idi, bunların iradəsini sındırmaq ciddi qarşılana bilməz. İctimai rəydə bu cür fikir formalaşıb ki, bu, Əli Kərimli ilə onun arasında razılaşdırılan məsələ idi. İnsanlar bu fikrə inanırlar, mənim də onlardan başqa cür düşünmək imkanım yoxdur. Gizli səsvermə olmadığına görə geri çəkilmək fikrini qeyri-ciddi qəbul edirəm. Şəxsən mən olsaydım, bir addım geri çəkilməzdim. Təbii ki, gizli səsvermə olsaydı belə, Əli Kərimli qalib gələcəkdi. Orada iştirak edən insanların çoxunun beyinləri "zombi"ləşdirilib. Kərimli onlara neçə ildən sonrakı uğursuz siyasətindən sonra yenidən sədr olmaq istədiyini deyib, özü də bildirib ki, bunu siyasi məhbuslara görə edir. Guya ki, o, sədr olmasaydı, siyasi məhbuslar həbsxanalarda öldürüləcək, sayları artacaqdır, yaxud cəbhəçilərin həyatlarına sui-qəsd olacaqdır. Bütün bunlar insanda gülüş və ikrah hissi oyadır. Bu yolla Əli Kərimlinin məqsədi demokratik mühit, alternativlik düşüncəsi yaratmaq idi. Bu isə ciddi şübhələrin meydana çıxmasına səbəb olur. Sahib Kərimlinin başlatdığı proses Əli Kərimliyə xidmət etmiş oldu".

❑ **Cavanşir ABBASLI**

# Müxalifət AXCP-nin qurultayında iştirak etmədi



**Gülağa Aslanlı:**
"Dəvət almamışdıq"



**Pənah Hüseyn:**
"...İştirak etmədim"



**Tural Abbaslı:**
"Siyasi etika deyilən bir anlayış var"

**AXCP-nin sentyabrın 27-də keçirilən qurultayı əsas müzakirə mövzularından biri oldu. Diqqət çəkən nüanslardan biri tədbirdə qonaq qismində iştirak edən şəxslər oldu. Ölkəmizin əsas öndə olan müxalif qurumlarının rəhbərləri tədbirdə gözə çarpmadılar. AXCP-dən ibarət olan Milli Şuradan başqa tədbirə siyasi qüvvələrin təmsilçiləri qatılmamışdılar.**

Şübhəsiz ki, demokratik düşərgənin əsas partiyalarından birinin önəmli tədbirində ölkə siyasətçilərinin olmaması əsas müzakirə mövzusuna çevrilən məsələlərdən biri oldu.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı AXCP qurultayına dəvət almadıqlarına görə iştirak etmədiklərini bildirdi:** "Biz partiya olaraq, bu tədbirə dəvət almamışdıq. Ona görə də bu məsələ partiyada müzakirə olunmayıb".

**"Azadlıq 2015" seçki blokuna daxil olan qurumlardan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn də AXCP qurultayına dəvət olunmadığını söylədi:** "Bizi dəvət edib-etməmək onların daxili məsələləridir. Dəvət olunmadığıma görə də iştirak etmədim".

**AXCP qurultayına dəvət olunmayanlar sırasında "AĞ blok" da var. Qurumun təsisçilərindən olan Tural Abbaslı siyasi etika baxımından belə tədbirlərə digər qurumların dəvət olunmasının vacibliyini vurğuladı:** "Dəvət olunmadan, belə tədbirlərdə özfəaliyyətlə iştirak etmək doğru olmaz. İştirak edən qurumlar da dəvətlə olur. Qonaqların çıxışına söz verilib-verilməməsi kimi məsələlər ortaya çıxır. Hər şey əvvəlcədən müəyyən edilmiş protokoldan asılıdır. Siyasi protokola görə, digər siyasi qurumların dəvət olunması vacib idi. Dəvət etməmək o deməkdir ki, digər qurumların iştirakını istəmirlər. İstənilməyən yerdə təbii ki, biz və digər təşkilatlar iştirak etmərik. Amma dəvət etsəydilər, məmnuniyyətlə iştirak edərdik. Son zamanlarda siyasi etika, mədəniyyət Azərbaycan siyasətində formalaşmışdı. Xatırlayıram ki, Müsavat və digər qurumlar hakim partiyanı belə qurultaylarına dəvət edirdilər. Hakim partiya da dəvətlər edirdi. Təəssüflər olsun ki, bu ənənənin üstündən xətt çəkildi. Artıq müxalifət partiyası digər müxalif qurumu belə öz tədbirlərinə dəvət etmir. Çox acınacaqlı vəziyyətdir. Siyasi ənənələri yaşatmaq lazımdır. Bütün dünyada qəbul olunmuş siyasi etika deyilən bir anlayış var. Gələcəkdə bu cür tədbirlərdə digər müxalif qurumların da dəvət olunmasının vacibliyini bir daha diqqətə çatdırmaq istəyirəm".

❑ **Cavanşir ABBASLI**



Həkimeldostu Mehdiyev

# Naxçıvanın ilk siyasi məhbuslarından biri Razi Nurullayevi dəstəklədi

**"Əli Kərimli qrupunun təzyiqləri nəticəsində Sahib Kərimli qurultayda namizədliyini geri götürdü və sədrlik üçün səsvermə açıq keçirildi". Cebhe.info xəbər verir ki, bunu 27 ildir AXCP-nin Naxçıvan şöbəsinin fəal üzvü olan Mehdiyev Həkimeldostu Bayram oğlu deyib. O, partiya daxilində baş verənlərə etiraz edərək bu gündən Razi Nurullayevin yanında yer alacağını bəyan edib. "1988-ci ildən bu günə kimi AXCP-nin üzvüyəm. Şərur rayon İdarə Heyətinin, AXCP-nin yaratdığı könüllülərdən ibarət regional qərargahın üzvü, dayaq dəstəsinin sədri olmuşam. Naxçıvan Muxtar Respublikasının ilk siyasi məhbuslarından biriyəm, 4 il partiya üzvü kimi cəza evində yatmışam. 2005-ci ildə "Azadlıq" Blokunun Naxçıvan Ali Məclisinə vahid namizədi olmuşam. Yaxın aylarda Avropa Məhkəməsində Naxçıvan rəhbərliyinə qalib gəlmişəm.**

"Yeni Müsavat" qəzetinin bölgə müxbiri kimi çalışmışam. Partiyaya müəyyən töhfələrim olub, həyatımın böyük hissəsini partiya yolunda həsr etmişəm. Lakin partiya rəhbərliyinin yürütdüyü yarıtmaz siyasət nəticəsində bütün bu əziyyətlər nəticəsiz qaldı. Çox sözlər verilsə də, partiya rəhbərliyi Əbülfəz Elçibəydən sonra hakimiyyətə gəlmək üçün səy göstərmədi. Bölgələrdə fədakar cəbhəçilərə təziqlər var, partiya rəhbərliyi bu insanlara dəstək vermir.

Bütün bunlar bizi bezdirir. Dünənki qurultayda sədr seçimi bir daha göstərdi ki, partiyada demokratiya yoxdur. Əli Kərimlinin ətrafının təzyiqi nəticəsində Sahib Kərimli də namizədliyini geri götürdü və səsvermə açıq keçirildi. Bəyan edirəm ki, bu gündən Razi Nurullayevi dəstəkləyirəm və fəaliyyətimi AXCP EQTK sıralarında davam etdirəcəyəm".

YENİ MÜSAVAT
N 214 (6242) 28 sentyabr 2015



# İtin bərəkətli ayağı

Zamin HACI
zaminhaci@gmail.com

"İndi mən anladım, - Celsomino ürəyində dedi, - bu ölkədə tərsinə danışmaq lazımdır. Əgər sən çörəyi çörək adlandırsan səni heç kim başa düşməyəcək". - Mənə yarım kilo mürəkkəb verin, - o, satıcıya dedi. Satıcı yarım kilo çörək kəsib qaydasına uyğun kağıza bükdü, verdi".

**(Canni Rodari, "Celsomino yalançılar ölkəsində")**

**"Badımcan" taksilərdə qabaqlar minən kimi maşın tərpənməmiş 1 manat verirdin. Bu pulu dünəndən qaldırıb 3 manat ediblər. Hansısa iqtisadi məna varmı? Təbii ki, yoxdur. Kimin kefi nə istəsə edə bilir.**

Elə 10 gündən çoxdur gənc jurnalist, "Meydan TV" saytı ilə əməkdaşlıq edən Şirin bəyi tutub zindana salıblar. "Bandotdel" onun vəkili Elçin Sadıqova deyib ki, biz tutduq verdik Nərimanov məhkəməsinə, həbs qərarı onlarlıqdır. Amma Sadıqov Nərimanov məhkəməsi ilə əlaqə saxlayıb, deyiblər biz belə şəxs haqda heç bir qərar verməmişik, heç üzünü görmədik. Bəs jurnalist hardadır? Adamı faktiki oğurlayıblar. Bəlkə elə bu üzdən qəzetlərdə "Bakıda adam oğurlayan dəstə peyda olub" başlıqlı yazılar çıxır? Nə biləsən... Hər halda, bir az ehtiyatlı olun, ictimai-siyasi sabitliyimizin meyvə gətirən vaxtlarıdır. Qoz ağacında boranı bitib, kimin başına düşsə sağ çıxmır.

Qayıdaq badımcanlığa. Sözgəlişi, iki gün olardı elə bostan mövzusunda düşünürdüm. Sanki biz bostanda yaşayırıq. Hara baxsan vətəndaş yerinə çoxlu bostan məhsulları, tərəvəzlər görmək mümkündür. Qarpıza oxşayan da var, kələmə oxşayan da. Küçədə gedirsən, görürsən qabaqda keşniş dəstəsi gedir. Avtobusa minirsən, baxırsan sürücü eynilə əzik Xaçmaz pomidorudur. Ta başqalarını demirəm.

Uzun sözün qısası, müxbirlər taksinin qiymətinin niyə bahalaşdığını Nəqliyyat Nazirliyindən soruşublar. Ordan bir uzun adlı idarənin uzundraz əməkdaşı (adını yazsam hər hərfinə görə 1 manat ödəməlisiniz, o üzdən yazmıram, həm də nəyinizə gərəkdir, guya indiyə qədər adını bildiyiniz məmurlardan kabab bişirmisiniz, qalıb elə bu) alıb sazı əlinə, görün nə deyibdir. Zarafat edirəm, saz orda olmur. Saz Müdafiə Nazirliyindədir. Əməkdaş deyib ki, NN-in qiyməti artırması düzgün qərardır. Sitat: "Sərnişin 3 manat ödəməklə bu taksidə 3 kilometr məsafə gedə bilər. 3 kilometrdən sonra 10 km üçün 70 qəpik, növbəti 10 km üçün 40 qəpik ödəməlidir. 3 manat sərnişinlərə çox görünə bilər. *(Görürsünüz, hətta bizi də düşünürlər - Z.H.)* Amma nəzərə almaq lazımdır ki, digər taksi xidmətlərində sayğac 1 manat yazsa belə, sərnişin 3 km üçün 3 manat 10 qəpik ödəyir".

Dəhşət hesablamadır. Deməli, 10 qəpik qabağa düşürük. Amma əməkdaşın sonrakı sözlərinin yanında bu, toya getməlidir: "Nəzərə almaq lazımdır ki, taksi fəaliyyəti zamanı yanacaq sərf olunur, sürücü sifariş edilən əraziyə gedir. Dünya praktikasında da belədir ki, kimsə 1 manatdan ötrü taksi fəaliyyəti ilə məşğul olmur".

Biz elə bilirdik taksilər yanacaqsız işləyir. Sürücülər sifariş edilən yox, kefləri istəyən əraziyə adamı aparırlar. Dünya praktikası isə lap fısqırıqdır. Misal üçün, hazırda Almaniya hər suriyalı qaçqına minimum 650 avro aylıq yardım verir. Bizdə orta aylıq əməkhaqqı hətta rəsmi statistikada belə 350 manatdan çox deyil.

Gəlin beynimizi belə mənasız mövzularla yormayaq, Rusiyadan təzə mövzu gəlib. Məktubu Moskva yaxınlarından Tofiq Quliyev adlı qardaşımız yazmışdır.

Bəy yazır ki, hazırda orda bir azərbaycanlı peyda olubdur, özü də Rita adlı itlə gəzir. Gedir restoranlara, başqa ticarət obyektlərinə, müdirlərə deyir ki, bu itin ayağı dəyən yerdə ruzi-bərəkət artır, müştərilərin arası kəsilmir. Onlar da pul verib Ritanı obyektin içində gəzdirirlər. Həmyerlimiz itin biznesə yaratdığı imkanlardan yaxşı yararlanırmış.

Mən bu məktubu alandan ancaq həmin it haqda fikirləşirəm. Üstəlik, azərbaycanlı olmağımla fəxr edirəm. Doğrudan da bu cür pul qazanmaq başqalarının ağlına gəlməzdi. İstedad - qibtə olunası keyfiyyətdir.

# BMT-nin İlham Əliyevə verdiyi ödülün anlamı və tarixi...

## Bu mükafat ölkənin kənd təsərrüfatına xarici sərmayədarların marağını artırır

**Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf üçün Cənub-Cənub İdarəedici Komitəsi Azərbaycanı və prezident İlham Əliyevi Cənub-Cənub mükafatı ilə təltif edib. Azərbaycan prezidentinin adından xarici işlər naziri Elmar Məmmədyarov mükafatı Nyu-Yorkda BMT-nin mənzil qərargahında qəbul eləyib.**



Cənub-Cənub mükafatı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Davamlı İnkişaf üçün Cənub-Cənub İdarəedici Komitəsi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Cənub-Cənub Əməkdaşlığı üzrə Beynəlxalq Təşkilatı və bir sıra BMT-yə üzv dövlətlər, agentliklər və fondlar tərəfindən təsis olunub.

Sözügedən mükafat BMT-nin hesabatlarına əsasən kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, Minilliyin İnkişaf məqsədlərində əsaslı irəliləyişlərə nail olmuş ölkələrə verilir. Azərbaycan 2015-ci il üzrə sözügedən mükafata layiq görülüb. Xarici İşlər Nazirliyindən verilən açıqlamaya görə, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin şəxsi iradəsi, bununla əlaqədar həyata keçirilmiş dövlət proqramları, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi və Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülmüş tədbirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənub-Cənub mükafatı ilə təltif olunub.

Ekspertlər bildirirlər ki, Cənub-Cənub mükafatının bundan əvvəlki illərdə verildiyi ölkələr üçün bu mükafat sonrakı illərdə üstünlüklər yaradıb. Belə ki, bu mükafat verildiyi ölkələrin kənd təsərrüfatına xarici sərmayədarların marağını artırıb. Kənd təsərrüfatına investisiya qoyulmalarına və beləliklə də sözügedən sahədə ciddi inkişafa təkan verib.

**❑ E.SEYİDAĞA**

# "Avropa Birliyi Bakıya təzyiq eləməklə Rusiya diplomatiyasının işini yüngülləşdirir" - müsahibə

## "Deutsche Welle"dəki qalmaqallı məqalənin müəllifi: "Avropa Birliyi və ya NATO sizin tərəfinizi tutmayacaq..."

**Tanınmış politoloq, siyasi elmlər namizədi, Mərkəzi və Şərqi Avropa üzrə ekspert İvan Preobrajenskinin Qarabağ probleminə dair qalmaqallı məqaləsi barədə məlumat vermişdik. Almaniyanın "Deutsche Welle" nəşrində dərc olunmuş, bir sıra ziddiyyətli məqamların yer aldığı "Rusiya Suriyaya Qarabağdan yol axtarır" adlı analitik yazısında o, Moskvanın 5 rayonun geri qaytarılması qarşılığında Azərbaycanda hərbi baza yerləşdirmək planından da söz açmışdı.**



Minval.az saytına müsahibəsində politoloq öz mövqeyinə daha ətraflı aydınlıq gətirib.

Ekspert öncə Qarabağa dair istənilən nizamlama planını - istər tam olsun, istərsə də hissəvi və ya mərhələli - irəli aparmağın çətin olduğunu söyləyib: "Əgər mənim DW-də dərc edilən analitik şərhim belə rezonans doğurubsa, aydındır ki, dövlət başçıları ilə razılaşdırılmış hər hansı plana işarə belə güclü həyəcan dalğası yaradacaq. Ancaq bu, o demək deyil ki, Qarabağ məsələsi kimi konfliktlərin diplomatik yolla nizamlanmasından imtina edilməlidir".

### "Rusiya Azərbaycanın heç bir ərazisinin qarantı deyil"

**Qars müqaviləsi (1921) ilə Naxçıvanın təhlükəsizliyinə Rusiyanın da zamin durması kontekstində sualı cavablandıran politoloq qeyd edib ki, bu gün Rusiya Azərbaycanın tərkibinə daxil olan heç bir ərazinin qarantı deyil:** "Rusiya Minsk Qrupunun üzvü kimi Qarabağ nizamlanmasına görə digər üzvlərlə eyni dərəcədə məsuliyyət daşıyır. Naxçıvanın statusuna Rusiyanın zəmanəti ilə bağlı heç bir hüquqi sənəd mövcud deyil".

**Ekspert Qarabağ münaqişəsinin "donunun açılmasının" birmənalı şəkildə Rusiyaya gərək olmadığı qənaətindədir:** "Moskvanın münaqişənin dinc, bütün tərəfləri qane edəcək həlinə yönəlik qəfil artan diplomatik fəallığı da yəqin ki, elə bununla bağlıdır".

**Politoloq daha sonra Azərbaycanda Rusiya hərbi bazalarının yaradılması fikrinin ölkəmizdə bəzi şərhçilər tərəfindən "təxribat" adlandırılmasını yanlış adlandıraraq deyib:** "Düşünürəm ki, konkret halda söhbət sadəcə, izafi emosional və tələsik reaksiyadan gedir. Başqa heç bir şey". Yəni o, Kremlin Azərbaycanda hərbi baza qurmaq planının ciddi olduğuna şübhə etmədiyini bir daha təsdiqləyib.

**ABŞ-ın "Stratfor" analitik mərkəzinin ekspertlərinin Dağlıq Qarabağda Rusiya sülhməramlı qüvvələrin yerləşdirilməsi ilə bağlı Moskva ilə Bakı arasında müzakirələr getməsi barədə iddialarına ekspertin münasibəti belə olub:** "Mən çoxdan bu qurumun şərhlərinə ciddi yanaşmıram, məsləhət görərdim ki, belə də yanaşılsın. Rusiya Qarabağ vasitəçiliyində yeganə vasitəçi deyil, münaqişə ATƏT-in Minsk Qrupunun patronajlığı altlındadır. Bu mənada məntiqlə danışsaq, nə vaxtsa regionda sülhməramlılar peyda olsa, bu, ATƏT-in sülhməramlıları olacaq - əgər əlbəttə ki, situasiya ən neqativ ssenari üzrə inkişaf etməzsə və yaxın illərdə həm azərbaycanlıları, həm də erməniləri qırmaqla onlar arasında "barışıq" yaratmağı İŞİD silahlıları öz öhdəsinə götürməzsə. Hərçənd sonuncu ehtimal da "Stratfor"un proqnozları sırasındandır".

**"Son zamanlar niyə Krım, Dnestryanı bölgə və Gürcüstan konfliktlərindən daha çox danışılır, nəinki Qarabağ münaqişəsindən" sualına siyasi təhlilçinin münasibəti belə olub:** "Qarabağ məsələsi çoxdan "dondurulmuş" münaqişələr kateqoriyasına keçib və onun əsaslı şəkildə unudulmasına nail olunub. Maraq yoxdur - mütəxəssislər yoxdur. Mənim avropalı həmkarımla ünsiyyət təcrübəm göstərir ki, məsələn, Avropa Birliyində Azərbaycan və Ermənistanda baş verənləri diqqətlə izləyən az sayda mütəxəssis qalıb. Rusiyada da beləleri azalmaqdadır - bunu Rusiya-erməni münasibətlərində Ermənistandakı etirazlardan dolayı son böhran da sübut elədi".

### "Əksər postsovet dövlətləri "Krım ssenarisi"nə tuş gələ bilər"

**Azərbaycanın xarici siyasət risklərini azaltmaq üçün Rusiya ilə yaxınlaşmağa başlamasına münasibət bildirən analitik deyib:** "O fakt ki, əksər postsovet dövlətləri öz üzərində "Krım ssenarisi"ni də yoxlaya bilər, indi həm də başa düşür ki, heç bir Avropa Birliyi və ya NATO onların tərəfini tutmayacaq - bu, nəhayət ki, Qərblə Rusiya arasında balansa cəhd eləmək üçün yox, mili maraqlara söykənən müstəqil xarici siyasət qurmaq üçün əsasdır. Bir şeyi aydın şəkildə başa düşmək lazımdır: hələ heç kim "qorxur - deməli, hörmət edir" prinsipini ləğv etməyib. Postsovet məkanında əksər siyasətçilər, o cümlədən Rusiya rəhbərliyi, - məsələn, Ukrayna böhranında onun davranışı göstərdi - hələ də bu prinsipə əməl edir".

**Analitik Rusiyanın Güney Qafqaz bölgəsini yeni münaqişələrlə qarışdırmağa çalışması fikirləri ilə də razılaşmır:** "Belə fikirlərin əsası yoxdur. Suriyada iri əməliyyat layihəsini həyata keçirmək üçün Moskvaya təhlükəsiz arxa lazımdır. Bunu isə ən yaxşı diplomatiyanın köməyi ilə təmin eləməklə mümkündür. Avropa Birliyinin Azərbaycanı siyasi müxalifətə, azad mətbuata və s. görə sərt tənqid etməsinə gəlincə, Avropa Birliyi bununla Rusiya diplomatiyasının işini şübhəsiz ki, yüngülləşdirir. Onu da unutmaq lazım deyil ki, Avropa Birliyi Rusiyanı deyil, Putini və əhatəsini, Azərbaycanı deyil - İlham Əliyevi, Belarusu yox - Aleksandr Lukaşenkonu tənqid edir".

**❑ Hazırladı: Siyasət şöbəsi**

## Azərbaycanlı oliqarxın şirkətinə qarşı sensasion ittihamın pərdəarxası




# Rusiya Mübariz Mənsimovu İŞİD-lə "vurdu"! - səbəbi nə?

## Beynəlxalq anti-İŞİD koalisiyasının yarandığı bir vaxtda azərbaycanlı iş adamına qarşı suçlamalar diqqətləri onun "Palmali" şirkətinə də yönəldəcək; nüfuzlu "Novaya qazeta"nın yazısı Qərblə münasibəti gərgin olan Azərbaycana qarşı növbəti təzyiq dalğası da başlada bilər ki, bu da Moskvanın əlinə oynayar...

**Dünyanı lərzəyə salan İŞİD-ə qarşı supergüclərin birgə mübarizəyə razılaşması ilk növbədə bu terrorçu qruplaşmanın maliyyə kanallarının bağlanmasını gündəmə gətirib. ABŞ Maliyyə Nazirliyinin terrorizm və maliyyə kəşfiyyat idarəsinin bir müddət əvvəl açıqladığı məlumatda bildirilirdi ki, İŞİD-in Suriya və İraqda ələ keçirdiyi mədənlərdə gündə 50 min barel neft istehsal edilir. Hesablamalara görə, İŞİD neft satışından gündə təxminən 1 milyon dollar qazanır. Dünya mətbuatında müxtəlif rəsmi və qeyri-rəsmi mənbələrə istinadən İŞİD-in nefti üç ayrı xətt üzrə bazara çıxardığı barədə iddialar yer alıb.**

İŞİD neftinin bazara çıxarıldığı marşrutlardan birincisi Suriya hakimiyyəti ilə bağlıdır. Belə ki, terror təşkilatı ələ keçirdiyi mədənlərdəki neftin çoxunu birbaşa Beşər Əsəd hakimiyyətinə satır. Xüsusilə də Rakka bölgəsində çıxarılan neft bu kanallar vasitəsilə satılır. İkinci marşrut İran üzərindən Dubay bazarına çıxarılır ki, burada İŞİD neftini daha çox kürd biznesmenlər alıb-satır. Nəhayət, İŞİD-in öz neftini Türkiyə üzərindən satdığı barədə iddialar da var ki, bunu rəsmi Ankara aylardır ki, ciddcəhdlə yalanlayır.

Belə bir ərəfədə isə Rusiyanın nüfuzlu "Novaya qazeta" nəşri İŞİD-lə Türkiyənin gizli neft alverinə dair sensasion iddia ilə çıxış edib. Qəzetin yazdığına görə, hələ 2014-cü ilin sentyabrında Avropa Parlamentinin xarici işlər komitəsinin hesabatı zamanı Aİ-nin İraqdakı səfiri Yana Xibaskova "ittifaqa üzv olan bəzi ölkələrin İŞİD yaraqlılarından neft aldığını" bildirib.(virtualaz.org). Y.Xibaskova konkret adlar və İŞİD nefti ilə alver edən treydərlər barədə danışmayıb, ancaq onun bəyanatı ciddi eyham idi. Bundan ay yarım əvvəl BMT Təhlükəsizlik Şurası Suriya və İraq ərazisində fəaliyyət göstərən terrorçu qruplaşmalarla neft alverinin yolverilməz olduğunu bəyan etmişdi. Bundan əvvəl Almaniyanın DWN telekanalı və İspaniyanın "La Republica" qəzeti belə məlumat yayıblar ki, İraqın şimalındakı kürd administrasiyası və Türkiyənin xüsusi xidmət orqanları İŞİD-in nəzarətində olan ərazilərdən neft qaçaqmalçılığından xəbərdardır.

Bu hadisələr çirkli pulların yuyulmasına qarşı FATF qrupunun da diqqətini cəlb edib. Qrup İŞİD-in maliyyə mənbələri və terror qruplaşmasına maliyyə axınlarının qarşısının alınması na dair tövsiyələrini hazırlayıb. FATF ekspertləri hesab edirlər ki, İŞİD-in neft qaçaqmalçılığından və digər talançılıq əməllərindən əldə etdiyi illik gəlir 1 milyard dollardan çoxdur.

Qəzet yada salır ki, İŞİD Suriya və İraq ərazisində onlarla neft yatağını ələ keçirib. Bunların arasında zəngin ehtiyatlara malik əl-Ömər, Rakka, Deyr əs-Zor yataqları da yer alır. Həmçinin İraqın Kərkük şəhərindən Türkiyənin Ceyhan limanına uzanan neft kəməri də İŞİD-in nəzarətindədir.

"Novaya qazeta"nın mənbələri İŞİD-in nəzarətində olan kəmərlərlə neft nəqlinin həyata keçirildiyini təsdiqləyir. Türkiyənin Ceyhan limanına neft nəqlinə dair informasiya bir müddət əvvəl də var idi. Rusiya nəşri isə iddia edir ki, bu neftin Ceyhan limanından azərbaycanlı oliqarx Mübariz Mənsimovun "Palmali Shipping & Agency JSC" şirkətinə məxsus tankerlərlə daşınır. Qəzet yazır ki, dünyanın aparıcı xüsusi xidmət orqanları da bu haqda xəbərdardır.

***

Mübariz Mənsimov "Palmali"ni 1998-ci ildə qurub, şirkətlər qrupu Maltada qeydiyyatdan keçib. Dünyanın ən böyük 5 dənizçilik şirkətindən biri olaraq göstərilən və illik dövriyyəsi 3 milyard dollar olan "Palmali"nin hazırda 21 ölkədə ofisi var. Şirkətin tabeliyində 28 min nəfər təkcə dənizçilik sektorunda çalışır. "Palmali" 129 gəmisi ilə Aralıq dənizi, Ağ dəniz, Qara dəniz arasında Rusiya neftinin 75 faizini daşıyır. "Palmali"nin ən böyük müştərisi dünyaca məşhur olan bp şirkətidir. Şirkətlər Qrupunun kirayəyə götürülən gəmilərlə isə donanma sayı 220-ni ötür.

AKP iqtidarının dövründə biznesi uğurla inkişaf edən M. Mənsimov 2007-ci ildə Türkiyə vətəndaşlığını qəbul edib. Onun Türkiyə prezidentinin oğlu Bilal Ərdoğan, qaynı Ziya İlgenin və qardaşı Mustafa Ərdoğanla ortaq olduğuna dair Türkiyə mediasında iddialar var. İddialarda bildirilir ki, "Palmali"nin cəlb etdiyi kreditlər hesabına inşa edilən neft tankerləri əvvəlcə Ərdoğanların "BMZ Group"a satılır, daha sonra "Palmali" həmin gəmiləri kirayələyərək Azərbaycan neftinin daşınmasını həyata keçirir. İş adamlarından keçmiş daxili işlər naziri Mehmet Ağarın oğlu Tolqa Ağar da Mənsimovun biznes ortaqları arasındadır.

Azərbaycan mediasında yayılan xəbərlərə görə, Mübariz Mənsimov ötən həftə Bakıda olub. O, sentyabrın 24-də dövlət məmurlarından birinin qızının toyunda iştirak edib. Onun həmçinin "Palmali"nin Bakı ofisinin və "Xəzər Lənkəran"ın problemləri ilə maraqlandığı, burdakı adamları ilə görüş keçirdiyi də deyilir.

***

Rusiyanın da yer alacağı beynəlxalq anti-İŞİD koalisiyasının yarandığı bir vaxtda bu, azərbaycanlı oliqarxa qarşı çox ciddi ittihamdır və diqqətləri onun şirkətinə də yönəldəcəyi şübhəsizdir. Bundan əvvəl də Türkiyə mediasında Ərdoğan ailəsinin İŞİD neftini alıb-satdığına dair iddialar səslənib, ancaq Türkiyə rəhbərliyi bu məlumatları qətiyyətlə rədd edir. Rusiya nəşrinin İŞİD-ə qarşı, eləcə də onun maliyyə mənbələrinə öldürücü zərbələr hazırlandığı bir vaxtda təkcə Türkiyədə deyil, dünya sularında geniş fəaliyyət göstərən bir şirkətə qarşı bu cür ittiham dərc etməsi maraq doğurur.

Əvvəla, ona görə ki, "Palmali" ilə neft daşımaçılığında ortaqlar sırasında Azərbaycanın SOCAR şirkəti də var. Bu da istər-istəməz indiki həssas məqamda diqqət çəkə, Azərbaycanın imicinə zərbə vura bilər. Nəzərə alsaq ki, rəsmi Bakının Qərblə münasibəti gərgindir və bu kimi xəbərlər Azərbaycana qarşı növbəti təzyiq dalğası başlada bilər ki, bu da Moskvanın əlinə oynayar. Daha bir diqqət çəkən məqam Türkiyə hakimiyyəti ilə Kremlin bəzi məsələlərdə anlaşa bilməməsidir ki, bu sırada Suriya da var, Qarabağ da, qaz məsələsi də. Türkiyə prezidentinin Moskvaya son səfərində də tərəflər arasında bu məsələlərdə anlaşma olmadığı iddia edilir. Rusiya nəşri İŞİD-lə neft alverində olan "Palmali"nin Ərdoğanın yaxın adamlarının "qanadı altında" olduğu iddialarında xəbərsizliyi də ağlabatan deyil.

Yayılmış xəbərləri "Yeni Müsavat"a şərh edən ekspertlərin sözlərinə görə, İŞİD-ə qarşı formalaşmaqda olan beynəlxalq koalisiya bu qruplaşma ilə hər hansı işbirliyində olan adamları, eləcə iri şirkətləri "qara siyahı"ya salacaq. **"Əslində belə bir siyahı çoxdan var, amma bəzi dövlət məsələlərinə görə onların da "vurulmasını"- yeni sanksiyalara məruz qalmasını razılaşdırmaq mümkün olmurdu. İndi isə belə bir imkan var və bu baxımdan mümkündür ki, bəzi iri şirkətlərin rəqibləri bunu fürsət bilsin və bu kimi xəbərlərdən yararlanmaq istəsin".** Ekspertlər istisna etmir ki, "Palmali" ilə bağlı xəbər Türkiyədəki 1 noyabr seçkilərində Ərdoğanın tənqidi üçün müxalifətə ciddi arqument versin.

❑ **"Yeni Müsavat"**

# Heykəllərlə iş bitsəydi...



**Hüseynbala SƏLİMOV**

**Rusiyada təzədən sovet heykəlləri ilə bağlı məsələ qalxıb. Özünü akademik S.Lixaçov adına institut kimi təqdim edən bir təşkilat mədəniyyət nazirliyinə sovet heykəllərinin bir sənət əsəri kimi nə qədər əhəmiyyət kəsb etdiyini bir daha yoxlamaq təklifi ilə müraciət edib...**

Xəbər bizə maraqlı göründü. Ona görə ki, ikinci "rəngli inqilab" vaxtı Ukraynadan seyr etdiyimiz təsvirlər bizə maraqlı görünmüşdü. O vaxt xeyli təəccüblənmişdik: bu ölkədə Leninin nə qədər heykəli vardı, İlahi...

Amma məsələyə bizim öz münasibətimiz həmişə bir qədər fərqli olub. İki şeyi bir-birindən ayırmaq lazımdır: biri var sovet dövrünün heykəlləri, bir də var ki, sovet dövlət və partiya xadimlərinə qoyulmuş heykəllər...

Onları bir-birindən ayırmaq lazımdır. Sovet dövrünün heykəlləri arasında bu gün də sənət əsəri hesab edilə biləcək abidələr var...

Həm də sovet dövründə bir çox tarixi şəxsiyyətlərə, elm və sənət adamlarına heykəllər qoyulmuşdu...

İndi Rusiyada hökumət nə etsin? Durub A.Puşkinin heykəlini götürsünlər ki, bu, sovet dövründə ucaldılıb?!.

Ona görə də məsələ bir az qəlizdir. Bəli, Rusiyada sovet dövlət və partiya xadimlərinə qoyulmuş heykəllərin məsələsinə baxmaq olar... Amma heç bu da o qədər də asan məsələ deyil... Bir-iki ay bundan əvvəl oxumuşdum ki, insanlar hətta F.Dzerjinskinin heykəlinin təzədən, özü də əvvəlki yerində ucaldılmasını istəyirlər. Bunun üçün kommunist partiyası hətta yüz minlərlə imza da toplamışdı...

Gəl, problem tək bunda da deyil. Bir yığın daş heykəli yığışdırmağa nə var ki!

Çətini beyinlərdə, ürəklərdə sahman yaratmaqdır. Nə gizlədək, bir vaxt elə biz də ümid edirdik ki, keçmiş Lenin meydanından Leninin, Dağüstü parkdan isə S.Kirovun heykəli götürülsə, hər şey qaydasına düşəcək...

Həmin heykəllər heç bir maneə olmadan götürüldü. Amma sonra elə bir müqavimətlə qarşılaşdıq ki... Bu müqavimət artıq on illər ərzində formalaşan vərdişlərlə, təsəvvürlərlə bağlı müqavimət idi...

Həm də məsələnin Rusiyada başqa özəlliyi də var. Sovet dövləti də haradasa Rusiya imperiyasının davamı idi və sovet dövlətinin tarixi ümumi halda götürüləndə Rusiya dövlətçilik tarixinin bir hissəsi idi. Bəlkə də mənimlə bir qədər razılaşmayacaqlar. Amma mənə elə gəlir ki, İ.Stalin Rusiya imperiyası üçün böyük işlər görmüş bir-iki isimdən biri idi...

Təbii ki, hansı arqumentlərlə iş görmək rusların öz işləridir. Amma bizə elə gəlir ki, ruslar bu məsələdə hələ də kriteriyaları müəyyən edə bilməyiblər və ona görə də belə çıxışlar seyrək olduğu qədər də ziddiyyətli olur...

Kriteriya ona görə müəyyən oluna bilmir ki, bu günə qədər hələ ruslar özləri üçün təyin edə bilməyiblər ki, onlar hansı Rusiyanı və hansı dövləti istəyirlər?

Bu, sizə asan və yaxud da qeyri-adi gəlməsin. Rusiyada bu məsələ ilə bağlı qəti müəyyənlik yoxdur. Bəli, konstitusiyada qeyd olunur ki, Rusiya dünyəvi və demokratik, hətta federativ dövlətdir. Amma gəl, Rusiyada konstitusiya nə deməkdir? Yox, demirik ki, o, hər hansı hüquqi gücdən məhrumdur, yox, heç də belə deyil, amma hakimiyyətdəkilər daim ən yaxşı halda konstitusiyanın maddələrini necə "aşmaq" haqqında düşünürlər...

Əgər Rusiyada demokratiya olsaydı ölkədə V.Putinin indiki kultu olardımı və Putin-Medvedev tandemi kimi gülünc siyasi ittifaq baş tuta bilərdimi?

Ən maraqlısı odur ki, hətta rəsmi siyasətin və ümumilikdə rejimin əleyhinə yönələn yazılarda belə demokratiya kəlməsinə təsadüf olunmur, bu haqda heç kim yazmır, heç kim danışmır...

Mən bunu da təsadüf hesab etmirəm. 1991-ci ildə on dörd keçmiş sovet respublikası nə baş verdiyini anlayırdı. Onların əhalisi başa düşürdü ki, daha SSRİ adlı ölkə yoxdur və onların vətəni artıq müstəqil dövlətdir. O başqa bir məsələdir ki, həmin respublikalar bu müstəqilliklə nə etdilər, nə etmədilər...

Amma onların məsələsi aydın idi - onlar müstəqil olmağa məcbur idilər. Gəl, Rusiyanın özündə fərqli vəziyyət idi. Onlar da bilirdi ki, daha SSRİ yoxdur və o, tarixə qovuşub...

Amma bilmirdilər ki, onlara hansı Rusiya miras qalıb... Hətta bilmirdilər ki, özləri hansı Rusiyanı istəyərdilər...

Bu qeyri-müəyyənlik bu günə qədər qalıb. Bu vaxta qədər rusların və Rusiyanın bir ümumi ideyası olub: böhrandan qurtulmaq... Bəs böhrandan və iqtisadi çətinliklərdən çıxan Rusiya necə olacaq, necə dövlət olacaq, təəssüf ki, bu suala hələ bu gün də konkret cavab yoxdur...

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015



# Vaqif Hacıbəyli AXCP rəhbərliyini siyasi ləyaqətsizlikdə suçladı

## "Nə vaxt öndə olmusuz, deyin, biz də bilək"

**AXCP-nin 27 sentyabrda keçirilən qurultayında Əli Kərimlinin və partiya rəhbərliyinə daxil olan şəxslərin yeganə əsl müxalifət kimi özlərini elan etmələri Əhrar Partiyasının sədri Vaqif Hacıbəylini qəzəbləndirib. Vaqif Hacıbəyli dünən özünün facebook səhifəsində qeyd edib ki, yurdçular əslində heç vaxt ön cəbhədə olmayıblar:**

"Yurdçular "satqın istehsalı" ilə bağlı səslənən ittihamlara cavab kimi təzə arqument tapıblar, "biz ön cəbhədəyik, ona görə də bizdə itki çoxdu". Nə vaxt öndə olmusuz, deyin, biz də bilək. Avropa Oyunlarının boykotuna qoşulmağa siyasi cəsarətiniz çatmadı, parlament seçkilərini boykot etməklə indiki məqamda da əsas hədəfiniz iqtidar deyil, əslində seçkilərdə iştirak etməməklə iqtidara seçkiləri rahat saxtalaşdırmaq üçün komfort şərait yaratmısız. İrtica ilə təkbaşına çarpışan Müsavatdır və bütün gücünüzlə Müsavata ləkə vurmaq üçün dəridən-qabıqdan çıxırsız. Əli Kərimli qurultaydakı çıxışında misal kimi 2 aprel mitinqini misal göstərdi ki, guya həmin mitinqdə öndə olublar. Amma çox nahaq. Mən sıravi cəbhəçilərin, həmin hadisələrdə müsbət cəhətdən fərqlənən bəzi AXCP yetkililərinin fədakarlıqlarına kölgə salmadan demək istəyirəm ki, bu prosesdə AXCP ümumilikdə çox neqativ rol oynayıb".

**V.Hacıbəyli sonra xatırladıb ki, 2011-ci ilin martında müxalifət İctimai Palatada birləşmişdi. Orada mitinq məsələsi müzakirə edilərkən Müsavat təklikdə qaldı və bu səbəbdən tarixi 12 mart mitinqini də müsavatçılar çox yüksək səviyyədə keçirib ölkədə siyasi durumu tam dəyişdirməyə nail oldu. Bunun ardınca Müsavatın uğuruna və birmənalı öncüllüyünə qısqanan AXCP əvvəl özü təkbaşına mitinq keçirəcəyini bəyan etdi:** "Müsavatdan fərqlənmək üçün bəyan etdilər ki, "biz zorakılığa zorakılıqla cavab verəcəyik". Bu məsuliyyətsiz bəyanatla iqtidara növbəti aksiyaya legitim güc tətbiq etməyə hüquqi əsas yaratmış oldular. Sonradan birgə təşkil edilən 2 aprel aksiyasında zorakılıqdan danışan "dil pəhləvanları" ümumiyyətlə aksiyaya qatılmadılar, guya hansısa "bunkerdən" prosesləri idarə edirmişlər. Vəd etdikləri "zorakılıq" isə avtobusun qapısının təpiklənməsindən o yana keçməsə də, bu cahillik ölkədə yeni repressiya dalğasının başlanmasına və hərəkatın yeni dalğasının siyasi iflasına gətirib çıxardı. Həbs olunan Müsavat yetkilisinə isə şər atdılar ki, o, iqtidarla oyun qurub həbsə girib ki, bu yolla reytinqini qaldırsın. Hətta AXCP-nin rəhbər orqanında təmsil olunan debillərdən biri bu absurd və iyrənc ittihamı İctimai Palatanın sessiyasındakı çıxışında da səsləndirdi. Həmin murdar açıqlamanı pisləyən bəyanatın məhbusların hüquqlarını müdafiə komitəsində qəbul edilməsinə isə başda Əli Kərimli, Gözəl Bayramlı və Nurəddin Məmmədli olmaqla, AXCP rəhbərliyi imkan vermədi. Budurmu öncüllük? Hər şeyin öz adı olduğu kimi bu hərəkətlərin də bir adı var-siyasi ləyaqətsizlik. Bu halda öncüllükdən danışmaq yersizdi, xüsusilə 2 aprel hadisələri kontekstində".

**V.Hacıbəyli vurğulayıb ki, AXCP-nin hədəfi həmişə Müsavat olub, bu gün də belədir:** "Müsavat Partiyası hər zaman onların hədəfindədir. Bu gün də belədir. Heç bir ideoloji boşluqdan danışmağa lüzum yoxdur. Anti-Müsavat siyasi mövqelərində ardıcıl və israrlıdılar. Arada çamur atdıqları Rəsulzadənin portretini bu gün başlarının üstündən asalar da məhz belədir".

❑ E.SEYİDAĞA

**AXCP sentyabrın 27-də növbəti qurultayını keçirdi. Partiya demokratiyanın əsas prosedurlarından biri olan gizli səsverməyə növbəti dəfə getmədi. Bu da onun opponentlərində və siyasi çevrədə ciddi müzakirələrə səbəb oldu. Bu cür müzakirələrdə hər zaman aktiv olan və AXCP-nin söyüş maşını kimi tanınan Əli Kərimlinin sürücüsü Kərim Mehdiyev yenə fərqli düşünənlərə düşmən kimi yanaşıb:**

# Əli Kərimli gizli səsvermədən niyə qorxdu?



Sahib Kərimli

## AXCP-də sədrlik davası qızışır: Razi Nurullayev də qurultay təyin etdi; Sahib Kərimli yeni sədri hədəfə aldı: "Sizinlə partiya sədrliyi uğrunda açıq mübarizə aparacam"

"...Direşiblər ki, niyə qurultayda gizli səsvermə olmayib, guya demokratiya pozulub. Demokratiya hər şeydən əvvəl qanuna riayət etmək deməkdir. Nizamnaməyə görə seçkilər açıq, ya da gizli səsvermə ilə keçirilir. Qurultay nümayəndələri qərar verdilər ki ,açıq səsvermə olsun. Mütləq çoxluq bunu istədi. Niyə çoxluğun qərarına hörmətsizlik edilir?

Məgər demokratiya çoxluğun qəbul etdiyi qərarları tanımaq deyilmi?

Sahib bəy də iddia edir ki, gərək gizli səsvermə keçiriləydi. Qurultayda seçkinin necə keçirilməsini müəyyənləşdirəndə Sahib bəyin özü bu təklifi verdi və ancaq bir nəfər ona dəstək oldu. İndi siz deyin ,guya gizli səsvermə olsaydı Sahib bəy qalib olacaqdı?"

Göründüyü kimi, Ə.Kərimlinin sürücüsü hələ də gizli səsvermənin mahiyyətini dərk edə bilmir.

Demokratiyanın əsas prinsiplərindən biri, heç şübhəsiz ki, seçkilərin gizli şəkildə keçirilməsidir. Dünya praktikasında da bu belədir. AXCP-nin bu şəkildə seçki keçirməsi cəmiyyət tərəfindən demokratiyanın tələblərindən yayınma kimi qəbul edildi. Rəhbərlik gizli səsvermədən çəkindiyini açıq şəkildə büruzə verdi. Partiyada insanların necə təsir altında saxlanıldığı heç kəsə sirr deyil. Açıq səsvermədə qurultay üzvlərinin Əli Kərimlinin gözləri qarşısında ona yox, başqasına səs verməyəcəyini, yaxud bitərəf qalmayacağını AXCP rəhbərliyi anlamamış deyildi. Xüsusilə sədrliyə digər iddiaçı Sahib Kərimlinin gizli səsvermə keçirilməsi təklifinin süngü ilə qarşılanması bir çox mətləblərdən xəbər verdi. Sədrliyə namizədin tənqidli qurultay çıxışına Ə.Kərimli səviyyəsində dözümsüzlük nümayiş etdirilməsi demokratiya pərdəsi altında mübarizə apardığını cəmiyyətə sırıyan bir qurumun bir daha demokratiyanı boğması demək idi.

**S.Kərimli qurultaydan dərhal sonra sosial şəbəkələrdə paylaşdığı statusda qurultayın əsl simasını cəmiyyətə təqdim edib:** "Dostlar, bu günə, ciddi basqılar və təhdidlər altında, demokratik vərdişlərin mənimsənilmədiyi bu mühitdə, bu qədəri mümkün oldu. Əli Kərimli mənimlə opponentlik etməkdən yayındı, hətta qurultayda namizəd kimi söz verməkdə belə istəmirdilər, israrla söz ala bildim. Səsvermənin gizli keçirilməsi demokratiyanın əlifbasıdır, ona əməl etməkdən çəkindilər. Əli Kərimli gizli səsvermə üçün bütün hazırlıqların olduğunu ifadə etdi, amma bunun ictimai rəyi çaşdırmaq üçün edildiyi qənaətindəyəm. Gizli səsvermə üçün iradə ortaya qoyulmalı idi və bu, olmadı. Beləliklə, namizədliyimi geri götürdüm. Gizli səsvermə ilk növbədə Əli bəyin özünə lazım idi. Qısa *(bu ortamda bu qədəri mümkün idi)* çıxışımdan sonrakı nitqində, guya sədrlikdən getmək istədiyini, lakin siyasi məhbuslara görə bu fikrindən daşındığını söylədi. AXCP fürsəti qaçırdı deyə düşünürəm. Vicdanımın səsi ilə, doğru bildiklərimi söylədim, AXCP bundan yaxşı idarəetməyə layiqdir. Mən Əli Kərimliyə 2018-ci ilin prezident seçkilərində uğurlar arzu etdim. Və həmçinin qeyd etdim ki, 2018-ci ildə siz artıq 18 ilin partiya sədri olaraq, 4 prezident və 4 parlament seçkilərində məğlub olan siyasi lider olacaqsız və bundan sonra mən sizinlə partiya sədrliyi uğrunda açıq mübarizə aparacam.

Partiyanın heç bir seçkili orqanında təmsil olunmayacam, sıravi üzv qalacam, bu komanda və zehniyyətlə müsbət nəticələr əldə etmək mümkünsüzdür.

Bu müddətdə üzərimdə işləməyə, bilgilərimi artırmağa, ortaq düşüncələrimiz olan dostları tapmağa çalışacam.

Bu gündən müzakirələri birtərəfli qaydada dayandırıram".

**AXCP qurultayının açıq səsvermə ilə keçirilməsi digər demokratik qurumların da ciddi qınağına tuş gəlib. Müsavat başqanının müavini Elman Fəttah bununla bağlı bastainfo.com saytında geniş təəssüratlarını yazıb. Başqan müavini bir il öncə keçirdikləri qurultaya toxunaraq, gizli səsvermənin əhəmiyyətlərini əsaslandırıb:** "Seçkili demokratiyanın müxalif düşərgədə mənimsənilməsinə nail ola bilmədik. Onlar hələ də "demokratiyanı hakimiyyətə gələndə tətbiq edərik" kimi qorxulu arqumentlə demokratiyanın əlifbasını, ilk düsturuna qarşı müqavimət göstərməyə davam etməkdə israrlı görünürlər: AXCP-nin qurultayından: "səsvermənin gizli və ya açıq keçirilməsi səsə qoyuldu. İki nəfər əleyhinə olmaqla, açıq səsvermə təklifi qəbul edildi". Axı nə vaxta qədər? Əgər bu vərdişlər mənimsənilməyibsə, hətta hələ də "özünü idarəetməyə" buraxılmırsa, belə təşkilatın profili müqavimət qrupu, antiiqtidar qrupu, lokal ideoloji qrup və s. ola bilər. Amma onun profili demokratiya ola bilməz. Demokratiya uğrunda demokratiyasız mübarizə olmur. Rejim aydındır. O demokratiyanın D-sindən, seçkinin S-nə qədər hər şeyə nifrət edir. Bəs "demokratiya uğrunda mübarizə" aparırıq deyən, Müsavat və NİDA-dan başqa hər hansı təşkilat "Demokratiyanın ən sadə və ən açıq tərifi səsvermənin gizliliyidir" adlı demokratiya düsturunu tətbiq edirmi? Tətbiq edəcəyini vəd edirmi? Etmir..."

Bu arada AXCP Etimad Qurultayı Təşkilat Komitəsinin Qurultay günü bəlli olub.

Komitədən «Trend»ə verilən məlumata görə, qurultayın oktyabrın 18-də Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayında keçirilməsi qərara alınıb.

Qurultaya bir çox xarici təşkilatların, eləcə də ölkədə fəaliyyət göstərən partiya və təşkilatların nümayəndələri də dəvət olunacaq.

Qeyd edək ki, Ə.Kərimlidən narazı üzvlər AXCP-nin Etimad Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsini yaradıblar. R.Nurullayev bildirib ki, onlar AXCP adına iddia edirlər.

Narazı üzvlər Ə.Kərimlinin partiya sədrliyindən uzaqlaşmasını və partiyanın möhürünün onlara verilməsini tələb edirlər. Əks tədqirdə, onlar möhürü qanuni yolla Ə.Kərimlidən alacaqlarını bildiriblər...

**Politoloq Natiq Miri hesab edir ki, Ə.Kərimli və ətrafı özlərinə güvənmirlər:** "Bütün bunlar onu göstərdi ki, Kərimli və ətrafı özlərinə güvənmirlər. Bunun bariz nümunəsi açıq səsvermədir. Açıq səsvermədə "üz-üzdən utanar" prinsipi ilə zorən kiməsə səsvermə məcburiyyəti yaranır. Qurultayda da həmin üsuldan istifadə olundu. Guya ki, Əli Kərimli orada gizli səsvermə təklif etdi. Əminəm ki, bunlar əvvəlcədən razılaşdırılmış məsələ idi. Ən azından alternativə, Sahib Kərimliyə haqq tanımaq lazım idi. Bilinməli idi ki, onun iddiası AXCP-də nə qədərdir. Müxalif düşərgənin gücü bəlli olmalı idi. AXCP-də hələ də avtoritar idarəetmə mövcuddur. Burada hər hansı bir siyasi ideologiya ətrafında birləşməkdən söz getmir. Açıq səsverməni yanlış sayıram. Cəmiyyətdə bunlar isti keçməyəcək. AXCP-yə qarşı əks mənfi münasibət doğuracaq".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015



Riçard Kozlariç

# Kozlariçin fikirləri hiddət doğurdu

## ABŞ-ın ölkəmizdəki sabiq səfiri öz tənqidləri ilə yenidən gündəmə gəlib; **Qabil Hüseynli:** "O, 1993-95-ci illərin Azərbaycanında ilişib qalıb..."

**Azərbaycan hakimiyyəti ilə Qərb arasında başlayan və günlərlə davam edən söz savaşı səngimək bilmir. Avropa Parlamentinin məlum qətnaməsi və ATƏT-in ölkəmizdəki parlament seçkilərinə müşahidəçilər göndərməkdən imtina etməsi narazılıqların davam etməsinə səbəb olub. Hər iki tərəf qarışıqlı ittihamlar səsləndirir.**

Son olaraq, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Riçard Kozlariçin "Amerikanın səsi"nə müsahibəsində ölkə iqtidarı barəsində səsləndirdiyi fikirlər geniş müzakirələrə səbəb olub.

**Kozlariç açıq şəkildə bəyan edib ki, Azərbaycan özünü Avropadan uzaqlaşdırır:** "Azərbaycandakı hazırkı rejim özünü müxtəlif vasitələrlə Avropadan uzaqlaşdırmaq yolunu seçib. Buraya iki il əvvəl qəbul olunmuş qonşuluq siyasəti və Avropa ilə daha yaxın əlaqələrin qurulmamasına dair qərar, eləcə də prezidentin Avropa təşkilatlarından çıxmaq məramı daxildir. Yaxşı ki, Avropa Parlamenti etiraz səsini ucaltdı, ancaq hökumətin buna reaksiyası təəssüfedicidir. Çünki bu, yalnız fikir ayrılığı və məsafə yaradır". Sabiq səfir açıqlamasında Azərbaycandakı siyasi məhbus məsələsinə də toxunaraq, onların azad olunmasının vacibliyini vurğulayıb.

**Bəzi ekspertlər hesab edirlər ki, keçmiş diplomat bu fikirləri ilə Azərbaycan hakimiyyətinə və cəmiyyətinə özünün timsalında Qərbin mesajlarını çatdırıb. Politoloq, sabiq dövlət müşaviri Qabil Hüseynli bildirdi ki, Kozlariç zaman-zaman Azərbaycana qarşı həqiqətlərə uyğun olmayan fikirlər səsləndirir:** "Mən Kozlariçi yaxından tanıyan adamam. O, evimdə də olub. Onun baxışlarına dərindən bələdəm. Vaxtilə dövlət müşaviri işləyəndə onunla mütəmadi əlaqələrim olub. O vaxtlar onun Azərbaycana böyük sevgisinin şahidi idim. Amma son vaxtlar Kozlariçin mütəmadi surətdə Azərbaycanı tənqid etməsi, müxtəlif məsləhətlər verməyə çalışması heç də ürəyimcə deyil. Çünki bu şəxs ABŞ-da bəzi insan haqları təşkilatları ilə əlaqə quraraq, Azərbaycan əleyhinə həqiqətə uyğun olmayan fikirlər səsləndirir. Məncə, o, Azərbaycanın problemlərini yaxşı bilməlidir, bilir də. Ölkəmizin Dağlıq Qarabağ kimi ağır probleminin olmasından xəbərsiz deyil. Ermənistan tərəfdən Azərbaycana təcavüz olunub. Nəticədə 1 milyondan artıq qaçqın doğma yerlərindən didərgin düşüb. Hakimiyyətin əsas səyləri qismən də olsa, bu fəlakətin nəticələrini aradan qaldırmağa yönəlib. Bu yolda Azərbaycanın demokratik sahədə müəyyən əskikləri ola bilər. Amma ölkəmizdə bir sıra sahələrdə olan inkişafı danmaq olmaz. Ermənistanla müqayisədə, bütün sahələrdə Azərbaycan üstün olduğu halda, nədənsə tənqid hədəfi seçilməsi başa düşülən deyil. Özü də ölkəni tanıyan Kozlariç kimi biri tərəfindən bu cür fikirlərin irəli sürülməsi ürəkaçan deyil. Bütün bunlar onu göstərir ki, Kozlariç 1993-95-ci illərin Azərbaycanında ilişib qalıb. Biz də istəməzdik ki, insanlar günahsız yerə həbsdə olsunlar. Amma Azərbaycanda mütəmadi olaraq, verilən əfv sərəncamları bu sahədə olan nöqsanları aradan qaldırmağa imkan verir. Düşünürəm ki, Azərbaycan hökumətini demokratiyaya sövq etməklə, müəyyən nəticələr qazanmaq olar. Amma Azərbaycanla diktə və təhdid dili ilə danışmaq müstəqil ölkənin prinsiplərinə ziddir".


Qabil Hüseynli

**Politoloq sabiq səfirin Azərbaycana gəlməsinin vacibliyini vurğuladı:** "Yaxşı olardı ki, Kozlariç bir dəfə Azərbaycana gəlsin. Buradakı gerçəklikləri görsün. Onun səfir olduğu zamanlara nisbətən Azərbaycanın nə qədər irəli getdiyinin şahidi olsun. Eyni zamanda mətbuat və QHT-lərlə görüşsün. Zənnimcə, bunlar onun arzularının reallaşmasına müəyyən töhfələr verərdi. Vaşinqtonda oturub, Azərbaycandakı gerçəklikləri söyləmək, hətta sanksiyalara çağırış etmək irəliyə doğru addım ola bilməz".

**Q.Hüseynli sabiq səfirin Azərbaycana olan mənfi münasibətinin arxasında duran həqiqətlərə də toxundu:** "O, milliyyətcə serbdir. Amma ABŞ-da doğulub, oranın vətəndaşıdır. ABŞ orqanlarında xidmət keçib. İnsan qocaldıqca, daha mühafizəkar olur. Əgər Azərbaycana gəlsə, əminəm ki, yaşlı Kozlariç gənc Kozlariçin Azərbaycana olan sevgisi qədər dəyişmək məcburiyyətində qalacaq. Onu Azərbaycanı sevməyən insan kimi səciyyələndirmək fikrində deyiləm. Belə bir halın şahidi olmamışam. Amma onun son dövrlərdəki tənqidləri yanlış yolda olduğunu göstərir".

❑ Cavanşir ABBASLI

# Suriya üçün yeni keçid planı

## Qərb ölkələri və Türkiyə artıq Əsədli keçidə razılaşır, Yaxın Şərqdə əsas prioritet terrora qarşı mübarizə olur, Rusiya Suriyada qazanan tərəfə çevrilir

**Suriya böhranının həlli ilə bağlı son günlər bir neçə istiqamətdə hərəkətlilik artıb. Həm döyüş cəbhəsində, həm də diplomatik danışıqlarda qeydə alınan fəallaşma Suriya böhranının həlli ilə bağlı ilin sonuna qədər ciddi dəyişikliyin olacağı ilə bağlı iddiaları təsdiqləyir.**

İlk növbədə birbaşa döyüş meydanında güc parametrləri dəyişib. Son zamanlara qədər daha çox müdafiə xəttində olan Suriya ordusu rusların hərbi dəstəyi artırması ilə cəbhədə güclənib. Ötən həftə ABŞ mediası Rusiyanın Tartus və Laziqiyyə şəhərləri ətrafına, o cümlədən paytaxt Dəməşqə əlavə qüvvə və texnika göndərməsi ilə bağlı məlumatları yaymasının ardınca rusların iştirakı ilə İŞİD-ə qarşı effektiv hava zərbələri haqda məlumatlar yayılmağa başladı. İddialara görə, son hava zərbələrini ən son Rusiya model təyyarələr modern bombalardan istifadə etməklə həyata keçirir. Hətta bombardmanların dəqiq hədəfə vurması faktı da bunu rusların həyata keçirməsi ilə bağlı iddialara səbəb olub.

Yeri gəlmişkən, ötən gün Rusiya mediası Çinin Aralıq dənizinə təyyarədaşıyan gəmi göndərməsi ilə bağlı məlumatlar yayıb. Yaxın Şərqdə son olaraq ən ciddi hərbi-siyasi hadisə Bağdadda Rusiya, İran, İraq və Suriyanın iştirakı ilə terrora qarşı birgə informasiya mərkəzinin qurulması oldu. Bu mərkəz vasitəsilə 4 ölkə İŞİD-ə və terror qruplaşmalarına qarşı fəaliyyətlərini koordinasiya edəcək, informasiya mübadiləsi həyata keçirəcək.

Ancaq hələlik ruslar Suriyaya yalnız texnika və silah dəstəyi verdiklərini etiraf edirlər. Nyu-Yorkda səfərdə olan Rusiya prezidenti Vladimir Putin isə ABŞ-n CBS telekanalına müsahibəsində Suriyada yerüstü əməliyyatlara qatılmaq fikirlərinin olmadığını deyib. Putin deyib ki, Rusiya Suriyada legitim hökuməti dəstəkləyir. Ancaq əlavə edib ki, Rusiyanın Suriyada quru əməliyyatlarına qatılmaq planı yoxdur. Lakin


Bəşər Əsəd


Rəcəb Tayyib Ərdoğan

əlavə edib ki, Bəşər Əsəd və digər ölkələrdəki müttəfiqlərə dəstəyini artırır. Putin onu da deyib ki, Əsədə yardım etməklə Rusiyadan Yaxın Şərqdəki terrorçu qruplara qoşulanların geri dönməməsinə çalışır: **"Onların ölkəyə geri dönməsini gözləmək əvəzinə, Əsədə onlara qarşı savaşmaq üçün yardım etmək daha yaxşıdır. Yəni bizi Əsədə dəstək verməyə vadar edən əsas səbəblərdən biri də məhz bu amildir. Ümumi olaraq bölgədə sabitliyin yaranmasına çalışırıq".**

Qeyd edək ki, bu açıqlama ilə Putin bir daha öz ölkəsi üçün İŞİD təhdidindən ciddi narahatlıq keçirdiyi və bu təhdidin keçmiş sovet respublikaları ərazilərinə yayılmaması üçün onun Yaxın Şərqdə məhv edilməsinə çalışdıqlarını etiraf edir.

Putin həmçinin Qərb ölkələrinin Suriya siyasətini sərt tənqid edib. Suriyalı müxaliflərin "təlim-təchiz" proqramını uğursuz adlandırıb. Rusiya prezidenti deyib ki, bu proqrama qatılanlar sonradan terror təşkilatlarına qoşulurlar.

Qeyd edək ki, Rusiyanın Yaxın Şərqdə antiterror əməliyyatlarına qoşulması hazırlığı və son aylarda müşahidə olunan aktiv diplomatiya Suriya böhranının həlli ilə bağlı ümidləri artırıb. Məsələ burasındadır ki, hələlik açıqlanmasa da, ehtimallara görə, iyulun 14-də İran və "altılıq" ölkələri arasında əldə olunan nüvə razılaşmasında Suriya böhranı da müzakirə olunub. Çünki artıq son aylarda İran Suriya böhranı ilə bağlı aktiv diplomatik həmləyə keçib. Eyni zamanda terror təhdidinin günü-gündən artması dünya ölkələrinin Suriya böhranına qarşı münasibətini dəyişib. Artıq Avstraliya, İspaniya, o cümlədən Almaniya hakimiyyətləri Suriya böhranının həlli ilə bağlı Bəşər Əsədin də daxil olduğu keçid prosesini qəbul etməyə çağırırlar. ABŞ dövlət katibi Con Kerri ötən həftə Londonda verdiyi açıqlamada, həmçinin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Moskva səfərindən dönərkən verdiyi açıqlamada Bəşər Əsədin də daxil olduğu keçid hökumətinin qəbul edilə biləcəyini deyib. Fransanın radikal sağçı Milli Cəbhə Partiyasının lideri Marine Le Pen də yerli televiziyaya verdiyi açıqlamada Rusiyanın Suriya siyasətinə dəstək verdiklərini deyib. Bütün bunlar onu göstərir ki, artıq Suriya ilə bağlı ortada ciddi bir həll planı var. Görünən odur ki, Rusiya və İranın çalışmalarını indi artıq ABŞ və Suriya mövzusunda ən barışmaz mövqedə olan Türkiyə hökuməti də qəbul edir.

Suriya mövzusunda ən ciddi danışıqlar isə bazar ertəsi günü Nyu-Yorkda Obama və Putin arasında keçiriləcək görüşdə baş tutacaq. Çox böyük ehtimalla iki qüdrətli dövlətin qərarı Suriyanın gələcək taleyini müəyyən edəcək. Əsas taktika isə Yaxın Şərqdə terrorun aradan qaldırılması, bundan sonra Suriyada mötədil müxalifətin də təmsil olunduğu keçid hökumətinin qurulması, yeni seçkilərin keçirilməsi, konstitusiyanın qəbul olunması olaraq nəzərdə tutulub. Bir neçə ay əvvəl ərəb mediasında yayılan bu planın hazırda reallaşmağa doğru getdiyini görmək mümkündür.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015




# Fermer daxili işlər nazirinə müraciət etdi

**Abşeron rayonu, Qobu qəsəbəsində fermer təsərrüfatı ilə məşğul olan Elvin Məmmədov daxili işlər naziri Ramil Usubova müraciət edib. O, müraciətinin ictimailəşdirilməsini "Yeni Müsavat" qəzetindən xahiş edib. Fermer bildirir ki, min bir əziyyət çəkib ərsəyə gətirdiyi kiçik fermer təsərrüfatından oğurluq edən şəxslər tapılıb cəzalandırılmır: "Bir neçə aydır ki, fermadan ardıcıl olaraq oğurluqlar baş verir. İndiyədək 70-dən artıq qoyunumuz oğurlanıb. Nəhayət, oğrunun kimliyini müəyyən etmək üçün fermaya müşahidə kameraları quraşdırdıq.**

Bundan bir neçə gün sonra - 2015-ci il avqustun 31-də, gecə saat 3 radələrində daha üç qoyun oğurlanması videokameraya düşdü. Həmin çəkilişləri də əlavə etməklə, sahə müvəkkilinə şikayət etdik. Əslində biz buna qədər oğurluğun kim tərəfindən edildiyindən şübhələnmişdik. Kamera görüntüsü isə fakt oldu. Həmin adam Qobu kəndində yaşayır və kənd camaatı tərəfindən müsbət xarakterizə olunmayan biridir. İndiyədək bir neçə Qobu sakini oğurluq ittihamı ilə ondan rəsmi şikayət edib. Dəfələrlə oğurluq hadisələri ilə bağlı cinayət işlərində adı keçib. O, belə əməllər üzrə "mütəxəssis" olduğundan fermadakı itin oğurluq zamanı hürməməsi üçün iti daha əvvəllər şirnikləşdirib, özünü ona tanıdıb. İti əvvəlcədən ram etdiyinə görə müşahidə kameralarından da görünür ki, oğurluq edilən zaman it hürmür, quyruğunu bulayır. Müşahidə kameralarından da həmin adamı tam tanımışıq. Ancaq bizim rəsmi şikayətimiz və faktlar ortada olmasına baxmayaraq, cinayəti törədən şəxs bu günədək cəzasız qalıb. Sahə müvəkkilinə, Abşeron Rayon Polis Şöbəsinə, prokurorluğa dəfələrlə müraciət etmişik, hadisədən bir aya yaxın vaxt ötməsinə baxmayaraq, indiyədək heç bir nəticəsi yoxdur. Nəhayət, biz cənab nazirə mətbuat vasitəsi ilə də müraciət etməyi qərara aldıq. Biz hörmətli Ramil müəllimdən xahiş edirik ki, oğurluq hadisəsini törətmiş şəxsin cəzalandırılması və bizə vurduğu ziyanı ödəməsi üçün köməklik göstərsin".

❑ M.MAHRIZLI

# "Royal Bank" məsələsi qalmaqala çevrilir - İran pullarını istəyir...

## Ekspertlər bildirirlər ki, Azərbaycanın bank sisteminin imici daha da korlana bilər, beynəlxalq skandal təhlükəsi var...

**İran hökuməti ilə Azərbaycan arasında bank qalmaqalı ehtimalı var. Ekspertlərə görə, İranın Azərbaycan bankında batan pullarını geri istəməsi beynəlxalq skandal təhlükəsi də yaradır. İran bir neçə il əvvəl "Royal Bank"da batan pulları geri istəyir və verilməzsə, bu, beynəlxalq skandala səbəb ola bilər...**

Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində bu hadisə daha da inkişaf edəcəksə, Azərbaycana qarşı da müəyyən suallar yaranacaq. Yəni İrana beynəlxalq embarqo tətbiq edilən vaxt, İranın beynəlxalq ödəmələr sistemindən sanksiyalar vasitəsilə aralı qaldığı vaxtda Azərbaycan bankı vasitəsilə necə dünya bazarına çıxıb? Necə dünya valyuta bazarında əməliyyat apara bilib? "Royal Bank" sanksiya dönəmində bank sistemində İran adından əməliyyatlar aparıbsa, bunun özü də bir skandalla nəticələnəcək. Məlum olacaq ki, Azərbaycan sanksiyalara məhəl qoymayıb. İranın bu sanksiyaları aşmasında müəyyən yardımçı olub. Məsələnin ikinci tərəfi isə odur ki, əgər İran beynəlxalq məhkəməyə müraciət edəcəksə, Azərbaycanla bağlı neqativ hadisələrin daha biri baş verəcək, səs-küy yaranacaq. Azərbaycan bank sisteminə güvən daha da azalacaq. Çünki Azərbaycan hökuməti ilə məsələ həllini tapmasa, həll yolu Beynəlxalq Arbitraj Məhkəməsidir. Çox güman ki, sanksiyalar tamamilə qalxandan sonra Azərbaycan hökuməti tərəfindən müəyyən addım atılmasa, İran beynəlxalq məhkəməyə müraciət edəcək. Burada cavabdeh tərəf də Azərbaycan olacaq. "Royal Bank" ləğv olunduğundan, Dövlət Ləğv Komissiyası və Mərkəzi Bank cavabdeh kimi çıxış etməyə məcbur olacaq. Çünki həmin bank artıq Azərbaycanda fəaliyyət göstərmir. Yəni hər tərəfdən baxdıqda, gedişat daha da dərinləşsə, bu proseslər inkişaf etsə Azərbaycanın maliyyə güvənliyinə, imicinə daha ciddi xətalar gələ bilər. Bunu gözə alan Azərbaycan hökuməti Mərkəzi Bankla bir yerdə sülh şəraitində danışıqlar yolu ilə İranla bu məsələni qaydaya qoymağa çalışmalıdır".




Qeyd edək ki, İranla bağlı sanksiyalar götürüləndən bir neçə dəfə "Royal bank" məsələsi gündəmə gəlib. Yəni İran bir neçə il əvvəl "Royal Bank"da batan pulları geri istəyir. İran-Azərbaycan hökumətlərarası komissiyanın katibliyinin rəhbəri Mehdi Möhtəşəmi də bir müddət əvvəl bununla bağlı danışıb.

**O deyib ki, sanksiyaların ləğvindən sonra Azərbaycan bank sisteminin əməkdaşlıq üçün geniş imkanları olacağını düşünür:** "Əlbəttə, bizim bir sıra problemlərimiz də var. Azərbaycan banklarında iranlıların müəyyən miqdarda vəsaiti bloklaşdırılıb. Məlumdur ki, Azərbaycanda fəaliyyət göstərən bir bank- "Royal Bank" iflas edib. Həmin bankda İranın İxracat İnkişaf Bankının və hüquqi şəxslərinin vəsaitləri var idi ki, biz Azərbaycanın Mərkəzi Bankı və hökumətindən bu problemi həll etməyi istəmişik. Ümid edirik, problem tezliklə öz həllini tapacaq. Həmçinin Azərbaycan hökumətinin, xüsusilə də Bakı Şəhər İcra Hakimiyyətinin "Bank Melli İran"ın binası ilə bağlı ölçü götürməsi üçün əməkdaşlığa ehtiyac var. Bu kimi məsələlər Azərbaycan və İran arasında bank sahəsində aparılan müzakirələrin bir hissəsidir ki, bunlarla bağlı yaxşı nəticələr də əldə olunub. İki ölkənin bank sisteminin fəal və etibarlı olması digər sahələrdə də əməkdaşlığın inkişafına təsir göstərəcək".

**Ekspertlər isə bildirirlər ki, İranın müflis olmuş bankla bağlı problemi gündəmə gətirməsi ciddi məsələdir:** "Burada çox həssas hüquqi məqam var. İran "Royal Bank" vasitəsilə sanksiyaları dəlməyə çalışıbsa və Azərbaycan tərəfi də buna göz yumubsa, bu, beynəlxalq skandalla müşahidə oluna bilər. Yəni sanksiyalar qüvvədə olan zaman işlər görülüb. Bundan əlavə, İranın vəsaitlərini hansı hüquqi-normativ aktlara görə bu bankda yerləşdirməsini bilmək vacibdir. Əgər müqavilələr hüquqa uyğun bağlanıbsa, onda İran beynəlxalq məhkəməyə müraciət edə, vəsaitlərini geri tələb edə bilər".

Qeyd edək ki, "Royal Bank"la bağlı problem bir neçə il öncə yaranmışdı. 2012-ci ildə lisenziyası geri alınan və bağlanan "Royal Bank"da minlərlə İran vətəndaşının depozitləri vardı. Lakin onların pulları öz adlarına yox, saxta adlarla rəsmiləşdirilmişdi. Bu da onlara bank bağlanandan sonra bəlli olmuşdu.

Həmçinin "Royal Bank"ın bağlanmasının arxasında İran amilinin dayandığı haqda mətbuat dəfələrlə yazmışdı. Bildirilirdi ki, İran şirkətləri və beynəlxalq sanksiyaların təsiri altında olan rəsmiləri sanksiyalardan yayınmaq üçün bu bankdan istifadə ediblər. Bankın İranla yaxın işbirliyini onun əmanətçiləri arasında minlərlə iranlının olması da təsdiqləyir. Lakin məsələnin ən qalmaqallı tərəfi odur ki, bankda minlərlə İran vətəndaşının pulları saxta adlarla saxlanılıb. Mərkəzi Bankın bu maxinasiyadan necə vaxtında xəbər tutmaması təəccüblü və müəmmalı görünür.

❑ Röya RƏFİYEVA

# "Lombardlar müştərilərin girovunu oğurlayır"




## Əkrəm Həsənov: "Lombardlar həm də lisenziyasız və heç bir nəzarət olmadan fəaliyyət göstərir"

**"Azərbaycanda lombardın verdiyi kredit vaxtında ödənilmədikdə, girov predmeti dərhal "batır". Halbuki bu, qanunvericiliyə ziddir". Ekspert Əkrəm Həsənov lombardların girovlarla bağlı etdiyi fırıldağı şərh edərkən belə deyib. Onun sözlərinə görə, Mülki Məcəllənin 302.7-ci maddəsinə əsasən lombard girov predmeti olan əşyanı yalnız açıq hərracdan sata bilər. Bu isə o deməkdir ki, əşyanı girov qoyan, yəni borc alan özü də açıq hərracdan əldə edə bilər.**

"Lakin lombardlarımız açıq hərrac təşkil etmir. Sadəcə, müştərinin əşyasını mənimsəyirlər. Faktiki olaraq oğurlayırlar. Halbuki Mülki Məcəllənin 302.5-ci maddəsinə görə, lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək ixtiyarı yoxdur. Xatırladıram ki, həmin məcəllənin 302.6-cı maddəsinə uyğun olaraq isə lombard girov qoyulmuş əşyanın itirilməsi və zədələnməsi üçün məsuliyyət daşıyır.

Yeri gəlmişkən, lombardların qanunsuz əməlləri bununla bitmir. Belə ki, məsələn, Mülki Məcəllənin 302.4-cü maddəsinə əsasən lombard girov götürdüyü əşyanı onun girova qəbul olunduğu anda əşyanın bazar qiymətinin tam məbləğində girov qoyanın xeyrinə sığorta etdirməlidir. Təcrübədə lombardlar, bir qayda olaraq, bu vəzifələrini icra etmir",- deyə ekspert bildirib.

**Onun sözlərinə görə, ölkədə lombardların fəaliyyəti qanunsuzdur:** "Mülki Məcəllənin 302.1-ci maddəsi lombardların fəaliyyətinin lisenziyalaşdırılmasını tələb etsə də, lisenziyanı verməli olan dövlət orqanı hələ də müəyyən edilməyib. Buna görə də lombardlar lisenziyasız və heç bir nəzarət olmadan fəaliyyət göstərir. Digər tərəfdən, lombardların əksəriyyətinin kapitalı, öz vəsaiti gülünc məbləğ təşkil edir- 2 manatdan 200 manatadək olur. Yəni bunun hesabına kredit verirlər. Belə çıxır ki, bizim lombardlar kreditləri öz vəsaitləri deyil, cəlb edilmiş vəsaitlər hesabına verir. Yəni birindən aşağı faiz dərəcəsi ilə borc alıb, digərinə yüksək faiz dərəcəsi ilə kredit verir. Başqa sözlə, əslində bizim lombardlar qanunsuz bank fəaliyyəti ilə, yəni cəlb edilmiş pul vəsaitləri hesabına kredit fəaliyyəti ilə məşğul olur".

❑ RÖYA

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015

**Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində gərginlik davam edir. Ötən həftənin son günlərində 4 hərbçisini itirən, 16 əsgərini isə yaralı vəziyyətdə hospitallara daşıyan Ermənistan rəhbərliyinin qisas alınacağı barədə anonsundan sonra vəziyyət daha da gərginləşib.**



# Qarabağda ağır döyüşlər - düşmən 7 əsgər itirdi, Azərbaycan 3 şəhid verdi...

Siyasi analitiklər və hərbi ekspertlər böyük savaşın başlanmasını indi daha real sayır; Sərkisyanın özünüifşa bəyanatından sonra ordumuzun raket zərbələri Qarabağ ermənilərini qaçmağa vadar edib...

Sentyabrın 27-də gün ərzində və 28-nə keçən gecə Silahlı Qüvvələrimizin bölmələrinin qabaqlayıcı tədbirləri nəticəsində qoşunların təmas xəttində düşmənin fəallaşmaq cəhdinin qarşısı alınıb. Müdafiə Nazirliyinin rəsmi saytı xəbər verir ki, erməni hərbi bölmələrinin ön səngərlərinə, mövqelərinə, eləcə də müəyyən edilmiş koordinatda onun müdafiəsinin dərinliyindəki canlı qüvvəsi və döyüş texnikasının toplanma məntəqəsinə endirilən zərbələrindən sonra qarşı tərəfin 7 hərbi qulluqçusu məhv edilib, çoxlu sayda yaralısı var. Düşmənlə ağır döyüşlərdə cəbhənin müxtəlif istiqamətlərində Silahlı Qüvvələrimizin 3 hərbi qulluqçusu şəhid olub. "Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və qoşunların təmas xəttində təxribatların qarşısını almaq məqsədilə düşmənə qarşı müvafiq tədbirlər həyata keçirilir" - nazirliyin məlumatında bildirilir.

Xəbər verildiyi kimi, Azərbaycan ordusunun Dağlıq Qarabağdakı işğalçı erməni birləşmələrinə 3 gün öncə cavab olaraq endirdiyi raket-artilleriya zərbələri Ermənistanda və Xankəndində şok effekti yaradıb. Cəbhədəki itkilərdən özünü itirən erməni hakimiyyəti xalq etirazlarından ehtiyatlanaraq baş vermiş hadisə ilə bağlı cinayət işi açıb. Xankəndində isə "şəhər günü" ilə bağlı keçiriləcək bayram tədbirləri ləğv edilib. Bazar günü keçirilən dövlət komissiyasının iclasında Ermənistan prezidenti Serj Sərkisyan bəyan edib ki, "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir".

Qeyd edək ki, erməni prezident bu iddianı ilk dəfə səsləndirib. Bundan öncə Qarabağın işğalında iştirakını dəfələrlə bəyan etsə də, Dağlıq Qarabağı müstəqil subyekt kimi təqdim etməyə çalışırdı və Qarabağ separatçılarının üçüncü tərəf kimi danışıqlarda iştirakına cəhd edir, bu da olmasa, Bakını Xankəndi ilə danışıqlar aparmağa çağırırdı. Müşahidəçilərə görə, ordumuzun sarsıdıcı zərbəsi Sərkisyanın özünü ifşa etməsinə şərait yaradıb.

**"Prezident Serj Sarkisyanın Dağlıq Qarabağın Ermənistana məxsus olmasına dair bəyanatı təəccüb doğurmaya bilməz, çünki o, İrəvanın bu məsələ ilə bağlı rəsmi mövqeyi ilə ziddiyyət təşkil edir". Bunu isə ABŞ dövlət katibinin Cənubi Qafqaz üzrə sabiq köməkçisi Metyu Brayza bildirib. ("Vestnik Kavkaza") Brayza deyib ki, Sərkisyanın bəyanatı onu təəccübləndirir:** "Nəzərə alaq ki, bu, Ermənistanın uzun müddət ərzində tutduğu mövqe ilə ziddiyyət təşkil edir. Bu mövqeyə görə müstəqil "Dağlıq Qarabağ respublikası" mövcuddur, onun "vətəndaşlar"ı öz liderini özü seçir, "o", öz iqtisadiyyat və hüquq sahələrinə özü rəhbərlik edir və Ermənistan nə diplomatik, nə də hüquqi cəhətdən onu tanımır". **Diplomat əlavə edib ki, Sərkisyanın nə üçün belə bir bəyanat verdiyini başa düşmək çətindir:** "Məgər Ermənistan hökuməti öz siyasətində kəskin dəyişiklik edib? Lakin siyasətin bu kimi dəyişdirilməsi Dağlıq Qarabağın bir çox sakinləri üçün, xüsusilə də bu regionun siyasi liderləri üçün dərin məyusluq yarada bilər".

Məyus olan, üstəlik, böyük savaşın hər an başlayacağından təşvişə düşən Qarabağdakı ermənilər isə artıq xilas yollarını aramaqdadır. Bir müddət öncə Ermənistanın Azərbaycanla *(Tovuz istiqamətində-red.)* həmsərhəd kəndlərinin sakinlərinin də evakuasiya olunduğu xəbəri yayılmışdı. Erməni hakimiyyəti İrəvan ətrafında qurulan qaçqın şəhərciyini hərbi təlimlərin tərkib hissəsi kimi izah etməyə çalışsa da, ekspertlər bunu müharibə hazırlığı kimi izah etmişdilər. Yayılan digər məlumata görə, Azərbaycan ordusunun erməni hərbi birləşmələrinin mövqelərini raket-artilleriya atəşinə tutmasından sonra təmas xəttinə yaxın Ağdərə ərazisində qeyri-qanuni yerləşdirilən əhali evlərini tərk edir. Publika.az xəbər verir ki, "Kavkazskiy uzel"in Azərbaycanın işğal edilmiş Ağdərə rayonunun Talış və Maqadis kəndlərindən hazırladığı reportajda əhalinin qaçmağa hazırlaşdığı qeyd olunur. Əhali 24-25 sentyabr tarixlərində şiddətli atışmalara şahid olduqlarını deyir. Lakin onlar etiraf edirlər ki, Azərbaycan ordusu birbaşa kəndləri, mülki əhalini hədəfə almayıb. Buna görə də kənd əhalisindən heç kim ölməyib. **Maqadis kəndinin icma rəhbəri Zaven Avanesyan bildirib:** "Kəndi hədəfə almırdılar, lakin mərmilər yaxınlıqda partlayır, kəndin üzərindən uçub çaya düşürdü". **Talış kənd sakini Nikolay Abelyan ailəsini kənddən çıxarmaq niyyətində olduğunu bildirib.** "Hər kəsdə qorxu yaranıb və heç kim müharibənin olmasını istəmir", - deyə o bildirib. **Talış kənd icmasının rəhbəri Vilen Petrosyan isə qeyd edib ki, indiyə qədər bu cür güclü atəş səsləri eşitməyiblər:** "Qarabağ müharibəsindən indiyə qədər belə güclü atışma olmamışdı. Onların hədəfi hərbi postlar idi. Kənd postlardan cəmi 3 kilometrlik məsafədə yerləşir, istəsəydilər asanlıqla evləri vura bilərdilər. Kənddə böyük qorxu var və hər kəs evlərini tərk etmək istəyir. Mən hökumətin qarşısında vəziyyət pisləşəcəyi təqdirdə qadın və uşaqların çıxarılması üçün yol çəkilməsi məsələsini qaldırmışam".

Reportajda təmas xətti yaxınlığında qanunsuz şəkildə köçürülən ermənilərin böyük qorxu içində olduğu və evlərini tərk etməyə hazırlaşdıqları qeyd olunur.

***

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, rəsmi Bakı bütün beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ardıcıl iş aparır:** "Nəzərə almaq lazımdır ki, BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli ilə əlaqədar 4 qətnaməsi var. Həmin qətnamələrin icrasından irəli gələn məsələlər də bilavasitə BMT Təhlükəsizlik Şurasının nəzarətində olmalıdır. Biz çox təəssüf edirik ki, Təhlükəsizlik Şurası özü qəbul etdiyi qətnamələrin tələblərinin icrasını təmin etmir". **XİN təmsilçisi qeyd etdi ki, bu il BMT-nin 70 illiyi qeyd olunur və qurumun 70-ci sessiyası çərçivəsində müzakirə olunan məsələlərdən biri də Qarabağ münaqişəsidir:** "BMT Baş Assambleyasının gündəliyində "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət adlı" məsələ var. Eyni zamanda "GUAM ölkələri ərazilərində həlli uzadılmış münaqişələr məsələsi" gündəlikdə yer alıb".

**H.Hacıyev Ermənistanın aqressiv davranışlarına münasibətdə rəsmi Bakının mövqeyinin dəyişmədiyini xatırlatdı:** "Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunması üçün bütün zəruri addımları atacaq. Hazırda ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə danışıqlar gedir. Danışıqlar Azərbaycanın gözlədiyi nəticəni verməsə, Azərbaycanın ata biləcəyi addımların nəticələrinin bütün məsuliyyəti Ermənistanın üzərinə düşəcək. BMT nizamnaməsi də Azərbaycana bu hüququ tam şəkildə verir".

**Hərbi ekspert Üzeyir Cəfərov qəzetimizə dedi ki, Ermənistanın cinayətkar dövlət başçısının son isterik çıxışları onu deməyə əsas verir ki, bu adam bəlkə də hakimiyyətinin son günlərini, aylarının olmasını dərk edir:** "Uzun illər Qarabağla bağlı hətta ən kritik dönəmlərdə belə öz səbrini basmağı bacaran Serj Sərkisyan bu dəfə bütün baryerləri və əndazəni aşdı. Onun yeganə istəyi tez bir zamanda Azərbaycanı müharibəyə cəlb etmək və bununla da öz hakimiyyətini daha da bir az uzatmaqdır. Çünki günü-gündən paytaxt İrəvanda və Ermənistanın digər bölgələrində Sərkisyana qarşı narazılıqlar artır. Belə olan şəraitdə əgər hər hansı ciddi toqquşmalar baş verərsə, mənim düşüncəmə görə, Azərbaycan çox asanlıqla istədiyi nəticəni əldə edə bilər". **Cəbhədəki son toqquşmalara və qarşılıqlı itkilərə, ordumuzun durumuna gəldikdə, Ü.Cəfərov bunları söylədi:** "Əlbəttə, unutmaq lazım deyil ki, əgər müharibə başlayarsa, bizim də itkilərimizin olması qaçılmazdır. Buna hazır olmaq və baş verə biləcək itkilərə görə nə panikaya düşmək, nə də Silahlı Qüvvələrimizi tənbeh etmək lazım deyil. Ordumuz indi çox hazırlıqlıdır və düşməni ən sərt formada cəzalandırmaq üçün bütün imkanlara malikdir".

**Erməni prezidentin Azərbaycanla savaşa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) və Moskvanı köməyə çağırmasına gəlincə, hərbi ekspert hesab edir ki, Sərkisyanın bu cəhdləri fayda verməyəcək:** "Çünki həm ikitərəfli sazişlərə görə həm də müqavilə şərtlərinə görə, adıçəkilən ölkə və qurum yalnız Ermənistana birbaşa təhlükə olduğu zaman məsələyə qarışa bilər. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərində onlar hansı hüquq əsnasında Ermənistanın işğalçılıq siyasətinə dəstək verə bilər? Ona görə də mən belə bir köməyin olacağına inanmıram. Olarsa, bunun zərərini Rusiya çox ağır formada görəcək".

**Bəs arzuolunmaz vəziyyət yaranarsa, o halda Bakı Ankaradan hərbi dəstək istəyə bilərmi?** Ü.Cəfərov: "Düşünmürəm ki, Azərbaycan Türkiyəni köməyə çağıra bilər. Şükürlər olsun ki, Silahlı Qüvvələrin həm maddi imkanları, həm də şəxsi heyətin hazırlıqları Ermənistanın işğalçı qoşunlarını separatçılarla birgə ərzilərimizdən uzaqlaşdırmağa kifayət edir".

**Politoloq Arzu Nağıyev "Yeni Müsaqvat"a bildirdi ki, Sərkisyanı danışdıran bir neçə amil var:** "Əsas amil Rusiya ilə tərəfdaş olmasıdır və təbii ki, ərazisində 102 saylı bazanın yerləşməsidir. Çox istəyir ki, müharibənin əsas nüvəsini Ermənistan ərazisinə çəksin və təbii ki, KTMT -nin üzvü kimi Rusiya da bu münaqişənin ləqallaşmış üzvü olsun. Məhz buna görə də elə bəyanatlar verir və təbii ki, bu, dünya ictimaiyyətinə də bir ismarışdır. Cəbhə bölgələrində, istər Dağlıq Qarabağdakı ermənilərlə təmas xəttində, istərsə də sərhəd rayonlarında ermənilər tərəfindən edilən son təxribatlar planlı şəkildə, məhz BMT-nin sessiyası vaxtı baş verdi. Bununla yanaşı, ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə hər iki dövlətin xarici işlər nazirlərinin görüşü zamanı belə bir təxribatlara əl atmaq erməni təcavüzünün məntiqi davamı kimi qiymətləndirilməlidir".

**A.Nağıyev xatırladı ki, bu təxribatlar vaxtı ermənilər çoxsaylı itki verərək geri çəkilib:** "Çox təəssüf ki, Azərbaycan ordusunda da şəhidlər var. Məlumdur ki, Ermənistanın son vaxtlar Rusiya ilə yaxınlaşması və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında üzvlüyü də bunun əsas səbəblərindən biridir. Bütün bunlardan qaynaqlanan təxribatların məntiqi nəticəsi kimi Sərkisyan açıq şəkildə etiraf edir ki, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın daxili işidir və avtomatik olaraq işğal faktını da çəkinmədən etiraf edir. Ermənistan rəhbəri bilir ki, beynəlxalq təşkilatlar susur, havadarlar isə onların tərəfdarıdırlar. Qeyd etmək istərdim ki, ən pis sülh, ən yaxşı müharibədən daha önəmlidir. Buna görə də Azərbaycan tərəfi hələ ki Dağlıq Qarabağ münaqişəsinin həllini Madrid prinsipləri çərçivəsində sülh yolu vasitəsilə həll etməyə çalışır və bunun üçün bütün diplomatik səylərdən istifadə edir. Təbii ki, bununla paralel olaraq erməni təcavüzkarlarına da güc nümayiş etdirmək vacibdir, ona görə ki, erməniləri sülh danışıqları masasına əyləşdirmək üçün mütləq hərbi güc göstərmək lazımdır. Çünki artıq çıxış yolumuz qalmır. Səbəbi də odur ki, beynəlxalq təşkilatlar bəyanat verməkdən o tərəfə keçmirlər".

Vəziyyətin gərginliyi həmsədrləri növbəti dəfə ənənəvi bəyanatlarını səsləndirməyə vadar edib. Eyni zamanda XİN başçılarının görüşündə prezidentlər səviyyəsində danışıqların davam etdirilməsi istiqamətində prinsipial razılığın əldə olunduğu deyilir. Rəsmi Moskvadan da Qarabağ cəbhəsində baş verənlərə reaksiya gəlib. "ATƏT-in Minsk Qrupu Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə yeni həllərin axtarışı və artıq əldə edilmiş həllərin reallaşdırılması prosesinə sadiqdir". "Trend"in TASS-a istinadən verdiyi məlumata görə, bunu Rusiya XİN rəhbəri Sergey Lavrov ATƏT-in Minsk Qrupu həmsədrləri ilə görüşün açılışında deyib. S.Lavrov bildirib ki, mən şadam ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində irəliləmək üçün artıq atılmış addımlara əlavə edə biləcəyimiz imkanımız yaranıb: "Hər bir həmsədr ölkə bu prosesə sadiqdir".

Lakin qəribəsi odur ki, bu dəfə də nə Moskvadan, nə də Qərbdən Ermənistanın təcavüzkarlığına işarə də vurulmayıb. Belə vəziyyət isə müharibəni qaçılmaz edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015

# "İpə-sapa yatmayan" sürücülər çoxalıb

**Bakıda avtomobili sərxoş halda idarə edən, işıqforun qırmızı işığında yolu keçən, yolayrıcını keçmə qaydalarını pozan sürücülərin sayı artıb.**

Bunu "Trend"in sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis **polkovniki Vaqif Əsədov deyib.**



Onun sözlərinə görə, 2015-ci il yanvarın 1-dən sentyabrın 26-dək paytaxtda 598 yol-nəqliyyat hadisəsi baş verib: "Nəticədə 167 nəfər ölüb, 663 nəfər xəsarət alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hadisələrin sayı 70, ölüm sayı 68 fakt azalıb, xəsarət alanların sayında isə 4 fakt artım olub. Təkcə ötən həftə ərzində, yəni sentyabrın 19-dan 26-dək Bakıda 12 yol qəzası baş verib. Nəticədə 3 nəfər ölüb, 14 nəfər xəsarət alıb. Ondan əvvəlki həftə ilə müqayisədə 4 hadisə, 3 ölüm faktı azalsa da, 1 xəsarət faktı artıb".

**V.Əsədov qeyd edib ki, bu il yanvarın 1-dən sentyabrın 26-dək Bakı şəhəri üzrə yollarda təhlükəsizliyin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində 691667 inzibati protokol tərtib edilib:** "Bunlardan 139722-si sürücülərə yolayrıcını keçmə qaydalarını pozduğuna, 13408-i avtomobili sərxoş halda idarə etdiyinə, 10026-sı işıqforun qırmızı işığında keçdiyinə, 8487-si sürət həddini aşdığına, 6846-sı ötmə və manevretmə qaydalarını pozduğuna, 3324-ü qəza şəraiti yaratdığına, 2892-si polisin qanuni əmrinə tabe olmadığına, 2667-si avtomobili müvafiq sənədləri, 466-sı dövlət nömrə nişanı olmadan, 2674-ü isə icazə verilməyən pərdə və plyonkalı idarə etdiyinə, 1649-su sərnişindaşıma qaydalarını pozduğuna, 578-i avtoxuliqanlığa görə tərtib edilib. Yol hərəkəti qaydalarını pozduğuna görə 84515 halda piyadalar cərimə olunub. Digər qayda pozuntuları ilə bağlı 374140 protokol tərtib edilib. Bundan başqa, MMX vasitəsilə 243464 elektron protokol tərtib edilib".

**Bölmə rəisi bildirib ki, tərtib edilmiş protokolları ötən ilin müvafiq dövrü ilə müqayisə etdikdə bəzi qayda pozuntularında azalma, bəzilərində isə təəssüf ki, artım müşahidə edilir:** "Məsələn, ötən ilin analoji dövrü ilə müqayisədə avtomobili sərxoş halda idarə etmə 335, qırmızı işıqdan keçmə 1709, yolayrıcını keçmə qaydalarını pozma isə 17247 fakt artıb. Bu isə bizdə böyük narahatlıq doğurur. Əksinə, sürücülər tərəfindən sərnişindaşıma qaydalarının pozulması 470, ötmə və manevretmə qaydalarının pozulması 455, avtomobilin icazə verilməyən pərdə və plyonkalı idarə edilməsi 1167, sənədsiz idarə edilməsi 433, qoşa xəttin və tək bütöv xəttin tələbini pozaraq əks istiqamətli yol zolağına çıxma, "giriş qadağandır" və "hərəkət qadağandır" nişanlarının tələblərinin pozulması 771 fakt azalıb. Piyadalar tərəfindən də yol hərəkəti qaydalarının pozulması 26477 fakt azalıb. Bundan başqa, polisin qanuni əmrinə tabe olmayan, dəmiryol keçidi qaydalarını pozan, avtomobili yüksək sürətlə və dövlət nömrə nişanı olmadan idarə edən sürücülərin sayı da azalıb ki, bu da bizi sevindirir. Bakı şəhər Dövlət Yol Polisi İdarəsi qayda-qanunlara əməl edən bütün sürücü və piyadalara təşəkkürünü bildirir, "ipə-sapa yatmayanları" isə bir daha qanunlara riayət etməyə çağırır. Onların özbaşınalığı həm özləri, həm də cəmiyyət üçün təhlükə mənbəyidir".




# "Nar" təmsilçiləri 28 Sinema-da təşkil olunan "Karyera günü" tədbirində aktiv iştirak etdilər

## "Təcrübəçi" filminin premyerasından öncə baş tutan tədbirdə insan resurslarının işə cəlb edilməsi istiqamətində maraqlı təcrübə yaşandı

**"Nar" mobil operatoru istedadlı və bacarıqlı gənclərin, peşəkar kadrların işə cəlb edilməsi istiqamətindəki fəaliyyətini davam etdirir. Belə ki, sentyabr ayının 22-də "Nar" təmsilçiləri Azərbaycanın premium kinoteatrı olan "28 Cinema" kinoteatrında "Təcrübəçi" filminin qapalı premyerası zamanı təşkil edilmiş olduqca maraqlı bir tədbirdə aktiv iştirak ediblər. Qeyd edək ki, adıçəkilən filmdə yeni işə başlayan bir təcrübəçidən və insan resurslarının idarə edilməsi problemindən bəhs edilir. İnsan resurslarına hər zaman xüsusi önəm verən "Nar" operatoru da bu gözəl fürsətdən yararlandı.**

Gəlin birlikdə böyüyək

**Premyera öncəsi kinoteartrın foyesində quraşdırılmış "Nar" masasında fərqli bir təcrübə yaşandı. "Nar" masası gənclərin diqqətini cəlb etdi. İşə qəbul prosesi formatında aparılan söhbət zamanı maraq kəsb edən iştirakçıların tərcümeyi-halları, onlar haqqında digər vacib məlumatlar toplandı. Son dərəcə məhsuldar və maraqlı keçən görüşdə jurnalistlər, blogerlər, və müxtəlif şirkət nümayəndələri iştirak etdilər.**

**Bu görüş bacarıqlı, istedadlı və savadlı kadrların "Azerfon" şirkətində işə cəlb edilməsi perspektivləri baxımından çox səmərəli oldu.**

# Ağstafada gəlin maşını qəzaya düşdü

**Ağstafa rayonunda yol-nəqliyyat qəzası baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə Bakı-Qazax magistralının Ağstafa rayonunun Qırlı kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

Qazağın Şıxlı kəndindən Gədəbəy rayonuna gəlin gətirməyə gedən "Hyundai" markalı avtomobillə "Naz-Lifan" markalı avtomobil toqquşub. Qəza nəticəsində hər iki avtomobil yolun kənarına çıxıb. "Hyundai"nin sürücüsü, 54 yaşlı Dursun Əhmədov və onun 23 yaşlı qızı Aytəkin Əhmədova müxtəlif bədən xəsarətləri alaraq Ağstafa Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Yaralıların vəziyyəti orta-ağır qiymətləndirilir.

Fakta bağlı Baş Dövlət Yol Polisi İdarəsində araşdırma aparılır.

# Bakıda həbsxanada kütləvi dava düşdü

**Bakıdakı cəzaçəkmə müəssisələrindən birində məhbuslar arasında kütləvi dava düşüb. Bu barədə "Report"a Xətai Rayon Polis İdarəsindən (RPİ) məlumat verilib. Belə ki, 7 saylı cəzaçəkmə müəssisəsində 27 yaşlı məhbus Cavanşir Nəcəfov 41 yaşlı məhbus Teymur Ağayevi döyərək ona ağır bədən xəsarətləri yetirib. Davaya digər məhbuslar da qarışıb. Faktla bağlı Xətai RPİ-də araşdırma aparılır.**

# Ana və azyaşlı oğlunu maşın vurdu

**Azərbaycan paytaxtında ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə Bakı Şəhər Baş Polis İdarəsindən oxu.az-a verilən məlumata görə, sentyabrın 26-da Xətai rayonu Gəncə prospektində Bakı şəhər sakini, 1992-ci il təvəllüdlü Vüqar Romanoğlu idarə etdiyi "Jeep-Grand Cherokee" markalı avtomobillə Culfa rayon sakinləri - 1988-ci il təvəllüdlü Gülnar Əsgərovanı və oğlu 2009-cu il təvəllüdlü Fərid Cəfərovu vurub.**

F.Cəfərov aldığı xəsarətlər nəticəsində xəstəxanada ölüb. Faktla bağlı araşdırma aparılır.

# Bakıda film kimi qəza: bir piyadanı iki maşın vurdu

**Bakının Nizami rayonunda piyadanın ölümü ilə nəticələnən qəza baş verib. APA-nın məlumatına görə, hadisə Nizami rayonu, Mikayıl Əliyev küçəsindəki şadlıq evlərindən birinin qarşısında qeydə alınıb.**

Toy məclisindən çıxan hələlik kimliyi bilinməyən 50-55 yaşlarındakı kişini əvvəlcə 10 SE 574 dövlət nömrə nişanlı "Opel", daha sonra isə 90 NG 694 dövlət nömrə nişanlı "Hyundai" markalı avtomobil vurub. Zərbənin təsirindən piyada hadisə yerindəcə keçinib.

Olay yerinə Nizami Rayon Polis İdarəsinin əməkdaşları gəliblər. İlkin araşdırma zamanı məlum olub ki, "Hyundai" markalı avtomobilin sürücüsü hadisədən dərhal sonra avtomobili ilə ərazidən qaçaraq uzaqlaşıb. Polis əməkdaşları onun avtomobilinin dövlət nömrə nişanlarından birini ərazidə tapdıqdan sonra axtarışlara başlayıblar.

Nizami Rayon Polis İdarəsi əməkdaşlarının APA TV-yə verdiyi məlumata görə, hadisənin səbəbləri ərazidəki müşahidə kameralarına baxıldıqdan sonra müəyyən ediləcək.

Qeyd edək ki, qəzadan sonra Mikayıl Əliyev küçəsində bir müddət nəqliyyatın hərəkətində sıxlıq yaranıb. Əraziyə Nizami Rayon Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları cəlb olunduqdan sonra yolda nəqliyyat hərəkəti əvvəlki vəziyyətinə qayıdıb. Meyit isə şəxsiyyətinin müəyyənləşdirilməsi üçün morqa aparılıb.

Faktla bağlı Nizami Rayon Polis İdarəsində araşdırma aparılır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarm dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

## Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 214 (6242) 29 sentyabr 2015

# Bayram günləri yollarda "qurban" olanlar...

**Qurban bayramı günlərində Azərbaycanda baş verən yol qəzalarının statistikası açıqlanıb. Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev APA-ya açıqlamasında bildirib ki, son 4 gündə respublikanın avtomobil yollarında 45 yol-nəqliyyat hadisəsi qeydə alınıb ki, nəticədə 9 nəfər ölüb, 47 nəfər xəsarət alıb. Baş vermiş yol qəzalarından 20-si piyadaların vurulması ilə bağlı olub. Nəticədə 5 nəfər ölüb, 16 nəfər yaralanıb.**

## Yol qəzaları ildən-ilə artır, bayramlar "qara bayram"a çevrilir

"Qurban bayramı günlərində Bakı şəhərinin yollarında avtomobillərin tam rahat və ən təhlükəsiz hərəkəti qeydə alınıb".

Bunu SalamNews-a açıqlayan Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin şöbə müdiri Vaqif Əsədov söyləyib ki, yalnız qurbanlıq qoyunların satıldığı ərazilərə yaxın küçələrdə avtomobillərin sıxlığı qeydə alınıb.

Onun sözlərinə görə, qurban əti almaq istəyənlərin çoxluğu və yaxud avtomobillərin yolun hərəkət hissəsində dayanması bu sıxlığın yaranmasına səbəb olub: **"Təbii ki, bu hadisə yol polislərinin gördüyü operativ tədbirləri nəticəsində bir saat ərzində aradan qaldırılıb".**

V.Əsədov qeyd edib ki, ötən həftə Bakı şəhərinin yollarında baş verən qəzalar nəticəsindən ölüm hallarının sayında xeyli azalma olub: **"Bütün göstəricilərə görə müsbət nəticələr var".**

"Yeni Müsavat" isə xatırladır ki, iki ay bundan öncəki Ramazan bayramı günlərində respublika ərazisində 56 yol nəqliyyat hadisəsi baş verib. 56 qəzada 11 nəfər həyatını itirib, 76 nəfər müxtəlif bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Yol qəzalarından doqquzu paytaxtda baş verib. Bu qəzalar nəticəsində 2 nəfər ölüb, 25 nəfər isə yaralanıb. Rayonlarda baş verən qəzalarda 4 günə 9 nəfər dünyasını dəyişib, 23 nəfər xəsarət alıb.

Daha çox iki avtomobilin toqquşması ilə bağlı qəzalar qeydə alınıb.

Qonşu Türkiyədəki statistik göstəricilər isə fəlakətin özüdür. Dünənki son statistik rəqəmlərə görə, Qurban bayramında baş verən 163 ağır yol qəzalarında 134 nəfər dünyasını dəyişib.

Daha öncə bu mövzuda yazdığımız məqalələrdə, aparılan araşdırmalarda da üzə çıxmışdı ki, bayram tətillərində qəzaların sayının artması insanların daxilindəki doğmalarına qovuşma arzusundan qaynaqlanır. Bu isə yüksək sürət, yol-hərəkət qaydalarını pozmaq hesabına mənzilbaşına tez çatma cəhdi ilə müşayiət olunur.

Reklam dünyası hər gün inkişaf edən, yeni texnologiyadakı maşınları tərifləməkdən doymur. Amma bu, "texnologiya xarüqəsi"nin ölüm aparatına çevrilməsinin qarşısını ala bilmir. Demək ki, maşınların mükəmməl olması çox da işə yaramır. İnsan faktoru ön plana çıxır.

Statistik araşdırmalar göstərib ki, bayram günlərində baş verən qəzalar daha çox bayramın ilk və son günlərində pik həddinə çatır. Onların 52 faizi 12.00-16.00 radələrində yaşanır. Qəzaların 29 faizi maşının



sürətini yol və hava şərtlərinə uyğunlaşdırmamaq, 21 faizi qovşaq və döngələrdə maşının sürətini azaltmamaq ucbatından yaşanıb. Yeni toplam qəzaların 50 faizi yüksək sürətdən qaynaqlanır. Səhv dönüş və ya manevr etmək qəzaların 15 faizinin səbəbidir.

Bundan başqa, yol qəzalarının 50 faizi insanlardan qaynaqlanır və daha çox 18-24 yaşlı sürücülər tərəfindən törədilir. Bu yaş qrupundakı gənclərin qəzaya yol vermə faizi digər yaş qruplarından 3 dəfə artıqdır.

Yaşla bağlı olan bir başqa risk qrupu da 65 yaşdan böyük olan sürücülərdir. Bu yaş qrupu üçün qəzaya səbəb olan faktorlar gənc sürücülərinkindən fərqlidir. Çünki bu qrupdakılar da avtomobili idarə etmə qabiliyyətinin pozulması, yavaşlaması və hissiyyat orqanlarının da zəifləməsi ucbatından qəzaya meyllidirlər.

Qəzalara səbəb olan ikinci ünsür maşınlardır. Son illər istehsal olunan maşınların köhnələrlə müqayisədə təhlükəsizlik sistemi çox daha yaxşı inkişaf etsə də, məhz sürətli olmaları ucbatından sürücülərdə özünə güvəni artırır və bu da qəzalara səbəb olur.

Üçüncü səbəb isə yollarla bağlıdır. Yeni inşa olunan yollar avtomobillərin inkişaf sürəti ilə ayaqlaşmır.

Statistik araşdırmalar göstərib ki, bayram günlərində baş verən qəzalar daha çox bayramın ilk və son günlərində pik həddinə çatır. Onların 52 faizi 12.00-16.00 radələrində yaşanır. Qəzaların 29 faizi maşının sürətini yol və hava şərtlərinə uyğunlaşdırmamaq, 21 faizi qovşaq və döngələrdə maşının sürətini azaltmamaq ucbatından yaşanıb. Yeni toplam qəzaların 50 faizi yüksək sürətdən qaynaqlanır. Səhv dönüş və ya manevr etmək qəzaların 15 faizinin səbəbidir.

Mütəxəssislər qəzanın qarşısını almaq üçün bəsit çıxış yolları göstərir. Bunların sırasında yola çıxmazdan öncə maşını tam yoxlamadan keçirmək, səyahət istiqamətindəki yollar barədə məlumata sahib olmaq, hər iki saatdan bir 15 dəqiqə istirahət etmək, sürmə zamanı bol-bol su içmək, kondisionerdən fasiləsiz istifadə etməmək, pəncərələri zaman-zaman açıb, içəridəki havanı dəyişmək xüsusi yer alıb.

Dünyada yol-nəqliyyat hadisələri nəticəsində hər gün 3000 nəfər ölür, 100 minə yaxın adam ciddi xəsarət alır. Həlak olan və xəsarət alanların böyük hissəsini gənclər təşkil edir. BMT-nin məlumatına görə, yol-nəqliyyat hadisələri hər il 1 milyon 200 min nəfərin həyatına son qoyur. 20-50 milyon adam isə müxtəlif dərəcəli bədən xəsarəti alır. Yol qəzası qurbanlarının 50 faizini 15-44 yaşlı şəxslər təşkil edir.

Ümumdünya Səhiyyə Təşkilatının proqnozlarına görə, 2020-ci ilədək yol qəzaları nəticəsində travmatizm dünyada ölüm və ya şikəstliyin üçüncü əsas səbəbinə çevrilə bilər. Yol qəzalarının əsas səbəbləri yüksək sürət, alkoqol qəbulu, nəqliyyat vasitələrinin və insanların təhlükəsizliyini təmin edən texniki baxış proqramının olmamasıdır.

**❑ Sevinc TELMANQIZI**

# Paytaxtda növbəti ekoloji fəlakət

## Balaxanı zibilliyi Köhnə və Yeni Günəşli arasındakı əraziyə köçürülüb; rəsmi qurumlar sakinlərin səsini eşidəcəkmi: "Pəncərəni aça bilmirik, havadan leş iyi gəlir"

**Bir zamanlar "Kərpic zavodu"nun ərazisi kimi tanınan, Xətai və Suraxanı rayonlarının kəsişməsində yerləşən, hektarlarla sahəni əhatə edən ərazi indi başdan-ayağa zibilxanaya çevrilib. Bu barədə müsavat.com-a adının çəkilməsini istəməyən sakinlər məlumat verib.**





Yerli əhalinin sözlərinə görə, 80-ci illərdə buralar Bakının ucqarlarından sayıldığı və yaşayış obyektləri az olduğu üçün bu ünvanda kərpic zavodunun fəaliyyət göstərməsi ciddi problem yaratmayıb. Lakin sonradan "Yeni Günəşli" və "Köhnə Günəşli" qəsəbələrində kütləvi tikinti işlərinin aparılması, bu əraziyə on minlərlə sakinin köçməsi şəraitində fəaliyyət göstərən kərpic zavodu ciddi narazılıqlar doğurub. Zavodun bir hissəsi hazırda fəaliyyətini dayandırsa da, bəzi sexlər işləyir. Lakin sexlərin köhnə avadanlıqlarla fəaliyyətini davam etdirməsi səbəbindən ətraf mühit ciddi şəkildə çirklənir. "Evimizin pəncərəsini açıq qoya bilmirik, pəncərəni açan kimi toz-torpaq evə dolur, külək zavoddan çıxan bütün tozu-hisi başımıza ələyir"-deyə, sakinlərdən biri şikayətlənir. Sakinlər iddia edir ki, zavodun ətrafa yaydığı toz-torpaq astma, xərçəng kimi xəstəliklərə də səbəb olur. Ona görə də əhali əlaqədar qurumlardan bu zavodun ya birdəfəlik qapadılmasını, ya da başqa əraziyə köçürülməsini xahiş edir.

Yeni və Köhnə Günəşli sakinləri zavoddan əvvəlki illərdə də mətbuata şikayətçi olub. Lakin bəzi qurumların reydlərindən və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müfəttişlərinin müdiriyyəti cərimələməsindən başqa hər hansı təsirli tədbirlər görülməyib. Üstəlik, bu şikayətlərin "cavabı" olaraq yaxınlıqda əlavə iki zavod da istifadəyə verilib. Asfalt istehsalı ilə məşğul olan bu zavodlar həm havanı çirkləndirməsi, həm də gecəli-gündüzlü səs-küyü ilə də sakinlərin rahatlığını əməlli-başlı pozub. Sakinlərdən biri zarafatla "biz şikayət edib dedik dərdimizə dəva gətirin, demədik ki, dəvə gətirin" söyləyir. Suraxanı sakinlərindən biri əlavə edir ki, kərpic zavodunun his-pasından, üstəlik, yaxınlıqdakı qum, daş bazarının toz-torpağından çarə umduqları halda, onlara daha bir asfaltzavod "hədiyyə etdilər". Bundan sonra isə bəzi sakinlər evlərini dəyər-dəyməzə satıb bu ərazidən köçmək fikrinə düşüblər. "Hələ biz şükürlüyük, küləkli havada bütün toz-torpaq "Zığ" sakinlərinin başına tökülür"-başqa birisi əlavə edir.

**"Köhnə Günəşli"nin sakinlərindən biri, adının çəkilməsini istəməyən taksi sürücüsü isə deyir ki, onların işi lap çətindir:** "Qardaş, yazmağın xeyri yoxdur. Buraları Balaxanı zibilliyinə döndəriblər. Gecə-gündüz bu əraziyə torpaq, daş, zibil dolu maşınlar gəlir, uçurumdan üzüaşağı zibili boşaldıb gedirlər. Bura artıq məşhur zibilxana kimi tanınır. Deyilənə görə, bu ərazini doldurub sonra satmaq qərarı verilib. Bütün günü zibil maşınlarının ətrafa səpələdiyi toz-torpağı uduruq. Təkcə toz olsaydı dərd yarı idi. Elə bugünlərdə Qurban bayramı münasibətilə kəsilən mal-qoyunun bütün içalatını yığıb bu əraziyə töküblər. İy-qoxudan evimizdə də otura bilmirik, pəncərəni açıq qoymaq mümkün deyil. Vaxt vardı Əhmədli ekoloji təmizliyinə görə nümunə çəkilirdi, buranın havası adla deyilirdi. Hətta rəhmətlik Heydər Əliyev özü demişdi ki, Əhmədlidə evinin olmasını istəyirmiş. İndi işbazlar elə vəziyyət yaradıblar ki, adam nəfəs ala bilmir. Pəncərəni aça bilmirik, havadan leş iyi gəlir. İnanmırsınızsa, bir az qabağa gedin, orda özünüz vəziyyətin şahidi olacaqsınız".

Ağsaqqalın dediyi istiqamətdə bir neçə yüz metr irəlilədikdən sonra doğrudan da fəlakətli vəziyyətin hökm sürdüyünün şahidi olduq. Maşın-maşın zibil qalaqlarından, söküntü materiallarından təpələr yaradılıb, bəzi qalaqlara isə od vurulub, tüstülənir, ətrafa pis qoxu yayılır. Leş iyi ətrafı bürüyüb. Təpənin üstündən isə uçurumun aşağısı hissəsinə zibil daşıyan yük maşınlarının intensiv hərəkəti aydın görünür. Ətrafı toz dumanı bürüyüb...

Söhbət əsnasında məlum oldu ki, sakinlər vəziyyət barədə əlaqədar qurumlara bir neçə dəfə şikayət etsələr də, faydası olmayıb. Onlara deyilib ki, Xətai və Suraxanının icra hakimiyyətləri vəziyyətdən nəinki xəbərdardırlar, hətta onlara böyük bir ərazinin doldurulub sonra başqa məqsədlər üçün istifadə olunması barədə tapşırıq da veriblər. Bəzi doldurulub-hamarlanmış ərazilər isə artıq müştərilərə baha qiymətə satılıb. Lakin sakinlər ərazinin faydalı məqsədlər üçün istismar olunmasının əleyhinə deyillər, sadəcə, xəstəlik mənbəyi olan zir-zibilin, üfunət qoxuyan əşyaların, qəssabxana qalıqlarının bu əraziyə daşınmasına etiraz edirlər.

Növbəti saylarımızda adıçəkilən icra hakimiyyətlərinin, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin də vəziyyətlə əlaqədar mövqeyini öyrənməyə çalışacağıq.

**❑ M.HÜSEYNLİ**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
Son səhifə
N 214 (6242) 29 sentyabr 2015



# Məşhur brendin hicablı modeli

Dünyanın ən məşhur brendlərindən biri N&M-in artıq müsəlman, özü də hicablı supermodeli var. Atası mərakeşli, anası pakistanlı olan Məriya İdrissi 23 yaşındadır. O, Londonda yaşayır və atasının açdığı müsəlman gözəllik salonunda xına ustası kimi çalışır. Milli.az bildirir ki, İnstaqramdakı profili məşhur olan Məriya barədə N&M menecerləri məlumat əldə edəndən sonra ona brendin yeni reklam kampaniyasına çəkilmək təklif olunub. Məriyanın dediyinə görə, valideynləri ilə danışıb, onların razılığını alandan sonra çəkilişə qatılıb. Çəkiliş əsnasında İdrissinin tərəf-müqabili olan kişi manekenlər ona toxunmamağa çalışıblar.

17 yaşından bəri hicablı olduğunu vurğulayan Məriya deyib: "Dünya modası hicablı xanımları sanki görmür, tanımır, nəzərə almır. Ona görə də məşhur brendin məni çəkilişlərə dəvət etməsinə təəccübləndim. Çəkilişlərdə əsasən qadınlar iştirak edirdi. Kişi modellərə xəbərdarlıq olunmuşdu ki, mənə əsla toxunmasınlar. Şəriət qaydalarının yasaqladığı hərəkətlər etməsinlər. Mənimlə çox sayğılı, hörmətlə davrandılar. Hicabı çox sevirəm. Bu, həyat tərzidir. Hicablı xanım əməllərinə, davranışına, sözlərinə fikir verir, təvazökar və sadə olmağa çalışır. Hər halda, mən buna can atıram".

# Üzümün faydası

Ən şirin giləmeyvə sayılan bu meyvənin tərkibində təbii şəkər, daha çox isə qlükoza və fruktoza var. Üzümün başqa hansı xüsusiyyətlərinə görə xeyirli olduğunu öyrənmək üçün kimyəvi tərkibinə baxdıqda görə bilərik ki, üzüm bir çox xeyirli maddələr olan - mineral, vitamin və fermentlərlə çox zəngindir. Üzümün ən əsas xeyri onun şirəsi sayılır. Bu məhlulun tərkibində çoxlu dəmir var. Üzüm şirəsinin müalicəvi xüsusiyyəti ürək, damar, qaraciyər və böyrək xəstəliklərində istifadə olunur. O, bədəndə su və zülal balansını qoruyur və maddələr mübadiləsini aktivləşdirir. Sidikqovucu təsiri isə bədəndən duz və sidik turşularının xaricinə təsir edir. Bu xeyirli giləmeyvə bir çox ciddi xəstəliklərdə də



xeyirli sayılır. Bunlara vərəm xəstəliyi də aid edilir. Onun həmçinin bəlğəmgətirici təsiri də vardır. Məhz bu səbəbdən üzümün xeyirli xüsusiyyətləri bronxit və larinqit kimi xəstəliklərdə istifadə olunur. Onun qabığı və şirəsinin tərkibində "bioflavonidlər" olduğundan, o, bu rəngə malikdir. Həmçinin tərkibində çoxlu sayda turşular da var. Bu meyvənin kimyəvi tərkibi yüzlərlə orqanik birləşmə ilə zəngin sayılır.

# Stresla mübarizaya qarşı 10 qida

İngiltərənin səhiyyə saytı olan "Healthista"da səhiyyə ilə bağlı məqalələr yayımlayan qida mütəxəssisi Şarlotta Vatts streslə mübarizə aparmaq üçün önəmli olan 10 qidanın adını açıqlayıb. Həmin qidaları təqdim edirik:

1. Çiyələk, böyürtkən;
2. Çobanyastığı çayı;
3. Şokolad;
4. Fındıq;
5. Kərəviz;
6. Meyan kökü;
7. Balıq;
8. Sarımsaq;
9. Zeytun yağı;
10. Kələm.





## Motosikletlə dünyanı gəzirlər

İngiltərədə yaşayan 23 yaşlı fotoqraf Jonas Ropas və 22 yaşlı aşçı Augustianan Bakutis motosikletlə dünyanı gəzmək üçün yola çıxıblar. 8 iyulda başlayan səyahətləri zamanı səyyahlar Slovakiya, Macarıstan, Xorvatiya, Makedoniya, Yunanıstan və Bolqarıstanı keçərək Türkiyəyə gediblər. Türkiyədən İrana keçməyi planlaşdıran dostlar Asiya, Amerika və Afrikanı gəzdikdən sonra Avropaya qayıtmağı düşünür. Onlar şəhər həyatından sıxıldıqları və dünyanı kəşf etmək üçün bu gəzintiyə çıxdıqlarını deyiblər. 1 il pul yığdıqdan sonra aldıqları motosikletlə bu günə qədər 10 min kilometr yol qət ediblər. Təbiəti çox sevdiklərini və yeni yerlərə getməkdən həzz aldıqlarını deyən dostlar Pakistan, Hindistan, Çin, Kanada, Tailand, Vyetnam, Amerika, Meksika və Afrikanı xüsusi şəkildə gəziblər. Hər gün 100 kilometr yol qət edən və səyahətin sonunda 100 min kilometri başa vuracaq olan səyyahlar bəzən sakit dağ evlərində qalmağa üstünlük verirlər. Getdikləri hər ölkədə isə bir neçə həftə qalırlar.




**QOÇ** - Aktiv gün olmadığından nəzərdə tutduğunuz planları təxirə salın. Gücünüzü daha çox ailə-məişət problemlərinin həllinə yönəldin. Şəxsi büdcənizin artma ehtimalı da böyükdür.

**BUĞA** - Bu gün bütün ixtiyar öz əlinizdə olduğundan ölçülü-biçili hərəkət etməlisiniz. Əgər müsbət müstəviyə həvəs göstərsəniz, günün sonuna qədər ovqatınız yüksək olacaq. Çılğın olmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, Tanrı qanunlarını pozmayasınız. Əks təqdirdə, bu günü gərgin şəkildə başa vuracaqsınız. Ulduzlar ikitərəfli əməkdaşlıqda böyük uğurlardan xəbər verir.

**XƏRÇƏNG** - Aldanma ehtimalınız böyüdüyündən tədbirli olmağınız vacibdir. Ola bilsin ki, ətrafınızdakılar pulla bağlı sizə kələk gəlsinlər. Axşamı ailə-sevgi münasibətlərinə həsr edin.

**ŞİR** - Şəxsi işlərinizdə müsbət dönüşün yaranacağına təminat verən ulduzlar vaxtınızı boş yerə itirməməyi tövsiyə edir. Nahardan sonra əsas diqqətinizi bütünlüklə sevgiyə həsr edin.

**QIZ** - Yeni təkliflər ala bilərsiniz. Lap səhər saatlarından bu şansa hazır olun ki, nəticədə qalib gələsiniz. Pula görə də narahat olmayın. Çünki sevincli vaxtınızın yetişməsinə az qalıb.

**TƏRƏZİ** - Məhsuldarlığınız artdığından bugünkü öhdəlikləri layiqincə yerinə yetirə bilərsiniz. Qərarlarınızda sərt, eyni zamanda qərəzsiz olun. Səfərə çıxmaq fikrinizi reallaşdırın.

**ƏQRƏB** - Əsas uğurunuz maliyyə sahəsində mümkündür. Odur ki, kisənizi hazır tutun. Həmkarlarınızla münasibətlərinizə xələl gəlməsin deyə, qalmaqallı situasiyalara həvəs göstərməyin.

**OXATAN** - Təxminən saat 13-ə qədər iştirakçısı olduğunuz situasiyalar ovqatınıza mənfi təsir göstərə bilər. Buna baxmayaraq, təmkin göstərməlisiniz ki, hər şey sakit ötüşsün. Varlanma ehtimalınız da var.

**OĞLAQ** - Üzərinizə düşən öhdəliklərə məsuliyyətlə yanaşsanız, bütün planlarınız reallığa yaxınlaşacaq. Buna baxmayaraq, yersiz risklərə də yol verməməlisiniz. Ziyarətgahlara gedin.

**SUTÖKƏN** - Daha çox fəaliyyət göstərdiyiniz idarə və müəssisələrdə ehtiyatlı olmalısınız. Boş yerə mübahisə yaratsanız, nüfuzunuza xələl gələcək. Axşama doğru kosmik fon xeyrinizə işləyəcək.

**BALIQLAR** - Ulduzlar bu gün xeyli yorulacağınızdan xəbər verir. Amma naharat olmamalı, gördüyünüz işlərdən zövq almalısınız. Nahardan sonra sizə maddi borcu olanlara müraciət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Artıq gerçək zəngin oldu

İngiltərədə yaşayan TIR sürücüsü Robert Rich və sevgilisi Mandi Dunun həyatı internet üzərindən aldıqları bir lotereya biletindən sonra dəyişib. Richin bilet satışının bitməsinə iki saat qalmış aldığı bilet onun zəngin olmasına səbəb olub. Varlı cütlük hind restoranına gedərək ucuz yeməklə qalibiyyətlərini qeyd edib. 20 dollarlıq yemək masasında jurnalistlərə müsahibə verən Rich "sürücülük asan iş deyil. Hər gün 03:30-da oyanıram. Bu işə daha çox davam edə bilməzdim. İstefa ərizəmi belə yazdım" deyib. Dun isə hisslərini belə dilə gətirib: "Lotereya qazanmaq qeyri-adi bir hissdir. Mükafatı eşitdiyim zaman göz yaşlarıma əngəl ola bilmədim. Əvvəlcə kimsə bizimlə zarafat edir deyə düşündüm".




3 uşaq sahibi olan cütlük Amerikanın Las-Veqas şəhərinə gedərək orda evlənəcəklərini dilə gətiriblər. 59 yaşlı kişi ilk dəfə bir evə sahib olacağı üçün xoşbəxt olduğunu da deyib. Soyadı ingilis dilində tərcümədən "zəngin" olan Robert Rich uşaqlarının istədiyi hər şeyi alacağını bildirib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300